AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

ƏFZƏLƏDDİN ƏSGƏR

# BÖYÜK TÜRKMANLAR VƏ MÜASİR TÜRK XALQLARI

BAKI – 2025

**AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə
(21 may 2025-ci il tarixli 3 saylı protokol) nəşr olunur**

**Əfzələddin Əsgər.** ***Böyük türkmanlar və müasir türk xalqları. Monoqrafiya.*** Bakı, Elm və təhsil, 2025, 192 səh.

"Böyük türkmanlar və müasir türk xalqları" adlanan monoqrafk araşdırmada VIII əsrdə tarix meydanına çıxıb XVI əsrdə bir xalq olaraq dağılan türkmanlardan, oğuzlar əsas olmaqla onların etnik əcdadlarından, bütün orta əsrlər boyu bu xalqın içərsində gedən proseslərdən, bu xalqın bağrından qopub deferensiallaşan etnoqrafik, etnik və etnosiyasi birliklərdən, habelə müasir türk xalqlarının, o cümlədən Türkmənistan türkmənlərinin, Azərbaycan və Türkiyə türklərinin formalaşmasındakı rolundan bəhs olunur.

*www.folklor.az*
*ISBN 978-9952-601-13-8*

*© Folklor İnstitutu, 2025*
*©Əfzələddin Əsgər*

## KİTABIN YAZILMA SƏBƏBİ

2002-ci ilin yanvar ayında Ermənistanda İrəvan yaxınlığında Üçkilsəyə (Eçmiadzin) gedən yol üstündə yerləşən Cəfərabad (indiki Arqavand) kəndindəki "Türkman əmrləri" künbəzini bərpa edilmiş və onun açılışı keçirilmişdir. Açılışda Ermənistanın bir çox rəsmi şəxsləri ilə yanaşı, Türkmənistan Respublikasının səfiri Toylu Qurbanov da iştirak etmiş və Ermənistan hökumətinə təşəkkürünü bildirmişdir. Yenə bu məsələ ilə bağlı olaraq AKP qrup başqan vəkili Hüseyin Çəlik bu hadisəni Türkiyəyə qarşı xoş münasibət kimi qəbul etmiş və bunun qarşılığında Van gölündəki Akdamar kilisəsini təmir-bərpa etmək üçün Kültür bakanlığına müraciət etmiş və Kültür bakanlığı da bu çağ;rışa müsbət cavab vermişdir.

Aydınlıq üçün öncə, haqqında danışdığımız günbəz barədə məlumat vermək istərdik. Bunsuz məsələnin nə yerdə olduğunu anlamaq çətin olardı.

Bərpa edilən abidə 1413-cü il oktyabr ayının 14-də (hicri təqvimi ilə 816-cı ildə) Əmr Sa-

adın oğlu Pir Hüseyn tərəfindən tikilmişdir. Abidənin üstündəki yazıda "xaqan" Pir Budağın, "noyon" Qara Yusifin, Əmir Saadın və oğlu Pir Hüseynin adı çəkilir. Günbəzin 1411-ci ildə ölməsi güman olunan Əmir Saadın şərəfinə tikilməsi təxmin edilir. Burada adı çəkilənlərin hamısı tarixi şəxsiyyətlərdir. Qara Yusif Qaraqoyunlu elinin bəyi və uyğun olaraq Qaraqoyunlu dövlətinin yaradıcısıdır. Abidə də Elxanlı dövlətindən aldığı *noyon* titulu ilə təqdim olunur. Oğlu Pirbudaq isə *xaqan* titulu daşıyır. Məlum olduğu kimi, Elxanlı dövlətində siyasi hakimiyyətə gəlmək üçün Çingiz soyundan olmaq şərt idi. Bu üzdən Qara Yusif sadəcə *noyon* titulu daşıyır. Ancaq onun oğlu Pir Budağı Sultan Əhməd Cəlairi oğulluğa götürdüyü üçün məşru hakimiyyət haqqı qazanmışdı. Ona görə də Pir Budağa *xaqan* titulu verilir və bu tarixi həqiqətə uyğundur.

Əmir Saadın şəxsiyyəti haqqında mənbələrdə müəyyən məlumatlar var. Bu şəxs Qaraqoyunlu tayfa birləşməsinə (elinə) aid olan Saadlu oymağının təsisçisi sayılır. XIV əsrin sonlarında yaranması güman olunan bu oymağın adı ilə təsisçisinin adı üst-üstə düşür. Çuxur-Saad bəylərbəyliyi də (XIV əsrin sonlarında yaranması gü-

man olunur) onun təsisçisi olan Əmir Saadın adı ilə bağlıdır. Əvvəllər İrəvan olan bu bəylərbəyliyin mərkəzi həmin əsrin sonlarında Naxçıvana köçürülmüşdür. Bəylərbəyilik XVIII əsrin sonlarına qədər yarımmüstəqil şəkildə yaşamışdır[1]. 1728-ci ildə tərtib olunan "İrəvan əyalətinin icmal dəftəri" ndə qarşılaşdığımız Karni əyalətinə aid Saadlu və ya (Saad) kəndi və məzrəsi, Abnik nahiyyəsinə aid Saad kəndi, Maku nahiyyəsinə aid Saqat kəndi Saadlu oymağının adı ilə bağlıdır[2]. Saadlu oymağının bir hissəsinin XIX əsrdə Azərbaycanın Güneyində – Xalxal bölgəsində yaşaması da bəllidir[3]. Saatlı adı ilə tanınan rayon başda olmaqla Azərbaycanın başqa bölgələrində də bu toponimlə qarşılaşırıq. Aydın olur ki, sözügedən oymaq tarixi Azərbaycan ərazisində yaranıb və Azərbaycan türklərinin də tərkibinə qatılıb.

Türkmənistan səfirinin abidənin sahibi olan xalqın nümayəndəsi kimi açılışda iştirak etməsi, doğrusu, bizdə heç bir təəccüb hissi doğurmadı. Çünki müasir türkmən tarixçiliyinin türk-

---

[1] Мамедов С.А. Азербайджан по источникам XV – первой половины XVIII вв. Баку, 1993, с.138-141.

[2] İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s. 47, s.49, s.98, s. 176

[3] Sümer F.Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 640

mən kimliyi haqqında təsəvvürlərindən az-çox xəbərdar idik. Onlar özlərinin etnik adına söykənərək etnik və coğrafi anlamı ilə *türkmən/türkman* adı daşıyan hər şeyi özlərinə, yəni Türkmənistan türkmənlərinə aid edirlər. Bundan başqa, onlar tarixən bu bölgələrdə qurulmuş dövlətləri də Türkmənistandan getmiş mühacirlərin dövləti sayır. Bölgədə yaranmış türkcə ədəbiyyata da münasibət eynidir. Məsələ bundadır ki, türkman adlı etnosun Mərkəzi Asiyada tarix meydanına çıxması və bu ərazilərdə böyük dövlətlər qurması tarixi həqiqətdir. Bununla yanaşı, türkmən qardaşlarımız etnik varlıq, etnik təşəkkül haqqında biliklərin mahiyyətinə varmadan *Türkmənistan türkmənləri ilə tarixi türkmanları* eyniləşdirir. Məsələyə belə münasibət həm də Azərbaycan sovet tarixçiliyinin etnik tarixə coğrafi prinsiplə yanaşmasından qaynaqlanır. Etnik tarixə cöğrafi prinsiplə yanaşan Azərbaycan tarixçiliyi etnik kimliyi də etnik coğrafiya əsasında tanıdir və sovet dövründə ortaya çıxmış *azərbaycanlı* etnonimini əsas götürərək bütün tariximizi azərbaycanlı qəlibinə uyğun şəkildə tanıdır. Təsadüfi deyil ki, tarıx kitablarımızda türkman, türk, qızılbaş kimi etnik və etnosiyasi adlar ya azərbaycanlı şəklində təqdim olunur, ya da sözügedən

etnik və ya etnosiyasi adlara *azərbaycanlı* şəklində şərh verilir. Orta əsrlərdə qurulan dövlətlər belə Azərbaycan adı ilə təqdim olunur. Halbuki o dövrdə Azərbaycan yalnız coğrafi anlam daşıyırdı. Bu şəkildə etnik tarixə münasibətdə tarixilik kateqoriyası nəzərə alınmir. Məsələyə belə yanaşma etnik tariximizi xaosa çevirir, anlaşılmaz hala gətirir. Etnik tarixin mənzərəsinə nəzər salıb onun nə halda olduğunu təsvir etmək istərdik. Azərbaycan sovet tarixçiliyində hər şey etnik kimliyin dumanlandırılmasına yönəldilib. Elə buna görə də tarixin ən dərin qatlarından bu tərəfə bölgədə baş verən etnik və siyasi proseslər bir xalqın – Azərbaycan xalqının adına yazılır. Bu zaman "Azərbaycan xalqı" bir etnos kimi yox, sadəcə olaraq bölgədə yaşayan əhalinin cəmi kimi təqdim olunur və "etnik kimliyin türkləşməsi" tezisi ortaya atılır. Yəni X-XI əsrdən başlayaraq bölgəyə gələn türkdilli tayfalar bölgənin qədim sakinləri olan irandilli və qafqazdilli tayfaları türkləşdirir və nəticədə "Azərbaycan xalqı" yaranır. "Türkdilli xalq və ya xalqlar" anlayışı da bu konsepsiyadan törəyir. Bu isə o deməkdir ki, dil etibarilə türk dilləri ailəsinə daxil olan bu xalq müxtəlif etnik qrupların ximmerasından (qarışığından) ibarətdir. Əslində, məsələ

zahirən belə görünür. "Azərbaycan tarixi"nin quruluşuna diqqət etdikdə görürük ki, bu tarixin ortasına cənubda onların nəzərində irandilli Manna-Midiya-Atropatena, şimalda qafqazdilli Albaniya qoyulub və dillərini dəyişdirib türkləşən də onlardır. Deməli, tariximiz irandilli və qafqazdilli xalqların ximmerasından ibarət türkləşmiş bir xalqın tarixidir. Bu şəkildə formalaşmış xalqın etnik kimliyi "azərbaycanlı" şəklində müəyyənləşdirilir. Azərbaycanlılar tarixən irandilli və qafqazdillidir. Dillərini itirərək türkləşdikləri üçün onlara "azərbaycanlı" adı qoyulur. Beləliklə, dünyaya yeni bir xalq təqdim olunur.

Azərbaycan xalqının etnogenezisi haqqında araşdırmalar konkret faktlara deyil, mücərrəd məntiqə söykənir. Tarixən Azərbaycan ərazisində nə qədər etnik qrup olubsa, onların hamısı Azərbaycan xalqının yaranmasında iştirak edib. Deməli, tarixən Azərbaycan ərazisində dövlət quran mannalılar midiyalılara, midiyalılar atropatenalılara, atropatenanılar isə azərbaycanlılara çevrilir. Əgər sözügedən etnosiyasi birliklər Azərbaycan ərazisində formalaşıbsa, deməli, onlar Azərbaycan xalqının etnogenezisində iştirak edib. Onların sonrakı tarixi taleyi haqqında heç bir araşdırılma aparılmadan Azərbaycan

xalqının əcdadı sayılır. Çünki etnik tarixə coğrafi yanaşma bunu tələb edir. Nəzərə alınmır ki, midiyalılar siyasi iqtidarlarını itirəndən sonra irandilli, eləcə də başqa soydan olan xalqlar içərisində əriyə də bilərdilər. Yeri gəlmişkən, bu gün qaraqalpaqlar, özbəklər, əfqanlar arasında müten adlı tayfa yaşayır. Əfsanəyə görə, onlar İrandan Təbriz ətrafından bu yerlərə gəliblər. S.A.Tolstovanın araşdırmasına görə, onlar midiyalıların varisləridir[1]. Albanlar isə bir tərəfdən erməniləşir, başqa tərəfdən isə türkləşir. Azərbaycan ərazisində tarixən mövcud olmuş türksoylu, monqolsoylu və hətta uqorsoylu tayfalar "diqqətdən kənarda qalır". Bir sözlə, sözü gedən etnik birliklərin Azərbaycan xalqının formalaşmasında iştirak dərəcəsi bir çox hallarda konkret etnoqrafik araşdırmalara söykənmir. Məsələyə belə yanaşma onlara kimliyi olmayan Azərbaycan xalqını yaratmaq üçün lazım olub. Sadəcə olaraq konkret etnoqrafik araşdırmalardan təcrid etmə mücərrəd xalq yaratmaq üçün şərait yaradır.

Etnik tarix vətən tarixi ilə əvəz olunur və sonuncu mücərrəd etnonimə çevrilir və hər şey

---

[1] Толстова С.А. Исторические предания Южного Приаралья. Москва, 1984, с. 177-193

ona münasibətdə dəyərləndirilir. Bu üzdən Azərbaycanın tarixində baş verən bütün işğalların məsuliyyəti mücərrəd Azərbaycan xalqının boynuna qoyulur. Bu ölkənin tarixində baş verən çoxsaylı işğalları yada salsaq, məsələnin nə yerdə olmasını anlamaq olar. Beləliklə, azərbaycanlılar başqa xalqlar tərəfindən idarə olunan xalqlar sırasına daxil olur. Belə bir tarixə malik olan xalqın azadlıq iddiası ola bilməz və uydurulan hər şey bu məsələyə hesablanıb.

Azərbaycan ərazisinin türksoylu fatehləri işğalçı kimi təqdim olunur və buradan da gerçək əcdadlara qarşı ikrah hissi təlqin olunur. Bunun ardınca türksoylu işğalçıların varislərinin orta əsrlərdə qurduğu dövlətlər yenidən Azərbaycan dövlətləri sayılır.

Atəşpərəstlik və onun ehkamlarından ibarət olan "Avesta", eləcə də başqa dini-fəlsəfi cərəyanlar azərbaycanlaşdırılır, azərbaycanlıların əcdadlarının mənəvi məhsulları kimi təqdim olunur. Nəticədə türk mədəniyyəti "Avesta" kontekstində təhlil olunur. Necə deyərlər, qələm daşa dirənir. Acı gülüş doğuran cəhət odur ki, bu gün də Azərbaycanda odla bağlı hər hansı bir inanış Zərdüşt dini ilə əlaqələndirilir. Odla bağlı inanışların dünyanın bütün xalqlarında olma-

sına, yəni tipoloji səciyyə daşımasına məhəl qoyulmur. Bunlar rəsmi tarixşünaslığımızın əkdiyi toxumların bəhrəsidir.

Vətən tarixi ilə etnik tarix arasında fərq qoyulmadığı üçün "Azərbaycan dövləti" anlayışı ilə "Azərbaycan ərazisində qurulan dövlətlər" anlayışı eyniləşdirilir. Bunun nəticəsində Manna, Midya, Atropatena, Albaniya, Rəvvadilər, Şəddadilər, Sacilər, Salarilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər Azərbaycan dövlətləri sayılır. Halbuki *Azərbaycan* adı siyasi səhnəyə 1918-ci ildə çıxıb. Bu tarixdə ortaya çıxmış dövlət adını qəlibləşdirib tarix boyu bu ərazidə var olmuş dövlətləri *Azərbaycan* adı ilə tanıtmaq nə dərəcədə doğru ola bilər? Halbuki Azərbaycan ərazisində qurulmuş dövlətlərin hər birinin öz adı olmuş və onlardan heç biri Azərbaycan adı daşımamışdır. Qeyd edək ki, qədim və orta əsr dövlətlərinin əksəriyyəti qərar tutduğu coğrafiyanın deyil, siyasi hakimiyyətin başında dayanan sülalənin adı ilə tanınmışdır. Bununla yanaşı, dövlətin adı o dövrün düşüncə tərzi, siyasi sistemin təbiəti ilə sıx şəkildə bağlı olur. Məlum olduğu kimi, tariximizə qarşı pisniyyətli kompaniyalar həm də orta əsrlərdə Azərbaycan ərazisində qu-

rulmuş dövlətləri *Azərbaycan* adı ilə tanıtmağımızla bağlıdır.

Bu ərazidə tarixən hər hansı bir fars, ərəb və türksoylu etnik qrupun varlığı hələ Azərbaycan xalqının varlığı deyil. "Azərbaycan xalqı" ilə (Azərbaycan türkləri nəzərdə tutulur) "Azərbaycanda tarixən yaşayan xalq və ya xalqlar" arasında olan fərq böyükdür. Bu fərq Azərbaycan adlanan tarixi coğrafiyanın əhalisinin bir etnosiyasi birlik olaraq meydana çıxıb, bütün xalqlar kimi, özünü ətraf etnik aləmdən ayırdığı tarixdən başlayır. Səfəvi-qızılbaş etnosiyasi birliyinin tarix meydanına çıxmasına qədər belə bir hadisə baş verməyib. Tarixən Azərbaycan ərazisində qeyd olunan qeyri-türk xalqların ən yaxşı halda Azərbaycan türklərinin içərisində subetnos olaraq öz varlığını qorumasından danışmaq olar. Varisliyin rolu və əhəmiyyəti ancaq bu qədərdir.

Azərbaycan tarixinə coğrafi yanaşmanın nəticəsində son orta əsrlər tariximizə də düzgün qiymət verilmir. Məsələn, Qızılbaş-Səfəvi dövlətinin imperiya xarakteri bir çox hallarda unudulur və ya nəzəri olaraq etiraf olunsa da, baş verən *tarixi* hadisələr bu kontekstdən dəyərləndirilmir. Dövlətin mərkəzinin Qəzvindən İsfahana köçürülməsi Azərbaycan dövlətçiliyi-

nin sonu və ya Azərbaycan dövlətinin farslaşdırılması kimi dəyərləndirilir. Qızılbaş tayfalarının dövlətin strateji mənafelərini qorumaq üçün Azərbaycan ərazisindən çıxarılaraq Qızılbaş məmləkətinin başqa əyalətlərinə, xüsusən, sərhəd bölgələrinə yerləşdirilməsi ilə bu tayfalar azərbaycanlılıqdan çıxarılaraq iranlılara çevrilir və onların Azərbaycan türklərinin etnik qəlpələri olduğu unudulur. Hazırda populyar olan "İran türkləri" ifadəsi də buradan qaynaqlanır. Bununla da etnik varlığın mahiyyəti ancaq coğrafi məkanla izah olunur. Məsələyə bu kontekstdən yanaşmanın nəticəsidir ki, əfşarların və qacarların Qızılbaş məmləkətinin siyasi bütövlüyünü qorumaq uğrunda mübarizələri işğalçılıq kimi dəyərləndirilir. Bunun nəticəsidir ki, Azərbaycan tarixşünaslığı tariximizin əfşar və qacar dövrü ilə, demək olar ki, məşğul olmur. Məsələ tamamilə aydındır. Hər iki tayfanın yerləşdiyi məkan Azərbaycan coğrafiyasından kənardadır. Birinci tayfa Xorasanda, ikinci isə Astarabadda yaşayırdı. Səfəvilər dövlətinin Azərbaycandan kənarda olan torpaqlardakı hakimiyyəti də bu səbəbdən kəsilib atılır.

Etnik müstəvidən yanaşdıqda məsələ tamamilə başqa şəkildə görünür. Hər iki tayfanın

Qızılbaş birliyinə daxil olması və onların Azərbaycan etnik varlığının içərisindən çıxması “nəzərdən qaçırılır”. Sonrakı dövrlərdə hər iki tayfa Səfəvilər dövlətinin strateji məqsədləri ilə bağlı olaraq Qızılbaş məmləkətinin müxtəlif bölgələrində yerləşdirilir. Səfəvilərin zəifləməsi və ya çökməsi ilə bağlı olaraq Qızılbaş məmləkətinin taleyinə məsul olan tayfalardan biri kimi siyasi hakimiyyətə can atır və buna nail olurlar. Hər iki tayfa tarixi vətənləri olan Azərbaycanın Qızılbaş xanları ilə bərabərhüquqlu idi. Eyni ideala can atan Azərbaycanın Qızılbaş xanlarından fərqli olaraq Nadirin başçılığı altında Xorasan əfşarları və Ağaməmməd xanın başçılığı altında Astarabad qacarları uğur qazandılar. Unutmaq olmaz ki, Azərbaycan ərazisində olan Qızılbaş xanlarından hər hansı biri uğur qazansaydı, təkcə Azərbaycan ərazisi ilə kifayətlənməyəcək, Qızılbaş məmləkətinin başqa bölgələrini də birləşdirəcəkdi. Bu missiyanı yerinə yetirmədən, heç bir xan o dövrün ənənələrinə görə şahlıq tacını başına qoya bilməzdi.

Məsələnin bu şəkildə interpretasiyası ondan irəli gəlir ki, tarixşünaslıq Azərbaycanın orta əsrlər qaynaqlarında təsvir olunan tarixi coğrafiyasından kənarda Azərbaycan xalqının varlı-

ğını "təsəvvür eləmir". Səbəbi aydındır. Ona görə ki, o, tarixi qaynaqlarda Azərbaycan ərazisinə aid etnik və siyasi hadisələrin statik xronoloji təsviri ilə məşğul olur və Azərbaycan türkünün etnik və geosiyasi məkanı arasında fərq qoya bilmir və ya bunu istəmir. Görəsən, müasir İranın mərkəzi rayonlarında və ya şimal-şərqində, habelə Əfqanıstanda, Pakistanda Azərbaycan türklərinin (eləcə də Azərbaycan türkcəsinin) varlığını tarixşünaslıq necə izah edərdi? Cavab özlüyündə alınır. Yəni izah edə bilmədiyi üçün faktın varlığına göz yumur. Çünki bu faktlar ümumi tarix konsepsiyasına ziddir.

Tarixşünaslıq mümkün qədər etnik coğrafiyamızı daraltmaq istəyir. Onun üçün şimalda Qazaxdan, cənubda Urmiyadan qərbdə Azərbaycan türkü yoxdur. Nə səbəbə? Çünki Azərbaycan xalqının etnik sərhədləri Midiya və Albaniya dövlətlərinin tarixi sərhədlərinə sığışdırılmalıdır. Bu ona görə lazım olur ki, cənubda Midiyanı, şimalda Albaniyanı Azərbaycan tarixinin onurğa sütununa çevirə bilsinlər. Çünki "azərbaycanlıların" etnik coğrafiyası daraldıqca "irandilli və qafqazdilli əcdadlar" qabarıq görünür.

Tarixşünaslığımızın əfşar və qacar hakimiyyətinə sözügedən münasibəti Azərbaycan

torpaqlarının Rusiya və İran arasında bölünməsi tezisini ortaya atır.

Beləliklə, bir tərəfdən "iranlıların" Azərbaycan üzərinə yürüşü işğalçılıq sayılır, başqa tərəfdən İranla Rusiya Azərbaycan torpaqlarını bölüşdürür. Məsələyə coğrafi münasibət ortadadır. Ancaq məsələ başqa şəkildədir. Sadəcə olaraq, əfşar və qacarların Azərbaycana yürüşü Qızılbaş ölkəsinin ənənəvi torpaqları üzərində hakimiyyətin bərpasından başqa bir şey deyildi. Qacarların məğlubiyyəti ilə bağlı olaraq Qızılbaş ölkəsinin şimal torpaqları və Gürcüstan itirildi. Burada 1925-ci ilə qədərki siyasi rejimlə 1925-ci ildən sonrakı siyasi rejim qarışıq salınır. Söhbət 1925-ci ildən sonra Qızılbaş məmləkətinin fars məmləkətinə çevrilməsindən gedir. Qızılbaş dövlətinin mərkəzinin İsfahana və Tehrana köçürülməsindən başqa, 1925-ci ilə qədərki dövlətin qurucularının və sahiblərinin Azərbaycan türkləri olmasına şübhə yeri qoyacaq heç bir fakt yoxdur. Dövlət dili məsələsinə gəldikdə isə, məsələyə müasir baxış hökm sürməkdədir. Unutmayaq ki, dövlət dilinin müasir anlamı ilə orta əsrlərdəki anlamı bir-birindən ciddi şəkildə fərqlənirdi.

Dövlət dilinin fars dili olması tezisi vergi dəftərlərinin və salnamələrin fars dilində yazılmasına əsaslanır. Saray və ordu dilinin türkcə olması isə diqqətdən kənarda qalır[1]. Görəsən, dövlət dili katiblərin yazı diliymiş, yoxsa dövlət ərkanının danışdığı dil?

Görülən işin hədəfi var. Ərazinin işğalaqədərki etnosiyasi sahiblərinin tarixin hansı dönəmindəsə bu əraziyə gəlməsinin qabardılması yeni işğalın qanunauyğunluğunu əsaslandırmağa xidmət edirdi: sən bu torpaqları necə fəth etmisənsə, mən də eləcə. Bunun ardınca ona ərazinin avtoxton sakinləri göstərilir. Yəni bu ərazinin əsl sahibləri onlardır. Beləliklə, bu ərazidə yaşayan etnik qruplarla bölgənin (müstəqil olmasa da) etnosiyasi sahibləri üz-üzə qoyulur. Ərazinin sahibləri gözükölgəli hala gətirilir.

Bu gün əsarət tarixçiliyinin əməyinin bəhrələrindən "faydalanmaqdayıq". "Azərbaycan tarixi"nin kiçik etnik qrupların separatçılıq fəaliyyətləri üçün ilham mənbəyi olması gizli deyil. Bu gün Midiya və Qafqaz Albaniyasını "diriltmək" istəyənlər məhz "Azərbaycan tarixi"ndən ilhamlanır və s.

---

[1] Ханыков Н.В. Записки по этнографии Персии. Москва, 1977, с. 37

Çox çəkmədi ki, rəsmi tarixşünaslığın opponentləri də meydana çıxdı. Bu opponentlər əsas etibarilə "xalq tarixçilərindən", uyğun sahənin mütəxəssisi olmayan tarixçilərdən, humanitar elmlərin başqa sahələri ilə məşğul olan mütəxəssislərdən (xüsusilə, ədəbiyyatçılardan və dilçilərdən) ibarət idi. Onlar tariximizin sözügedən sahələri ilə birbaşa məşğul olduqları üçün bu problemlərə yaxından bələd deyildilər. Azərbaycan ərazisində türk varlığının qədimliyini aşkara çıxarmaqda və qabartmaqda onların xidməti olsa da, ümumilikdə rəsmi tarixşünaslığın "tələbələri" olaraq qaldılar. Rəsmi tarixşünaslıq Azərbaycan və azərbaycanlılar adına hansı materialı təqdim etmişdisə, onların opponentləri həmin materialı türkləşdirməyə başladılar. Zərdüşt Azərbaycan türkünə çevrildi, "Avesta" türk abidəsi oldu. Manna, Midiya, Atropatena, Albaniya və tarixi qaynaqlarda Azərbaycan ərazisində qeydə alınmış hər hansı bir xalq, əsas etibarilə, etnonim və toponimlərin türkcə "oxunması" yolu ilə türkləşdirildi. Bu araşdırmaların nəticəsi artıq məktəb dərsliklərində əks olunmağa başlayıb. Qeyd etmək istərdik ki, Azərbaycan tarixinin bu üsullarla araşdırılması onun təkrar saxtalaşdırılmasından başqa bir şey deyil.

Məsələnin belə şəkil alması, əslində, tariximizə konseptual münasibətdən irəli gəlir. Bu münasibət yenə də əvvəlki kimi coğrafi olaraq qalır.

Etnik tariximizə coğrafi münasibət Azərbaycan türklərinin tarix şüuruna başqa yöndən də zərbə vurur. Azərbaycanlıların və ya Azərbaycan türklərinin tarixinin Azərbaycan coğrafiyasının hüdudları daxilində lokallaşdırılması bizi ümumtürk tarixindən çıxarır. Nəticədə, Azərbaycan türklərinin ümumtürk tarixindəki əməyi yoxa çıxır və böyük tarixin varıslərindən biri kimi varlığı tarix şüurumuzun bünövrəsinə çevrilə bilmir. Türklərin ən qədim çağlardan bəri bu bölgədə yaşaması XI əsrdə özlərinin tarixi vətənlərinə qayıtması ideyası və bununla bağlı araşdırmalar əslində bu məsələni yoluna qoymaq təşəbbüsüdür. Türklüyün çox qədim dövrlərdə Ön Asiyada varlığı ilə bağlı araşdırmalar, əlbəttə, böyük əhəmiyyət daşıyır və elmi baxımdan maraq doğurur. Bununla bərabər, belə araşdırmalar "getmişdilər, gəldilər" şəklində gəlmə faktını bir növ sığortalamaq ehtiyacından yaranır. Bu halda yəhudi məsələsinə bənzəyən bir mənzərə alınır. Ancaq onlardan fərqli olaraq bizim getməyimiz haqqında heç bir sənəd yoxdur.

Qeyd edək ki, türklüyün bölgədə qədimliyi problemi ilə bağlı araşdırmaların aktuallığı qonşuların bizə qarşı ərazi iddialarına cavab xarakteri daşıyırdı. Əsarət altında olan xalqın vətənini qorumaq üçün qələmə sağınmaqdan başqa çarəsi yox idi.

Qeyd edək ki, bütün bu yan tarixçiliyin ciddi-cəhdlərinin heç bir nəticəsi olmadı. Belə ki yazılan rəsmi tariximizdə açıq qoyduğumuz yerlərdən bizə qarşı istifadə olunur və ən müxtəlif tərəfdən hücumlara məruz qalırıq: kimi azərbaycanlıların etnogenez konsepsiyasını bir neçə dəfə dəyişdirməsindən danışır, kimi "azərilər" üçün heç bir siyası tarix tanımır, kimi "qızılbaşın günahından" qurtulmaq üçün Səfəvi tarixindən imtina etməyi təklif edir, kimi Azərbaycan torpaqlarının hansı bir küncündə hər hansı bir azsaylının "stanı" eşqinə düşür, kimi azərbaycanlıları müxtəlif xalqların ximmerası şəklində təqdim edir, kimi xalqa yeni ad qoyur və s. Ancaq bu hələ kifayət deyil...

Ən müxtəlif ixtisas sahibləri məsələni yoluna qoymaq üçün tarixlə məşğul oldular. Ən ciddi yazıçımız problemi poetik müstəvidə həll etməyə cəhd etdi və nəticədə ciddiyyətini itirdi. Kimisi peyğəmbərlik iddiasına düşdü, nəticədə

insanlığını itirdi. Elmlə heç bir təmasda olmayan adamlar alimlik eləməyə başladı, nəticədə alim sözü urvatsız hala gəldi. Konyuktur yazılar baş alıb getdi. Saxta vətənpərvərliyin pərvəriş tapmasına yol açıldı. Mistiklər və hətta manyaklar peyda oldu və s. Bütün bu hallar Azərbaycan türkdür və onun tarixi də türk tarixi olmalıdır iddiasından əmələ gəlirdi...

Amma sevindirici hal budur ki, Azərbaycanda hökm sürən tarix konsepsiyasının arxasında dayanan dövlət artıq tarixə qovuşub və deməli, elmi tariximizin yazılması üçün şərait yaranıb. Bu işin həyata keçəcəyi günün uzaqda olmasını düşünmürük. Yalnız bundan sonra milli şüurun formalaşdırılmasından söhbət gedə bilər.

*Etnik kimlik haqqında yanlış təsəvvürlər siyasi, ədəbi-mədəni tarixə yanlış münasibətə gətirib çıxarır və biz son nəticədə ortaq tariximizin harada qurtarıb, xas tariximizin haradan başladığını bilmirik. Bu isə, öz növbəsində, etnik sərhədlərimizin hüdudları haqqında yanlış təsəvvürlərə səbəb olur.* Bir tərəfdən ümumi tariximizi, ədəbiyyatımızı və mədəniyyətimizi, başqa tərəfdən qaranlıq kimliyə malik tarixi və ədəbiyyatı milliləşdirmə cəhdi buradan qaynaqlanır. Görəsən, türkman ellərindən biri

olan səlcuqluların qurduğu Böyük Səlcuqlu imperiyası hansı xalqa məxsusdur, bir ucu Türküstan, bir ucu Misirə dayanan böyük türkmanların varisi kimdir, Türkmənistan türkmənlərinin, özbəklərin və Türkiyə türklərinin və s. içərisində də öz varlığını davam etdirən, vaxtilə özlərini türkman kimliyi ilə tanıdan qaraqoyunluların və ağqoyunluların Azərbaycanda qurduğu dövlətlərin, eləcə də Anadolu turkman bəyliklərinin sözügedən xalqlara aidiyyəti nə dərəcədədir. Onlar türkman tarixinin bir parçasıdır, yoxsa yerləşdiyi coğrafiyanın indiki sahiblərinin tarixidir? Görəsən, İraq və Suriya türkmanları xalqdırmı, yoxsa hansısa bir xalqın etnik parçasıdır? Bu və bunabənzər bir çox problemlər türk xalqlarının əsarət altında qalmaları ilə bağlı olmuşdur. Əsarət altında yaşayan bu xalqların hər biri onlara icazə verilən tarixlə kifayətlənməli olmuşlar. Diqqət, əsas etibarilə, siyasi proseslər üzərində cəmlənmiş, etnik proseslər isə diqqətdən kənarda qalmış, bir çox hallarda isə siyasi proseslərdən etnik prosesləri pərdələmək üçün istifadə olunmuşdur. Məsələn, türkmanların etnik tarixi türkman ellərindən biri olan səlcuqlular tarixi ilə əvəz edilmişdir. Bu isə ədəbi və mədəni hadisələrin yalnız siyası müstəvidə dəyərləndirilməsi-

nə gətirib çıxarmışdır. Sonuncu münasibət isə qarşıya çıxan bir çox ədəbi və mədəni hadisələri mahiyyətə uyğun şəkildə izah etməyə imkan vermir.

Hələ məsələnin ədəbi-mədəni tərəfi də var. Görəsən Oğuznamələr, xüsusilə Dədə Qorqud oğuznamələri hansı xalqa məxsusdur? Dədə Qorqud dastanlarının yubileyinin keçirilməsi haqqında iki xalqın prezidentinin verdiyi fərman etnik tarix, uyğun olaraq mədəni irs haqqında hansı təsəvvürə söykənir? Görəsən, Azərbaycan şairi saydığımız Xorasanlı Həsənoğlunun müasir türkmən, eləcə də Türkiyə türklərinə aidiyyəti varmı? Azərbaycanda və Anadoluda yaranmış ədəbiyyata Türkmənistan türkmənlərinin haqqı çatırmı? Müasir Türkiyə sərhədləri daxilində yaranan ədəbiyyatın Azərbaycan türklərinə və ya əksinə Azərbaycanda yaranan ədəbiyyatın Türkiyə türklərinə aidiyyəti nə dərəcədədir? Məsələyə coğrafi yox, siyasi tarix yox, etnik tarix müstəvisindən baxanda başqa bir mənzərə ilə qarşılaşırıq. Qaldırılan bu məsələlər diqqətimizi etnik tariximiz üzərində cəmləyib onun elmi mənzərəsini yaratmaq zəruriyyəti yaradır.

Azərbaycanda türklərin tarixi, əsas etibarilə, oğuzəsilli türkmanların gəlişindən çox qə-

dimdir. Ancaq Azərbaycanın, eləcə də Anadolunun biryolluq türk ölkəsi olması türkmanların bölgəyə gəlişi ilə başlayır. Bununla yanaşı, oğuzların və türkmanların etnik kimliyi haqqında bu vaxta qədər aydın təsəvvür yoxdur.

Məlum olduğu kimi, oğuzların və türkmanların həm etnik, həm də siyasi tarixi ilə dünyanın bir çox alimləri məşğul olmuşdur. Onların sırasında Z. Gökalp, F. Sümer, M.Köymen, İ.Kafesoğlu, Z.Toqan,F. Köprülü, V.Bartold, V.Qordlevski, S.P.Tolstov, D.Yeremeyev, S.Ağacanov, A.Yakubovski, L.Qumilyev, K.Bosvord, K.Kaen, E.Lembton, Z.Bünyadov, O.Əfəndiyev, R.Hüseynov, Ş.Mustafayev və s. kimi tanınmış tarixçilər var. Hazırkı araşdırmanın meydana gəlməsində adı çəkilən və çəkilməyən alimlərin oğuz və türkman tarixi haqqında yazdığı əsərlərin müstəsna rolu var. Məhz bu əsərlərin sayəsində müəllif oğuz və türkman tarixinin mənzərəsini, eləcə də baş verən etnik və siyasi proseslərin xarakterini müşahidə etmək imkanı qazanmışdır. Bununla belə, sözügedən araşdırmalarda oğuzlar və türkmanlar bir etnos olaraq diferensiallaşdırılmır. Onların səhifələrində gen-bol şəkildə qarşımıza çıxan sinonim səciyyəli "oğuz-türkmən", "oğuzlar (türkmənlər)", "oğuz və türk-

mən" kimi ifadələr bu münasibətdən doğur. M.Erözün dili ilə desək, araşdırıcılar "bu iki kəlməni" izah edərkən "müxtəlif fərziyyələr irəli sürsələr də, əsasda birləşirlər: oğuz və türkmən eyni türk şöbəsinin adıdır"[1].

F.Köprülü məsələyə klassik münasibətin tərəfdarıdır. Müəllifə görə, oğuzların müsəlman olan hissəsi türkmən adlanmışdır[2]. Z.Toqan oğuzlarla türkmənləri oturaq-köçəri prinsipi ilə ayırır. Onun fikrinə görə, köçəri həyat tərzi keçirənlərə "oğuz" deyilir, türkmən isə "mədəni xalqlarla qonşu olaraq oturan və qismən əkinçiliklə məşğul olan yarımoturaq oğuzlar ilə karluq və xələclərə aid edilmişdir". Bu iki etnonimin ifadə etdiyi anlamlardan söz açarkən nəyinsə yerində olmadığını hiss edən müəllif yazırdı: "*Oğuz* və *türkmən* kəlmələri iki eyni mənalı kəlmə kimi istifadə olunsa da, bunların başqa-başqa məfhumları ifadə etdiyini göstərən qeydlər də çoxdur. Hər halda türkmənlərə "oğuz" deyilmiş, ancaq həqiqi köçəri oğuzlara

---

[1] Eröz M. Yörükler. İstanbul, 1991, s. 17

[2] Köprülü F. Türk Edebiyatında İlk Mutasavvıflar. Ankara, 1976, s. 183-184

türkmən deyilməmişdir"[1]. Z.Gökalp ilk dəfə olaraq etnonimin *türkman* fonetik variantı ilə *türkmən* variantını fərqləndirir. Müəllifə görə, *türkman* Qaraxanlı dövləti dövründə İslamı qəbul etmiş və hələ müsəlman olmayan şərq türkləri ilə mübarizə aparan bir ellər və qövmlər toplusu idi. *Türkmənlər* isə, ona görə, *türkmanlar* içərisində yaşayan və hələ də köçəri həyat keçirən oğuz elidir[2]. Müəllifin etnonimin *türkman* və *türkmən* variantlarını fərqləndirərək, bu variantların tarixən fərqli çalar daşıması haqqındakı fikri ilə razılaşmaq olmaz. Qaynaqlarda etnonimin hər iki variantı işlənir və onlar eyni etnosu ifadə edir. Diqqət etsək, görərik ki, müəllif etnonimin *türkman* variantına dini-siyasi, *türkmən* variantına isə etnik anlam verir və sonuncu anlamı ilə onu bir etnos olaraq oğuzlardan fərqləndirmir. İ.Kafesoğluna görə, sözügedən etnonim sırf siyasi anlam daşıyır. Müəllifə görə, *göytürk* termini kimi *türkmən* termini də siyasi anlam daşımış və karlukların güclü olduğu zamanlarda (XI əsrin yarısı) onlar tərəfindən isti-

---

[1] Togan Z.V. Umumi Türk Tarihine Giriş. İstanbul, 1981, s. 196
[2] Gökalp Z. Türk Medeniyyeti Tarihi. İstanbul, 1976, s. 36-37

fadə olunmuşdur[1]. Etnologiya sahəsində yeni konsepsiyanın müəllifi olan L.Qumilyev türkmənlərin üstündən sükutla keçir. Müəllif bir araşdırmasında oğuzlarla türkmənləri eyniləşdirərək onları türkləşmiş arilər sayır[2]. Başqa bir araşdırmasında isə “quzların bir-birinə düşmən olan iki etnosa: tork və türkmənə" parçalanmasından danışır[3]. O, rus letopislərində “tork” adı ilə qeyd olunan oğuzların etnosiyasi tarixindən bəhs etsə də, türkmənlər barəsində heç nə demir. Ardınca Səlcuqlu tarixindən bəhs edir[4]. Yəni türkmən etnik varlığı onların içərisindən çıxaraq dövlət qurmuş bir sülalənin adı ilə əvəz olunur və bu yolla sözügedən etnos pərdə arxasında qalır. Bir superetnos olaraq türkmənlərin pərdə arxasında qalmasının başqa bir şəkli onun Türkmənistan türkmənləri ilə eyniləşdirilməsi şəklində baş verir. Belə araşdırmalarda Türkmənistan türkmənləri bir etnos olaraq oğuzlardan fərqləndirilsə də, böyük türkmənlərə bərabər tutulur və bu, türkmənlər haqqında

[1] Eröz M. Yörükler. İstanbul, 1991, s. 17
[2] Гумилев Л.Н. Древние тюрки. Москва, 1993, s. 266
[3] Гумилев Л.Н. Тысячелетие вокруг Каспия. Баку, 1991, s. 202
[4] Yenə orada, s. 229-231

tarixi materialın Türkmənistan türkmənlərinin etnogenezinin öyrənilməsinə sərf olunması hesabına baş veri[1]. Orta Asiyadan İrana, Azərbaycana, Ərəbistana, Anadoluya köç edən türkmanlarin Türkmənistan türkmənlərinin etnik qəlpəsi sayılması da buradan doğur. Ən yaxşı halda köç edənlər yerləşdiyi ərazinin adı ilə milliləşdirilir[2].

Məsələnin təsvir olunan şəkillərdə yozumu, irəlidə görəcəyimiz kimi, yanlışdır və qarşıya çıxan bir çox sualları cavabsız qoyur. Bu üzdən də problemin yenidən nəzərdən keçirilməsinə ehtiyac yaranır.

Problemə işıq tutmaq üçün Böyük türkmanların etnik kimliyi aydınlaşdırılmalıdır. Ancaq bir etnosiyasi birlik olaraq oğuzlara toxunmadan məsələnin mahiyyətini aydınlaşdırmaq mümkün deyil.

---

[1] Агаджанов С.Г. Новые материалы о происхождении туркмен. Известия АН Туркменской ССР. Серия общественных наук, №2, 1963, s. 12-24; Якубовский А.Ю. Вопросы этногенеза туркмен в VIII-X вв. Советская этнография, 1947, №3, s. 48-54

[2] Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 127-128

# I FƏSİL

# OĞUZ ELNİN YARANMASI VƏ ETNOSİYASİ TARXİ

Tarixşünaslıqda bir etnosiyasi birlik olaraq Oğuz eli haqqında qarışık fikirlər movcuddur. Ancaq burada söhbət hər hansı bir oğuzdan yox, VIII əsrdə yaranması ehtimal olunan və XI əsrin I yarısının sonlarında dağılan Oğuz elindən gedir. Bu dövlət tarixi Türkistan torpaqlarında yaranmışdır. Problem *oğuz* sözünün sosial anlamı ilə etnik anlamının eyniləşdirilməsindən qaynaqlanır. Ona görə də məsələyə bu nöqtədən başlamaq zəruridir.

## *Oğuz* sözünün sosial və etnik anlamı

*Oğuz* sözü ilk dəfə eradan öncəki bir Çin qaynağında *oqur* şəklində işlənir və “qəbilələr” anlamını verir. 461-465-ci illər arasında sabirlərin təzyiqi ilə Ural dağlarının şərqindən Qara dənizin şimalında yerləşən düzənliklərə köç edən və sonralar Bulqar siyasi birliyini yaradan

qəbilələrin öncə *oqur* adlanması elmə yaxşı bəllidir[1]. Ancaq Orxon abidələrində sözügedən terminin *z*-lı variantı ilə qarşılaşırıq. *Altı oğuz, səkkiz oğuz, doqquz oğuz* adlanan bu qəbilələr Göytürk imperiyasının içərisində idilər. *R* şivəli qəbilələrlə, *z* şivəli qəbilələrin eradan əvvəl III əsrdən qabaq ayrılması güman olunur[2]. Onların etnik və mədəni baxımdan differensiallaşmaları da elə o tarixdən başlayır.

Araşdırıcıların əksəriyyəti *oğuz* sözünün "qəbilə", "tayfa" anlamında işləndiyini söyləyirlər. Ancaq onların heç də hamısı bu sözün oxşar anlamda işlənən *oğuş, boy, uruq* kimi sinonimlərdən nə ilə fərqləndiyini izah edə bilmirlər. L.Qumilyev yazır: "Qonşuları tərəfindən sıxışdırılan kiçik tayfalar (onları nəsillərə oxşatmaq olmaz) ittifaq yaratmağa başladılar. Belə icmaların adı *oğuz* termini oldu... *"Oğuz"* sözü ilkin şəkildə sadəcə "tayfalar", "tayfalar birliyi" anlamında işlənə bilərdi. Sonralar ümumiləşdirmə anlamı ilə etnik ada çevrildi. Müəyyən hallarda vacib determinativ kimi təyinlə işlədilirdi: Toquz oğuz – "doqquz (müxtəlif) tayfa", üç oğuz – "üç (müxtəlif) tayfa"[3]. Terminin bu

---

[1] Kafesoğlu İ. Türk Milli Kültürü. İstanbul, 1991, s. 185-186

[2] Yenə orada, s. 51

[3] Гумилев Л.Н. Древние тюрки. Москва, 1993, s. 61-62

şəkildə yozumu onunla bağlı başqa fikirlərlə ziddiyyət təşkil etmir[1].

*Oğuz* sözünün sosial anlamı ilə etnik anlamını qarışdıran araşdırıcı bəzi hallarda oğuzları əzəli bir xalq kimi təqdim edir. Ancaq etnik tərkibinə və coğrafiyasına görə Oğuz eli yeni bir etnosiyasi birlik idi. Maraqlıdır ki, oğuz boylarının bir çoxu Oğuz elinin yaranmasından öncə və ya onunla paralel şəkildə başqa etnik birliklərin içərisində olmuş və sonralar Oğuz elinin tərkibinə qatılmışdır. Bəzi oğuz boylarının mənşəyi ilə bağlı tarixi qaynaqların verdiyi məlumat məsələyə aydınlıq gətirir.

## Oğuz boylarının mənşəyi

Oğuz elini təşkil edən tayfalar bu elin yaranmasından öncə və ya onunla paralel şəkildə müxtəlif siyasi birliklərin içərisində mövcud olmuşdur. Oğuz tayfaları haqqında qaynaqların verdiyi məlumata nəzər salaq:

***Kayı/kayıq*** adı ilə tanınan oğuz qəbiləsi Çin qaynaqlarında *xi* adlanır. O, orta çin dialek-

---

[1] Kafesoğlu İ. Türk Milli Kültürü. İstanbul, 1991, s. 218

tində *xay/kay* şəklində tələffüz olunurdu[1]. F.Köprülü bu etnonimin orta əsr İslam qaynaqlarında işlənən *kay* şəklini *kayı* və *kayıq* şəklindən fərqləndirir. Müəllifə görə, *kay* tatarlara yaxın olan başqa bir etnik qrupu, *kayı/kayıq* isə oğuz tayfasını ifadə edir[2]. Ancaq *kaylarla kayıların* oxşar tamğaya sahib olmalarından görünür ki, onlar mənşə etibarilə bir kökdəndirlər[3].

Kaylar Monqolustanın şərqində məskunlaşmışdılar. Sonralar onların bir hissəsi qərbə doğru hərəkət etmişdilər. Bu hadisənin VIII-IX əsrlər arasında olması güman olunur[4]. Onların ilk yurdlarında kimaklarla bir olması haqqında məlumat var. Bu məlumata söykənən S.Axinjanov onların Kimak dövlətinin tərkibinə daxil olmasını düşünür[5]. B.Kumekov isə *kailərin* müəyyən qrupunun

---

[1] Бичурин Н.Я. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. Т. II, Москва-Ленинград, 1950, s. 74

[2] Köprülü F. Kai Kabilesi Hakkında Yeni Notlar. Ankara, VIII c., №31, 1944, s. 421-435

[3] Зуев Ю.А. Тамги лошадей из вассальных княжеств. Перевод из китайского сочинения VIII-X вв. Танхуйяо, Т. III, глава (цзюанъ) 72, с. 1305-1308 // Труды Института истории, археологии и этнографии АН Казахской ССР. Т.8, 1960, s. 129, s. 132

[4] Ахинжанов С.М. Из истории движения кочевых племен евразийских степей в первой половине XI в. Археологические исследования древнего и средневекового Казахстана. Алма-Ата, 1980, s. 48

[5] Yenə orada, s. 48

kimaklardan asılı olmasından danışı[1]. Ancaq *kayı/kayıq* adı alan oğuz boyunun Oğuz eli ilə münasibəti tarixi haqqında heç bir fikir yoxdur. Bununla yanaşı, *oğuz kayısının* qohumları olan *kaylar,* irəlidə görəcəyimiz kimi, Oğuz elinin dağılmasında müəyyən rol oynamışlar.

***Yiqdir/İqdir*** – 753-cü ildən sonra yazılmış "Terxin" abidəsində etnonim *iqder* şəklində gedir və uyğurlara qarşı mübarizə aparan ellər sırasında dayanır[2].

***Karkın*** – Çin qaynağında ("Veylio") *tezyankun* (kirkun) və *qekun* (kerkun) şəklində qeyd olunur. Qaynaq iki yerə bölünmüş qəbiləni fərqləndirmək üçün onları fonetik variantla ifadə edir. Qaynağa görə, *kirkunlar* Yeniseydə, *kerkunlar* isə Kanqyunun (Şimal-şərqi Qazaxıstan) şimalında yerləşmişdi[3]. Onlardan hansının Oğuz elinin tərkibinə daxil olması məlum deyil.

***Alayuntlı/alayontlı*** kimi Oğuznamədə təqdim olunan qəbilə birləşməsi *alaçi, alak-bulak,*

---

[1] Кумеков Б.Е. Государство Кимаков IX-XI вв. по арабским источникам. Алма-Ата, 1972, s. 128

[2] Кляшторный С.Г. Терхинский надпись (предварительная публикация). // Советская тюркология. Баку, 1980, №3, s. 92

[3] Зуев Ю.А. Из древнетюркской этнонимики по китайским источникам. Труды Института истории, археологии и этнографии АН Казахской ССР. Т.15, 1962, s. 108

*bulakat, alka-bulak, alan, alaçin* və s. kimi adlarla da tanınır. Çin qaynağındakı *bo-ma* ("ala atlar") adı bu etnonimin kalkasıdır? Çin qaynaqları onlar barəsində IV əsrdən başlayaraq söz açır. Bu dövrdə onlar artıq iki-üç hissəyə bölünmüşdülər. Qədim türklərin *alat<ala-at* dediyi bu xalq Ordos və İnşan dağlarının şimal ətəklərində (müasir Şensi əyaləti) məskunlaşmışdılar. Çin katibləri onları biri-birindən fərqləndirmək üçün qrafik üsuldan istifadə edərək ordosluları *xelay (-alat),* inşanlıları *xelan (-alan)* şəklində qeyd edirlər. VII əsrdə onların bir qismi Altay dağlarının şimalında yaşayırdılar. VIII əsrdən sonra onların bir hissəsi qərbə köçür və müxtəlif türk etnik birliklərinin, o cümlədən də oğuzların tərkibinə daxil olur[1].

***Alka bölük*** – Etnonimin *alka bölük* variantı M.Kaşğarlı "Divan"ında işlənir. Onun Rəşidəddin Oğuznaməsindəki şəkli *alkaravli* (R.Şükürova), *alkavli, alkavul* (Z.Toqan), Əbülqazidəki şəkli isə *alka öyli* şəklində transkripsiya olunur[2].

---

[1] Зуев Ю.А. Из древнетюркской этнонимики по китайским источникам. Труды Института истории, археологии и этнографии АН Казахской ССР. Т.15, 1962, s. 106-116

[2] Togan Z.V. Oğuz Destanı. Reşideddin Oğuznamesi, tercüme ve tahlili. İstanbul, 1982, s. 51; Кононов А.Н. Родословная туркмен. Сочинение Абу-л-Гази хана Хивинского. Москва-Ленин-

S.Ağacanov *alka bölük* etnonimini M.Kaşğarlıda adı çəkilən *alka bulak* etnonimi ilə eyniləşdirir. Ancaq *alka bulak* qəbiləsini "ala atlılar"ın bir qrupu sayan J.Zuyev linqvistik baxımdan *bulak<bölük* keçidinin mümkün olmadığını söyləyir[1]. Buna baxmayaraq, etnonimin semantikasına əsaslanıb bu adın "ala atlar" qəbiləsinin və ya bu qəbilədən qoparaq yenidən formalaşmış *alka bulakların* bir bölüyü olduğunu güman etmək olar.

***Çaruqluq*** – M.Kaşğarlı "Divan"ında oğuz boylarından biridir. Çin qaynaqlarında *çe-li* şəklində qeyd olunan etnonim, L.Bazenə görə, türkcə *çeriq* sözüdür. Onların bir hissəsi Daxili Monqolustanda, başqa bir hissəsi isə Şərqi Türküstanda məskunlaşmışdılar[2]. Oğuz elinə qatılanlar da, ehtimal ki, elə bu sonuncular olmuşdur.

---

град, 1958, s. 51, s. 53; Фазлаллах Рашид-ад-Дин. Огуз-Наме. Баку, 1987, s. 64

[1] Зуев Ю.А. Из древнетюркской этнонимики по китайским источникам. Труды Института истории, археологии и этнографии АН Казахской ССР. Т.15, 1962, s. 106-107

[2] Зуев Ю.А. Тамги лошадей из вассальных княжеств. Перевод из китайского сочинения VIII-X вв. Танхуйяо, Т. III, глава (цзюань) 72, с. 1305-1308 // Труды Института истории, археологии и этнографии АН Казахской ССР. Т.8, 1960, s. 93-140, s. 120-121

***Bayat*** – J.Zuyev bu adın qədim variantını *ba-yan a-şi-de* etnonimində tapır və onları *aşide* boyunun bir qolu sayır. Müəllifə görə, *bayat* etnonimi monqol mənşəli *ba-yan* etnoniminin cəmidir. Araşdırıcı, əsas etibarilə, bu fakta əsaslanaraq bayatların monqoldilli olduğunu iddia edir[1]. Ancaq bayatların monqoldilli olması fikri J.Zuyevdən öncə S.Tolstov tərəfindən söylənmişdir. Həmin müəllif elə həmin səbəbə görə bayandırları da monqollaşdırmaqdan çəkinmir[2]. Qeyd edək ki, qədim türk xalqlarının monqollaşdırılması, ariləşdirilməsi rus türkologiyası üçün xarakterik haldır və əksər hallarda subyektiv səciyyə daşıyır.

***Bayandır*** – Qardizinin "Zeyn əl-əxbar" əsərində (1050-1053) verdiyi məlumata görə, *bayandırlar* yeddi kimak boyundan (imi, imak, tatar, bayandur, kıpçaq, lanikaz, aclad) biri olmuşdur[3]. Oğuzların onları X əsrdə itaətə gətirməsi güman olunur[1].

---

[1] Зуев Ю.А. Тамги лошадей из вассальных княжеств. Перевод из китайского сочинения VIII-X вв. Танхуйяо, Т. III, глава (цзюанъ) 72, с. 1305-1308 // Труды Института истории, археологии и этнографии АН Казахской ССР. Т.8, 1960, s. 93-140, s. 119

[2] Толстов С.П. Города гузов. // Советская этнография. 1947, №3, s. 80-81

[3] Бартольд В.В. Извлечение из сочинения Гардизи Зайн алахбар. Приложение к «Отчету о поездке в Среднюю Азию с

***Dögər*** – R.Xeninq və S.Tolstov bu oğuz boyunun adını ari mənşəli toxarlara bənzədirlər[2].

***Yazır*** – Yazır boyu, S.Tolstova görə, ari irqindən olan *as-alan* mənşəlidir. Bu etnonim, müəllifə görə, *as* etnonimi əsasında yaranmışdır[3].

***Peçene*** – peçene boyu *peçeneq* konfederasiyasının oğuzlara tabe olan hissəsidir. Sözügedən oğuz boyu Oğuz elinə qədər daxil olduqları konfederasiyanın adını daşıyır.

***Eymur*** – Uyğur xaqanlığını yaradan doqquz oğuzdan biridir[4]. 840-cı ildə Uyğur xaqanlığı qırğızların təzyiqi ilə dağılır. Hər tərəfə səpələnən uyğur boylarının bir hissəsi Aral gölü ətrafına gəlir[5]. Eymurların Oğuz elinə qatılması da, güman ki, bu vaxt baş verib. Bununla yanaşı, bəzi başqa boyların da sözügedən hadisə

---

научною целью 1893-1894 гг.». Сочинения. Т. VIII, Москва, 1973, s. 43

1 Гумилев Л.Н. Тысячелетие вокруг Каспия. Баку, 1991, s. 202

2 Толстов С.П. Города гузов. // Советская этнография. 1947, №3, s. 83

3 Yenə orada.

4 Ögel B. Uygur Devletinin Teşekkülü ve Yükseliş Devri. Belleten, XIX, 75, Ankara, 1955, s. 369; Тихонов Д.И. Хозяйство и общественный строй уйгурского государства X-XIV вв. Москва-Ленинград, 1966, s. 26

5 Ахинжанов С.М. Об этническом составе кипчаков средневекового Казахстана. // Прошлое Казахстана по археологическим источникам. Алма-Ата, 1976, s. 86

ilə əlaqədar olaraq Oğuz elinə daxil olması istisna olunmur.

***Yaparlı*** – Rəşidəddinə görə, *yaparlıların* əsl adı Yağma idi[1]. Belə görünür ki, *yaparlı* Yağma elinin bir qolu olmuş və sonralar Oğuz elinə qatılmışdır.

Bəzi oğuz boylarının Oğuz elinin tərkibinə qatılmazdan öncə mənsub olduqları etnik birliklər haqqında, hələlik, məlumat yoxdur. Ancaq onların bir qisminin Oğuz dövlətinin yaranmasından öncə, Altay dağlarının qərbindən Aral gölünə və hətta Xəzər dənizinə qədər yayılmış *tele* adlanan tayfalar birliyinə məxsus boylar olması şübhə doğurmur[2]. VI-VII əsrlərdə sözügedən bölgələrdə türklərin varlığına dair A.Yakubovskinin qeydləri də xüsusi əhəmiyyət daşıyır[3].

Beləliklə, kai, kimak, alat, uyğur, yağma, peçeneq, tele və s. etnik birliklərə məxsus boylar və tirələr birləşərək "adına heç bir say əlavə

---

[1] Фазлаллах Рашид-ад-Дин. Огуз-Наме. Баку, 1987, s. 51

[2] Ахинжанов С.М. Об этническом составе кипчаков средневекового Казахстана. // Прошлое Казахстана по археологическим источникам. Алма-Ата, 1976, s. 87; Грум-Грижимайло Т.Е. Западная Монголия и Урянхайский край. Т. II, Санкт-Петербург, 1926, s. 195

[3] Якубовский А.Ю. Вопросы этногенеза туркмен в VIII-X вв. // Советская этнография, 1947, №3, s. 52-53

olunmadan" (V.Bartold) təqdim olunan Oğuz elini vücuda gətirmişdilər. *El* sözünün qədim türkcədə "müstəqil siyasi birlik", "dövlət", "imperiya" anlamında işlənməsi bəllidir[1]. Ona görə *Oğuz eli* ifadəsinin "Oğuz dövləti" anlamını verməsi şübhə doğurmur. Ancaq araşdırıcılar bu etnosiyasi birliyə ali hakimiyyətin başında dayanan şəxsin daşıdığı titulu əlavə edərək "Oğuz Yabqu dövləti" adı veriblər.

## Oğuz elinin qonşuları

Oğuzların qonşuları ilə münasibətləri yaxşı olmamışdır. Onlar nizamlı bir şəkildə Burtas torpaqlarına (ehtimal ki, Bulqariyaya da) hərbi axınlar edirdilər[2]. Oğuz Yabqu dövlətinin xəzərlərlə də yaxşı münasibət saxladığını söyləmək olmaz. Onlar (Məsudiyə görə) xəzər torpaqlarına axınlar edir, xəzərlər isə bu axınların qarşısını ala bilmirdilər. Bu üzdən xəzər xaqanının özü onlara qarşı yürüşdə iştirak etmişdi[3].

---

[1] Гумилев Л.Н. Древние тюрки. Москва, 1993, s. 221

[2] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 148

[3] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 54-55; Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 148

Oğuzlar Xarəzmlə də yaxşı qonşuluq münasibəti saxlamamışdır. Afriqilər tərəfindən idarə olunan Xarəzm oğuz axınlarına qarşı sərhəd boyu gözətçi qalaları qurmuşdu. Xarəzmşahlar, sərhədlərini qorumaq üçün hər payız oğuzlara qarşı hərbi yürüş təşkil edirdilər[1]. Orta əsr qaynaqlarında (Yaqubi, İstəxri, Qudamə ibn Cəfər) oğuzların Xorasana – sərhəd yaxınlığında yerləşən şəhər və kəndlərə yürüşlər etməsi haqqında məlumatlar var[2]. Onların xəzərlər və bulqarlar üzərində qələbəsi tarixə yaxşı məlumdur. Oğuz eli 965-ci ildə ruslarla ittifaq bağlayaraq xəzərləri, 985-ci ildə isə Volqa bulqarlarını ağır məğlubiyyətə uğratdılar[3]. Karluklarla çigillər oğuzların şərq qonşuları idi. Onlar karluklarla müharibə vəziyyətində idilər. Karluklarla olan döyüşlərin birində oğuz yabqusu həlak olmuşdu. M.Kaşğarlı isə çigillərlə oğuzlar arasında köhnə zamanlardan mövcud olan düşmənçilikdən bəhs edir[4]. Şimal qonşuları olan kimaklar ilə

---

[1] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 57; Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 148

[2] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 149

[3] Yenə orada, s. 149-150

[4] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 57

oğuzlar gah barış, gah da müharibə şəraitində yaşayırdılar[1].

## Oğuz elinin yaranması

Oğuz elinin yaranması tarixi haqqında dəqiq məlumat yoxdur. Araşdırıcılar bu məsələdən danışarkən İbn əl-Əsrdə özünə yer tapan Abbasi xəlifələrindən Mehdi zamanında (775-785) oğuzların Məvarannəhrə gəlmələri haqqında bir qeydə müraciət edirlər[2]. Bununla yanaşı, onların VIII əsrin ortalarında Monqolstanın şimalında yerləşməsi və uyğurlar üzərinə hərbi yürüşlər etməsi haqqında faktlar var[3]. Oğuz tayfalarının VIII əsrdən bu bölgədə yerləşməsi və ya Qərbi Göytürk xaqanlığının dağılması ilə bağlı olaraq ortaya çıxması, eləcə də bu xaqanlığın əsas dayağı olan on oklarla bağlılığı haqqında fikirlər də mövcuddur[4] [5]. Ancaq bu fikirlərin

---

[1] Kafesoğlu İ. Türk Milli Kültürü. İstanbul, 1991, s. 144; Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 57

[2] Kafesoğlu İ. Türk Milli Kültürü. İstanbul, 1991, s. 143

[3] Гумилев Л.Н. Древние тюрки. Москва, 1993, s. 376-377

[4] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 24-25

[5] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 41

arxasında ciddi faktlar dayanmır və fərziyyə səviyyəsində qalır. Oğuz eli haqqında tarixi qaynaqlar X əsrə aiddir. Bu dövlətin IX əsrin sonu X əsrdə varlığı şübhə doğurmur. Oğuz elinin yaranmasından danışarkən VII əsrdən öncə Xəzər dənizinə qədər yayılmış *tele* tayfaları da unudulmamalıdır (Грум-Гржимайло Г. Е. Западная Монголия и Урянхай, Москва-Ленинград: 1929, с. 195).

## Kayı hakimiyyəti

Oğuz elində hansı boyun hakimiyyətdə olması haqqında heç bir tarixi məlumat yoxdur. Ancaq məlum olduğu kimi, Oğuznamə Oğuz elində siyasi hakimiyyət haqqını *Kayı* boyuna verir. Xalq yaddaşı bu qədər yanıla bilməz. Oğuznamənin bu məsələdə bu qədər israrlı olmasına əsaslanıb düşünmək olar ki, Oğuz elinin başında *kayı* boyundan olan yabqular dayanıb. Bununla yanaşı, ənənəvi elat dövlətlərində siyasi hakimiyyət haqqı dövlətin əsasını qoyan boya düşürdü. Bu baxımdan, Oğuz elini *kayı* boyunun yaratdığını söyləsək, yanılmarıq.

## Oğuz elinin süqutü

Tarixçilər Oğuz elinin süqutunu Əli xanın ölümü ərəfəsində baş vermiş böyük bir köç hadisəsi ilə əlaqələndirirlər. Bu köç hadisəsinin hansı səbəbdən, nə vaxt, harada və necə baş verməsi haqqında müxtəlif fikirlər var[1]. Bununla yanaşı, onun Oğuz dövlətinin süqutu ilə əlaqəsi də qaranlıqdır. Sözügedən hadisə Şərəf əz-Zaman Tahir Əl-Mərvazinin məlumatlarına əsaslanır. Kailərin kunları təqib etməsindən bəhs edən müəllif, sonuncuların şarı torpaqlarına, şarıların türkmən torpaqlarına, türkmənlərin quzların şərq torpaqlarına, quzların isə Qara dənizin yaxınlığında yerləşən peçeneqlər ölkəsinə getməsini bildirir[2]. Göründüyü kimi, bu məlumatda türkmənlərin oğuzların şərq torpaqlarına, oğuzların isə peçeneqlər ölkəsinə getməsi qeyd olunur. Bu prosesin necə baş verməsi haqqında heç nə deyilmir. Elə buna görə də Oğuz elinin süqutunun məsuliyyəti, əsas eti-

---

[1] Алпамыш. Узбекский народный эпос. Ленинград, 1982, s. 46-53; Кумеков Б.Е. Государство Кимаков IX-XI вв. по арабским источникам. Алма-Ата, 1972, s. 112-119; Толстов С.П. Города гузов. // Советская этнография. 1947, №3, s. 81

[2] Mervazinin Eserinin Türklerle İlgili Babının Tercümesi. Osmanlı Tarihleri. C. I. İstanbul, 1949, s. 97-98

barilə, qıpçaqların boynuna qoyulur[1]. Bu işdə qıpçaqların şəriki kimi kailərin və ya səlcuqluların adı çəkilir[2]. Oğuzlar öz doğma yurdlarını tərk edib Qara dənizin şimalında yerləşən çöllərə üz tutdular. Oğuz yurdu qıpçaqların əlinə keçdi. XI əsrin ortalarından etibarən *Oğuz çölü* (Mafazat ül-Quziyyə) *Qıpçaq çölü* (Dəşti-Qıpçaq) adlanmağa başladı.

Qara dənizin şimalına köç edən oğuzlar Bizans qaynaqlarında *uz*, rus qaynaqlarında isə *tork* adlanır. Bununla bərabər, Kiyev rusu onlara *torkmen*, Novqorod və Lavrentyev səlnaməsində isə *taurmen* deylir. Fikrimizcə, *türk* adı onların Göytürk imperiyası içərisndə olmalarından irəli gələn xatirəni, ikinci (*torkmen/taurmen*) ad isə türkmanların bir hissəsinin siyasi səbəblərdən təkrar olaraq oğuzların işərisinə qatılmaları ilə bağlı olmuşdur.

Oğuzların bu hissəsinin tarixi taleyi acınacaqlı oldu. Var-yoxları əllərindən çıxmış oğuzlar hər tərəfdən düşmən əhatəsinə düşdülər: şi-

---

[1] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 58-59; Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 158

[2] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 214-215; Ахинжанов С.М. Из истории движения кочевых племен евразийских степей в первой половине XI в. Археологические исследования древнего и средневекового Казахстана. Алма-Ата, 1980, s. 52-53

maldan rus knyazları, qərbdən peçeneqlər, cənubdan Bizans, şərqdən qıpçaqlar (poloveslər). Onlar 1055-ci ildə Dnepr çayından da irəli getmişdilər. 1065-ci ildə rus knyazları birləşərək gözlənilmədən oğuzlara zərbə endirdilər. Arxadan qıpçaqlar tərəfindən sıxışdırılan oğuzlar Dnepri, ardınca Dunayı keçməyə məcbur oldular. Donda və Dneprdə qalanlar qıpçaqlara tabe oldular, bir hissəsi isə Kiyev knyazlığına sığındı. 1064-cü ildə Dunay çayını keçən oğuzlar yunanlara və bolqarlara qələbə çaldılar. Frakiya və Makedoniyanı yağmaladılar. Onlar Səlanik və Peloponesə qədər irəlilədilər. Ancaq burada da onlar uğursuzluğa düçar oldular. Soyuq qış aclıq və epidemiya ilə müşayiət olundu. Onların bir hissəsi aclıqdan və xəstəlikdən öldü, bir hissəsi isə peçeneqlər və bolqarlar tərəfindən məhv edildi. 1068-ci ildə Macarıstana uğursuz yürüşləri onların zəifliyini üzə çıxardı. Oğuzların bir hissəsi Bizans dövlətinə tabe oldu, bir hissəsi isə geri qayıdıb Kiyev rus knyazlığının sərhədlərinə yaxın bir bölgədə yerləşdilər. 1088-ci ildə Vladimir Monomax onları darmadağın etdi. Qalanları Kiyev və Pereyaslav knyazlığını qıpçaqlardan qorumaq üçün bu knyazlıqların cənub sərhədlərində yerləşdirildi[1]. Uzların etnik tarixi bu şəkildə sona yetdi.

---

[1] Kafesoğlu İ. Türk Milli Kültürü. İstanbul, 1991, s. 172-173; Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 60; Агаджанов С.Г. Очерки

Yurdda qalan oğuzların bir hissəsi qıpçaqların hakimiyyəti altına düşdü və onların içərisində əridi. Qalanları isə *türkmən* / *türkman* adı ilə tanınan superetnosun içərisinə daxil oldu.

Problemə toxunmazdan öncə, bir məsələni dəqiqləşdirmək istərdik. Qaynaqlarda sözügedən etnonim *türkmən* / *türkman* fonetik variantı ilə işlənir. Məlum olduğu kimi, etnonimin *türkmən* variantları müasir Türkmənistan türkmənlərini ifadə edir. Ona görə də biz Türkmənistan türkmənləri ilə haqqında danışdığımız superetnosu fərqləndirmək üçün sonuncuya sözün ikinci variantından yararlanaraq *türkman* adı veririk. Qeyd edək ki, qaynaqların müasir nəşrlərində etnonimin *türkmən* variantı daha sıx şəkildə işlənir. Bu vəziyyət bir çox hallarda etnonimin *türkman* variantının *türkmən* şəklində verilməsi hesabına yaranır. Deyilən cəhət əksər hallarda təsadüfi xarakter daşımır və irəlidə görəcəyimiz kimi, müasir *türkmənlərlə* tarixi *türkmanları* eyniləşdirmək istəyindən doğur. Ancaq irəlidə haqqında söz açılan etnosa münasibətdə etnonimin *türkmən* variantının da işlənməsi ancaq qaynağa sədaqət ehtiyacı ilə bağlıdır.

---

истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 157-160; Плетнева С.А. Половцы. Москва, 1990, s. 24-25

# II FƏSİL.

# TÜRKMANLAR

Araşdırmanlın hazırkı hissəsində diqqətimizi etnik mahiyyətdə *oğuz,* müəyyən hallarda siyasi səciyyəli *səlcuqlu* və ya qohum xalqların ümumi adı kimi *türk* sözü ilə təqdim olunan türkmanların etnik kimliyinin üzərinə yönəldəcəyik. Bu xalq necə yarandı? Hansı xüsusiyyətləri ilə oğuzlardan fərqlənir? Tarixin axarında hansı proseslərə məruz qaldı? Bir xalq olaraq necə və hansı səbəblərdən dağılıb tarixə qovuşdu?

Orta əsrlərdən son dövrlərə qədər türkman adı, onun mənası və mənşəyi, eləcə də xalqın yaranması haqqında müxtəlif fikirlər söylənmişdir. Görək, məsələ hansı şəkildə dəyərləndirilir.

## Etnonim və etnosla bağlı yozumlar

Artıq deyildiyi kimi, orta əsr müəllifləri oğuzların *türkman* adlanmasına etnik məzmun vermirdilər və bu hadisəni bir xalqın yeni adı kimi anlayırdılar. Məsələn, Rəşidəddin (XIII-

XIV) məsələyə "Oğuzların hamısına indi türkman deyirlər" şəklində münasibət bildirir[1]. Orta əsr müəllifləri oğuzların *türkman* adlanmasını dini-mədəni və antropoloji müstəvidə yozurdular. Elmə məlum olduğu dərəcədə belə bir cəhd ilk dəfə Biruni (X) tərəfindən göstərilib. Müəllif yazır: "Türk oğuzlardan hansı İslamı qəbul edib müsəlmanlara qarışırdısa, onlarla o birilər arasında tərcüman olurdu. Belə ki, nə vaxt hansısa oğuz İslamı qəbul edirdisə, oğuzlar deyirdilər: "o, türkman oldu", müsəlmanlar isə deyirdilər ki, onların arasına türkman gəldi, yəni türkə bənzər"[2]. Əslində, Biruni burada *türkman* etnonimi haqqında öz zamanında yayılmış fikirləri özünəməxsus şəkildə ümumiləşdirməyə çalışıb. Birincisi, müəllif sözügedən etnonimi orta əsrlərdə etnik anlam daşıyan *tərcüman* sözü ilə qarşılaşdırır. S.Ağacanov bu qarşılaşdırmadan yararlanaraq *türkman* etnoniminin *tərcüman* etnonimindən yaranması fikrini ortaya atır. Türkmanların ikidilli olması fikri də buradan

---

[1] Фазлаллах Рашид-ад-Дин. Сборник летописей. Т. I, кн. 1. Москва-Ленинград, 1952, s. 75

[2] Агаджанов С.Г. Средневековые этимологии названия «туркман». Проблемы этногенеза туркменского народа. Ашхабад, 1977, s. 89

doğur[1]. Qeyd edək ki, müəllifin *türkman* etnonimi və uyğun olaraq etnosun mənşəyi barədə fikri tamamilə əsassızdır. Belə ki, orta əsrlərdə sonu *man/mən* morfemi ilə qurtaran çoxlu etnonimlərlə qarşılaşırıq: *akman, karaman, kuman, kırkmən, jüzmən, dürmən, nayman* və s. Bu misallar göstərir ki, sonu *man/mən* morfemi ilə qurtaran etnonimlər (ümumiyyətlə, sözlər) türk dilləri üçün səciyyəvidir və sözügedən etnonimin əsasında yarana bilməzdi. Ancaq mətndən göründüyü kimi, Biruni *tərcüman* sözünü *türkman* şəklində konkretləşdirib ona "müsəlman oğuz", "İslam dünyasına qatılmış oğuz" və ya "dindaşlarla soydaşlar arasında tərcüman" anlamı vermək istəyir və bu zaman etnonimin X əsrdə qazandığı mənadan yararlanır. Etnik adın anlamının etnosun keçirdiyi proseslərə uyğun olaraq dəyişməsini qeyd edib, onu demək istəyirik ki, *türkman* etnoniminin "müsəlman oğuz" anlamı oğuzların X əsrdə böyük bir axınla İslamı qəbul etməsi ilə bağlı olmuşdur. Ancaq Mərvazinin (XII) etnonimi "İslamı qəbul edən oğuz",

---

[1] Агаджанов С.Г. Новые материалы о происхождении туркмен. // Известия АН Туркменской ССР. Серия общественных наук, №2, 1963, s. 12-19

Mehmet Nəşrinin (XV) "İslamı qəbul edən türk" (*türk-iman*) şəklində yozumundan görünür ki, etnonimin X əsrdə qazandığı məna uzun müddət öz aktuallığını saxlamışdır. Əslində, etnonimin "müsəlman türk" anlamı, irəlidə görəcəyimiz kimi, "müsəlman oğuz" anlamından çox-çox qədimdir. Ancaq Mehmet Nəşri onu 999-cu ildə 2000 türk ailəsinin İslamı qəbul etməsi ilə əlaqələndirir[1]. Bu üzdən müəllifin etnonimə verdiyi anlamın "müsəlman oğuz" anlamından törəmə olduğunu düşünürük.

Biruni *türkman* etnoniminin o dövrdə məşhur olan başqa bir anlamını da mətnə daxil edib onu *türkmanənd* (türkəbənzər) şəklində izah edir. Etnonimin bu şəkildə yozumu M.Kaşğarlı, F.Rəşidəddin, Yazıçıoğlu Əli, Mirxond, Bahadur xan Əbülqazi və s. kimi müəlliflərin əsərlərində də təkrar olunur. Bu yozum oğuzların antropoloji cəhətdən dəyişməsi, yəni onların sifətində monqoloid cizgilərinin zəifləməsi, uyğun olaraq avropoid cizgilərinin güclənməsi ilə əlaqələndirilirdi[2].

---

[1] Агаджанов С.Г. Средневековые этимологии названия «туркман». Проблемы этногенеза туркменского народа. Ашхабад, 1977, s. 86-94, s. 91-92

[2] Yenə orada, s. 86-94

## "Müsəlman oğuz" məsələsi

*Türkman* etnoniminin İslamı qəbul edən oğuzların yeni adı olması fikri tarixşünaslıqda geniş yayılmış və demək olar ki, qəbul olunmuşdur. Qeyd edək ki, tarixdə din qəbul etməklə ad dəyişən xalq qeydə alınmamışdır. Bundan savayı, bu fikir araşdırıcını qarşıya çıxan bəzi faktlar qarşısında mat qoyur. Məsələn, S.Tolstov sonuncu oğuz yabqusunun (Əli xanın) müsəlman olmasını iddia edir[1]. Bu fikri Samani hökmdarının təklifi ilə 1003-cü ildə oğuz yabqusunun İslamı qəbul etməsi haqqında tarixi qaynaqlarda özünə yer tapan məlumat daha da gücləndirir[2]. İslamı qəbul etmələrinə baxmayaraq, Ütbinin və Qardizinin həmin oğuzları *ətrakül-quziyyə* və ya *türkani-quz* adlandırması araşdırıcını fakt qarşısında qoyur[3]. Tarixi araşdırmalarda *Bəlx oğuzları* adı ilə tanıdılan oğuzlara münasibətdə də eyni hadisə ilə qarşılaşırıq.

Sözügedən oğuzlar öncə Qaraxanlı dövlətinə tabe vəziyyətdə yaşayırdılar. Qarakitayla-

---

[1] Толстов С.П. Города гузов. // Советская этнография. 1947, №3, s. 92

[2] Köymen M. Büyük Selçuklu İmparatorluğu Tarihi. C. I. Ankara, 1989, s. 43

[3] Yenə orada, s. 48

rın Mavərənnəhri tutması ilə bağlı olaraq onlar Səlcuqlu dövlətinə tabe oldular[1]. Onların müsəlman olması araşdırıcılarda şübhə doğurmur[2]. Oğuz əmirlərinin türk adı ilə yanaşı, Məhəmməd, Nəsrəddin, Mahmud, Əbdülhəmid kimi İslam mənşəli ad və soyadlar daşıması bu baxımdan az şey demir. Məlum olduğu kimi, İslamı qəbul edən türklər ənənəvi adla yanaşı, bir müsəlman adı da götürürdülər[3]. Onların bəzi qaynaqlarda "kafir" adlandırılması haqlı olaraq siyasi səbəblərlə – Sultan Səncərə qarşı qiyam qaldırmaları ilə əlaqələndirilir[4]. Sultan Səncərin xahişi ilə fitva yazıb oğuzları "kafir" adlandıran ruhanilərin aqibəti bu baxımdan xüsusi məna daşıyır. Sultan Səncər ordusuna qalib gələn oğuzlar ruhanilərin ağzına torpaq dolduraraq

---

[1] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 113; Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 194

[2] Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 271

[3] Босворд К.Э. Нашествие варваров: появления тюрок в мусульманском мире. Мусульманский мир. 950-1150. Москва, 1981, s. 30; Гордлевский В.А. Государство Сельджукидов Малой Азии. Избранные сочинения. Т. I, Москва, 1960, s. 83-84

[4] Агаджанов С.Г.Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 271

qətlə yetirir[1]. Beləliklə, İslamı qəbul edərək *türkman* adlanan başqa oğuzlardan fərqli olaraq, haqqında danışdığımız oğuzlar İslam dinini qəbul etməzdən öncə daşıdıqları etnik adı yaşatmaqda davam edirlər. Deməli, oğuzun "türkman olması" üçün onun İslam dinini qəbul etməsi kifayət deyildi. Məsələ, tamamilə, başqa bir hadisədən qaynaqlanırdı. Qaynaqlarda Bəlx oğuzları haqqında verilən məlumatlar məsələyə aydınlıq gətirir. İbn əl-Əsir və Hafizi Abrunun verdiyi məlumata görə, oğuzlar "uçuq" və "buzuq" adı ilə iki yerə bölünürdülər. Üçokların başında Nəsrəddin Əbu Şüca Tuti bəy, bozokların başında isə Qorqud ibn Əbdülhəmid dururdu. Bundan başqa, üçoklardan Dinar, Bəxtiyar, Arslan, Çakır, Mahmud kimi boy bəylərinin adı bəllidir[2]. Belə görünür ki, Bəlx oğuzları İslam dinini qəbul etsələr də, oğuz etnik sistemindən imtina etməmişdilər. Etnosun varlığı etnik sistemin varlığından, ömrü isə etnik sistemin yaşamasından asılıdır.

---

[1] Агаджанов С.Г.Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 209-210

[2] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 113-114; Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 186

Etnik şüurun ifadəsi kimi etnik adın yaşaması etnik sistemin qorunması hesabına etnosun öz varlığını davam etdirməsindən qaynaqlanırdı. Buradan aydın olur ki, oğuzların (ümumiyyətlə, türklərin) İslam dinini qəbul etmələri hələ onların etnik mənada "türkman olmaları" demək deyildi. Oğuz etnik sisteminin içərisində İslam dinini qəbul edən oğuz, sadəcə olaraq, "müsəlman oğuz" idi və "müsəlman oğuz" ifadəsini "türkman" etnoniminin anlamı kimi yox, yalnız bu mənada işlətmək olar. Oğuzların İslam dinini qəbul etmələri "türkman olmaları" ilə nəticələnmədi. Onlar öz etnik sistemlərini qorumaqla türkman dünyasının içərisində etnoloji baxımdan subetnos olaraq varlıqlarını davam etdirirdilər. Elə bu üzdən Əl-Bundari (XII-XIII) oğuz dediyi etnik qrupu "türkman tayfalarından biri", Rəvəndi (XIII-XIV) "türkman tayfası" kimi səciyyələndirərək onları türkman dünyasından fərqləndirməyə çalışırlar[1]. Söhbət oğuzların türkmanlar içərisində subetnos olaraq öz varlıqlarını davam etdirmələrindən gedir. Ancaq İslamı qəbul edərək *türkman* adı daşıyan oğuzlara münasibətdə biz, tamamilə, başqa halla qarşılaşırıq.

---

[1] Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 269

## Türkmanların tarix səhnəsinə çıxışı

Türkman etnoniminin oğuzların İslam dinini qəbul etməsindən sonra ortaya çıxması haqqında fikir belə təsəvvür yaradır ki, türkmanlar oğuzların İslamı qəbul etməsindən sonra tarix səhnəsinə çıxmışdır. Halbuki bu etnonim oğuzların bir etnosiyasi birlik olaraq yaranmasından öncə və ya onunla paralel şəkildə mövcud olmuşdur.

Türkman etnonimi tarix səhnəsinə ilk dəfə VIII əsrdə çıxmışdır. Həmin əsrdə birdən-birə Çin qaynağı "Türkman (Te-kü-monq) ölkəsi"ndən bəhs etmişdir[1]. Bu ölkənin harada yerləşməsi bu günə qədər aydınlaşdırılmayıb. S.Ağacanov bu ölkənin Çu çayı hövzəsindəki vilayətlərin biri olacağını düşünür[2]. Z.Toqana görə, "Türkman ölkəsi" daha geniş bir sahəni əhatə etmişdir[3]. Qaynaqda burada yaşayanların "yaxşı at, öküz, inək kimi heyvanlar, üzüm və

---

[1] Togan Z.V. Umumi Türk Tarihine Giriş. İstanbul, 1981, s. 212; Агаджанов С.Г. Новые материалы о происхождении туркмен. // Известия АН Туркменской ССР. Серия общественных наук, №2, 1963, s. 12-14

[2] Агаджанов С.Г. Новые материалы о происхождении туркмен. // Известия АН Туркменской ССР. Серия общественных наук, №2, 1963, s. 17-18

[3] Togan Z.V. Umumi Türk Tarihine Giriş. İstanbul, 1981, s. 202

başqa meyvələr yetişdirməsindən və gözəl şərab istehsal etməsindən" bəhs olunur[1].

Qaynağın şahidlik etdiyi, eləcə də araşdırıcıların diqqət yetirdiyi kimi, ilk türkmanlar oturaq və yarımköçəri həyat tərzi keçirmişdir. Elə ona görə də onların karluk, qıpçaq, uyğur və s. olması haqqında bir fikir söyləmək mümkün deyil. Qədim türklər, əsas etibarilə, elat həyat tərzi keçirirdilər. Onların daşıdığı etnik ad da bu həyat tərzi üzərində qurulan etnik sistemlə bağlı idi. Ona görə də elat həyat tərzindən imtina edib oturaq həyata keçənlər daim hərəkət halında olan elat dünyasından ayrı düşürdülər, yəni mənsub olduqları etnik sistemdən çıxmış olurdular. Bu halda elat dünyası öz soydaşlarını sosial məzmunlu *tat, təcik* kimi adlarla tanıyırdı[2]. Ancaq oturaq həyata keçən türksoylular, irəlidə ətraflı şəkildə bəhs edəcəyimiz kimi, özlərinin etnik adlarını itirdikləri

---

[1] Агаджанов С.Г. Новые материалы о происхождении туркмен. // Известия АН Туркменской ССР. Серия общественных наук, №2, 1963, s. 17

[2] Бартольд В.В. Еще о слове «сарт». Сочинения. Т.II, ч. 2, Москва, 1964, s. 313-314; Гордлевский В.А. Государство Сельджукидов Малой Азии. Избранные сочинения. Т. I, Москва, 1960, s. 122-123; Кононов А.Н. Родословная туркмен. Сочинение Абу-л-Гази хана Хивинского. Москва-Ленинград, 1958, s. 96-97

üçün ümumilli adla, yəni *türk* adı ilə tanınırdılar. Bununla bərabər, haqqında danışdığımız oturaq və ya yarımköçəri əhali bu adla tanınmadı. İş ondadır ki, onlar oturaq və ya yarımköçəri olmaqla yanaşı, İslamı qəbul etmiş ilk türklər idi və onların götürdükləri *türkman* adı bu iki hadisəni ifadə edirdi. Elə ona görə də bu ad ilk vaxtlar etnik anlamı ilə yanaşı, rəmzi olaraq "müsəlman türk" anlamında da işlənirdi. İslam dinini qəbul edən oğuzun "türkman olma" şəklində ifadəsi etnonimin sonuncu anlamı ilə bağlıdır və şübhəsiz ki, VIII-XII əsrlərdə karlukların, qıpçaqların, uyğurların və s. İslam dinini qəbul etməsi də məhz deyilən şəkildə ifadə olunmuşdur. *Türkman* etnoniminin "müsəlman türk" anlamı onun o dövrdə tanrıçı türk dünyasını İslama çağırış rəmzi kimi istifadə olunduğunu göstərir. Belə məlum olur ki, "müsəlman türklər" tanrıçı türk dünyasını İslamın qəbulu yolu ilə birləşdirmək iddiasında olmuşdur. Bu mənada *türkman* etnonimi bir müddət ümummilli *türk* etnoniminin yerini tutmaq sevdasına düşmüşdür. İ.Kafesoğlu *türkman* adının siyasi termin kimi istifadə olunduğunu söyləyərkən məsələnin deyilən üzünü ifadə etmək istəmişdir.

Ancaq məlum olduğu kimi, müəllif *türkman* adı ilə İslam dini arasında heç bir bağlılıq görmür.

*Türkman* etnonimi aid olduğu etnosun təbiətini dəqiq şəkildə ifadə edirdi. Bu adı qəbul etməklə onlar bir yandan tanrıçı türk dünyasına onun bir parçasının İslamı qəbul etdiyini bəyan edib onları da "haqq yoluna" səsləyirdilərsə, başqa yandan İslam dünyasına onun sıralarına türksoylu etnik dünyanın üzvlərinin gəlişini xəbər verir və hər iki superetnik dünyadan fərqləndirirdi.

Hər bir etnos təbiəti etibarilə dinamik səciyyə daşıyır və türkmanlar da bu baxımdan istisna təşkil etmirdi. İlk türkmanlar, çox ehtimal ki, İslam dünyasının içərisində "müsəlman türk" icması şəklində mövcud olub. Ancaq bəzi araşdırıcılar etnosun bu halını mütləqləşdirib, onu etnosun mahiyyətinə çevirirlər. Z.Toqan türkmanlarla oğuzları oturaq-köçəri prinsipi ilə diferensiallaşdırarkən onun Çin qaynağındakı halına söykənir. Bu halda orta əsrlər boyu elat həyat tərzi yaşayan türkmanların kimliyi məsələsi cavabsız qalır. Başqa bir araşdırıcının (S.Ağacanov) onların öncə oturaq və yarımköçəri halda yaşayıb, sonradan köçəri həyat tərzinə keçməsi barədə rəyi bu uyğunsuzluğu "ara-

dan qaldırmaq" və VIII əsr türkmanlarını X-XI əsr türkmanları ilə eyniləşdirmək ehtiyacından yaranır[1]. Məsələyə bu şəkildə yanaşan müəllif X-XI əsrlərdə elat dünyasına məxsus türksoylu etnik qrupların İslamı qəbul edərək "türkman olması" axınını nəzərdən qaçırır. Qeyd edək ki, bu axının hesabına türkmanlar sayca o qədər çoxalmışdılar ki, VIII əsr türkmanlarının bu etnik dünyanın hansı küncündə qalmasını nə müəyyən etmək mümkündür, nə də buna ehtiyac var. Əslində, müəllifin məsələyə bu şəkildə yanaşması onun türkmanları türk və ari metisi kimi təqdim etmək niyyətinin bir parçasıdır. Qarşıya qoyduğumuz məsələnin üzərinə qayıdaq.

## Türkman etnosistemi

Yeni etnik dünya içərisində üç oğuzdan ibarət karluk, yeddi oğuzdan ibarət kimak, səkkiz oğuzdan ibarət peçeneq, doqquz oğuzdan ibarət uyğur və ya Oğuznamənin iddia etdiyi kimi, iyirmi dörd oğuzdan ibarət oğuz etnik sistemi işləmirdi. Bu baxımdan L.Qumilyevin "ye-

---

[1] Агаджанов С.Г. Новые материалы о происхождении туркмен. // Известия АН Туркменской ССР. Серия общественных наук, №2, 1963, s. 23

ni etnos köhnə etnosun institutlarını məhv edir" tezisi[1] türkmanlara münasibətdə özünü tam mənası ilə doğruldur. Onun cazibəsi də elə bunda idi. Sosial, siyasi və iqtisadi səbəblərdən məlum və qocalmış etnosistemlərdən üz çevirən passionar qüvvələr fərdi, ailəvi və ya obalar halında İslamı qəbul edərək formalaşmaqda olan yeni etnik sistemin içərisinə daxil olub onun bir üzvünə çevrilir və burada ellər şəklində yenidən formalaşırdılar. Ona görə də yeni etnik dünyada bu vaxta qədər nə uyğur, nə karluk, nə qıpçaq, nə oğuz, nə də başqa bir türk etnik birliyinə məlum olmayan Səlcuqlu, Yağmurlu, Gökdaşlı, Qızıllı, Balxandağlı, Təkəli, Danişməndli, Qaramanlı, Ağqoyunlu, Qaraqoyunlu və s. kimi çoxsaylı ellər ortaya çıxdı. Oğuznamədən bizə bəlli olan oğuz boylarının türkmanlar içərisindəki halı yeni etnik sistemin xarakterini, eləcə də iki etnik sistem arasındakı fərqi anlamaq üçün xüsusi əhəmiyyət daşıyır. M.Kaşğarlıdan və Oğuznamədən bizə bəlli olan oğuz boylarının əksəriyyətinin adı ilə türkmanlar içərisində də qarşılaşırıq. Ancaq oğuz boyları yeni etnik dünyanın hər tərəfinə səpələnmiş və-

---

[1] Гумилев Л.Н. География этноса в исторический период. Ленинград, 1990, s. 28

ziyyətdədirlər. Onların adları müxtəlif türkman elləri içərisində başqa oğuz və hətta qeyri-oğuz boylarla birgə çəkilir. Başqa sözlə, burada kayı, bayandır, salur, yazır və s. kimi qəbilə birlikləri yox idi. Salur və yazır kimi bəzi türkman ellərinin "oğuz zəmanında" daşıdığı adlarla tanınması bizi çaşdırmamalıdır. Belə ellər həm tərkibinə, həm də etnik sistem içərisində yerinə görə oğuz salurundan, yazırından və s. əsaslı şəkildə fərqlənirdi. Məsələyə diqqət yetirən F.Sümer bu hadisəni boyların obalarının və qollarının müxtəlif zamanlarda məlum bölgələrə gəlməsi və iqtisadi-siyasi səbəblər üzündən yenidən ayrılması şəklində dəyərləndirir[1]. Əlbəttə, boylara məxsus obaların, tirələrin parçalanması, bir türkman elindən, başqa türkman elinə keçməsi və ya tabe olduğu dövlətlərin onları zəiflətmək məqsədi ilə parçalaması halları etnosun bütün tarixi boyu davam etmişdir. Ancaq oğuz boylarının türkmanlar içərisində səpələnmiş vəziyyətdə olması onların bu etnik sistemin içərisinə ailələr, obalar, tirələr şəklində girməsi ilə bağlıdır. Gəlin unutmayaq, türkman etnik sistemi qocalmış etnosistemlərdən üz çevirən passionar qüvvələrin hesabına yaranmışdı. Bu

---

[1] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 238

qüvvələr fərdlər, ailələr, obalar, tirələr şəklində oğuz etnik sistemindən üz çevirib yeni etnosun içərisinə daxil olmuş və burada birləşərək yeni ellər yaratmışdılar. Elə daxil olan oba və oymaqların nəinki hansı boydan olması və hətta karluk, qıpçaq, xələc kimi etnik birliklərdən olması elə bir əhəmiyyət daşımırdı. Bu baxımdan Səlcuq elinin, əsas etibarilə, oğuz və qıpçaqlardan təşkil olunması və bu elə *kucat* və *çıqraq* kimi tayfaların qatılması haqqında tarixi məlumatlar az şey demir[1].

Türkmanların içərisinə oğuzlardan savayı, başqa türksoylu etnik birliklərdən qopan oba və oymaqların qatılması həm tarixi, həm etnoqrafik, həm də dil faktı ilə təsdiq olunur. Belə etnik qruplardan biri karluklardır. M.Kaşğarlı karluklar haqqında "oğuzlardan ayrıdır", "oğuzlar kimi türkməndir" deyərkən bu gerçəyi ifadə etmək istəmişdir. Bununla yanaşı, müsəlman olan oğuzların, karlukların, "və başqalarının" X əsrdə yanaşı, eləcə də qarışıq yaşaması və üstəlik qəza yürüşlərinə getməsi haqqında tarixi qaynaqlarda (İbn Hövqəl, İstəxri) məlumatlar

---

[1] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 202

var[1]. Qeyd edək ki, İslamı qəbul edib qəza yürüşlərinə gedən oğuz, karluk "və başqalarının" "türkman olmasına" heç bir şübhə yeri yoxdur. Sadəcə olaraq, qaynaqlar yeni etnik dünyanın üzvlərini onların köhnə adı ilə adlandırır və bu hal yuxarıda deyilən səbəblərlə bağlıdır. Müasir etnoqrafiya da türkmanların içərisində karluk varlığını təsdiq etməkdədir. Türkmənistan türkmənləri içərisində *karluk* adlı tayfanın varlığı, Anadoluda *karluk* etnonimi ilə bağlı yer adları, eləcə də bu bölgədə karluklara məxsus çadır tipinin yayılması deyilən hadisəyə şahidlik edir[2].

Tarixi qaynaqlarda türkmanların içərisində xələc, kanqlı və başqa türksoylu etnik qruplardan qopmuş oba və oymaqların olması haqqında məlumatlar da az deyil[3]. Ancaq araşdırıcılar ənənəyə uyğun şəkildə türkmanları oğuzlara bərabər tutduğu üçün sözügedən etnik qruplardan olan oba və oymaqları türkman xal-

---

[1] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 75-76

[2] Гумилев Л.Н. География этноса в исторический период. Ленинград, 1990, s. 44-45

[3] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 253; Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 126-127, s. 194

qının bir parçası kimi deyil, daha öncə aid olduğu etnik dünyanın mənsubu kimi təqdim edirlər. Məsələn, araşdırıcının "Aral və Xəzər ətrafında oğuz və türkman qrupları kanqlı və qıpçaqlarla qarışıq yaşayırdılar"[1] cümləsi belə bir düşüncənin məhsuludur. Türkmanların etnik tarixinə həsr olunmuş araşdırmalarda buna bənzər ifadələrlə tez-tez qarşılaşmaq olar. Məsələyə başqa münasibət də mövcuddur. Türkmanlar arasında müxtəlif etnik qrupların varlığını görən Z.Gökalp onun etnik mahiyyət daşıdığını inkar edir və bu hadisəni ellər və qövmlər toplusu kimi dəyərləndirir[2]. Məsələnin nə yerdə olduğunu anlamaq üçün bugünkü başqırd tayfalarının sırasında qarşımıza çıxan *türkmən-qıpçaq* etnonimi açar ola bilər[3]. Şübhəsiz ki, sözügedən uruq *türkman* dediyimiz superetnosdan qoparaq başqırdların tərkibinə qatılmışdır. Maraqlıdır ki, R.Kuzeyev *törökpen* (türkmən) başqırd uruğunun Türkmənistan türkmənlərinin deyil, "oğuz-türkmən"lərinin, yəni bizim *türkman* dediyimiz

---

[1] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 253

[2] Gökalp Z. Türk Medeniyyeti Tarihi. İstanbul, 1976, s. 36

[3] Кузеев Р. Г. Происхождение башкирского народа. Москва, 1974, s. 183

xalqın bir qəlpəsi sayır[1]. *Türkmən-qıpçaq* uruğuna münasibətdə də biz eyni halla qarşılaşırıq. Bu halda *türkmən-qıpçaq* etnoniminin türkman qıpçağını başqa qıpçaqlardan fərqləndirmək üçün ortaya çıxdığını görmək o qədər də çətin deyil. M.Kaşğarlının karlukların, xələclərin türkman olması haqqında qeydini yada salsaq, oğuzların, karlukların, kanqlıların, uyğurların, xələclərin və s. türkmanların tərkibinə qatılan hissəsinin uyğun şəkildə fərqləndirilməsini qətiyyətlə söyləmək mümkündür.

Türkmanların etnik tərkibi adı çəkilən etnik qruplardan olan oba və oymaqlarla tamamlanmır. Şübhə yoxdur ki, bu möhtəşəm etnosun tərkibinə onun yaranmasından çox-çox əvvəllər mövcud olmuş başqa türksoylu etnik qruplardan da oba və oymaqlar qatılmışdır. Ancaq deyilən müstəvidən türkmanların etnik tərkibi öyrənilmədiyi üçün bu barədə qəti bir fikir söyləmək çətindir. Bununla yanaşı, bu günün onomastikasına ötəri bir nəzər salsaq, orada, *töles*[2],

---

[1] Кузеев Р. Г. Происхождение башкирского народа. Москва, 1974, s.183-184

[2] *Töles* – Göytürk dövlətində hərbi-inzibati bölgənin adı. İmperiyanın şərqində yerləşən imtiyazlı tayfalar belə adlanırdı (Гумилев Л.Н. Удельно-лествичная система у тюрок в VI-VIII веках. // Советская этнография, 1959, № 3, s. 23-25). Talış adlanan böl-

*niqü*[1], *türqiş*[2], *kibir*[3], *təkləli, muğanlı*[4] kimi qədim etnonimlərlə bağlı tayfa adlarını və toponimləri

---

gə və eyni adlı kəndlər sonralar etnonimə çevrilən bu adla bağlıdır. Azərbaycan ərazisində etnonimin *telişli* (Biləsuvar rayonunda kənd) variantına da təsadüf olunur.

[1] *Niqü* – Göytürk dövlətini quran Aşina soyuna məxsus uruq (Гумилев Л.Н. Древние тюрки. Москва, 1993, s.162). Fikrimizcə, *Nügədi* və *Nüvədi, Nüyədi* və s. adlanan kəndlər bu etnonimlə bağlıdır.

[2] *Türqiş* adı ilə VI əsrdə tarix meydanına çıxan etnosiyasi birlik VIII əsrin ortalarına qədər mövcud olmuşdur (Kafesoğlu İ. Türk Milli Kültürü. İstanbul, 1991, s. 132-136). Azərbaycanda qarşılaşdığımız *Tırkəşəvənd* (Kəlbəcər rayonunda kənd), *Türkeş* (Oğuz rayonunda kənd), *Tırkeş* (Şahbuz rayonunda kənd) kimi toponimlər bu etnosun bir hissəsinin türkmanlara qatıldığını göstərir.

[3] *Kibir* etnonimi Çin qaynaqlarından *kibi/kıbir/kibir* şəklində transkripsiya olunur (Грум-Грижимайло Т.Е. Западная Монголия и Урянхайский край. Т. II, Санкт-Петербург, 1926, s. 247; Грум-Грижимайло Т.Е. Западная Монголия и Урянхайский край. Т. II, Санкт-Петербург, 1926, s. 109, s. 112, s. 115-116). Onlar *Tele* adlanan etnik birliyə daxil olan boylardan biridir (Грум-Грижимайло Т.Е. Западная Монголия и Урянхайский край. Т. II, Санкт-Петербург, 1926, s. 247-248). *Kəbirli* deyilən tayfa adı və onunla bağlı toponimlər qədim *kibir* etnonimi ilə bağlıdır. Onların Qars və Çıldırda yerləşən başqa bir qolu *kibirli* adlanır (Eröz M. Yörükler. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1991, s.255). *Kibirlər* haqqında Çin qaynaqlarında sonuncu məlumat 842-ci ilə aiddir (Грум-Грижимайло Т.Е. Западная Монголия и Урянхайский край. Т. II, Санкт-Петербург, 1926, s. 248). Çox ehtimal ki, bu tarixdən sonra onlar türkmanların tərkibinə qatılıb.

[4] Azərbaycanda geniş yayılmış *Təkləli* və *Muğanlı* tayfa adı və toponimi eyniadlı tayfanın adı ilə bağlıdır. Hər iki tayfa Monqolustan coğrafiyasında yerləşən *Təklə* və *Muğan* çölünün adı ilə bağlıdır və onlar öz adlarını tarixən məskunlaşdığı və formalaşdığı bölgənin adından alıb.

görməmək mümkün deyil. Əlbəttə, Azərbaycan ərazisində türksoylu etnik birliklərin və onlara mənsub olan tayfaların adını yaşadan daha qədim toponimlər var və onlara dair maraqlı araşdırmalar mövcuddur[1]. Ancaq biz yuxarıda tayfa adlarını sadalayarkən onların *tərəkəmə/türkman* mənsubiyyətini nəzərə almışıq. Məlumdur ki, qeyri-türkman tayfalar, məsələn, *padarlar və ayrımlar* bu gün də özlərini tərəkəmə (türkman) saymırlar.

Padarların özlərini tərəkəmə saymamalarının səbəbi aydındır. *On uyğur* uruqlarından biri olan *padarlar* monqol siyasi birliyinin içərisində idi[2]. Elə ona görə də daxil olduqları siyasi birliyin adı ilə tanınırdılar. Bu gün şimal rayonlarında türksoylu oturaq əhalinin *muğal* adlanması deyilən hadisənin xatirəsidir.

Türkmanların etnik tərkibindən danışarkən uyğurlardan yan keçmək olmaz. Heç şübhəsiz ki, sözügedən etnosun tərkibinə qədim uyğur boylarından da müəyyən oba və oymaqlar qatılmışdır. Biz burada nə oğuzların tərkibinə qatılıb oğuzlarla birgə "türkman olan", nə də etnosun formalaşmasından sonra məlum si-

---

[1] Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку, 1991

[2] Togan Z.V. Umumi Türk Tarihine Giriş. İstanbul, 1981, s. 254

yasi səbəblərlə bağlı olaraq türkmanların arasına düşən uyğurları nəzərdə tuturuq. Söhbət yaranış prosesində türkmanların tərkibinə qatılan təmiz uyğurlardan gedir. Əlbəttə, *eymurları* oğuzlarla birgə "türkman olan" və ya *padarları* Elxanlı dövlətinin süqutundan sonra türkmanların içərisinə düşən uyğurlar saymaq olar. Ancaq müasir türkmənlərin "təmizqanlı türkmən" saydığı *yomut*[1] adlı məşhur uyğur tayfası, şübhəsiz ki, birbaşa türkmanların içərisinə qatılan uyğurlardan olmuşdur.

Azərbaycan onomastikasında qarşılaşdığımız *Buğakər*[2], *Amudux*[3] (Qubadlı rayonunda və Zəngəzurun Ermənistana aid hissəsində kənd və pir adları), *Həkəri*[4] (çay adı və onun axdığı

---

[1] *Yomut* etnonimi G.Şleqelin *yamutkar,* C.Hamiltonun *yabutkar* şəklində transkripsiya etdiyi doqquz uyğur tayfasından birinin türkmanlaşmış şəklidir (Ögel B. Uygur Devletinin Teşekkülü ve Yükseliş Devri. Belleten, XIX, 75, Ankara, 1955, s. 367).

[2] *Buğakər.* C.Hamiltonun Çin qaynağından bokasıkır/bokasıkıt şəklində transkripsiya etdiyi uyğur tayfasının türkmanlaşmış şəklidir (Ögel B. Uygur Devletinin Teşekkülü ve Yükseliş Devri. Belleten, XIX, 75, Ankara, 1955, s. 367).

[3] *Amudux.* G.Şleqelin Çin qaynağından *amutik* şəklində transkripsiya etdiyi uyğur tayfasının türkmanlaşmış şəklidir (Ögel B. Uygur Devletinin Teşekkülü ve Yükseliş Devri. Belleten, XIX, 75, Ankara, 1955, s. 368).

[4] *Həkəri/Həkərli*. C.Hamiltonun Çin qaynağından *xeqersuv* şəklində transkripsiya etdiyi uyğur tayfasının türkmanlaşmış şəklidir

ərazinin tarixi adı), *Kürdəmir*[1] (rayon mərkəzinin adı) kimi adlarla uyğur tayfalarının siyahısında qarşılaşırıq. Onların ən azı bir hissəsinin, *yomut* kimi "türkman olan" uyğurlardan olmasını düşünmək olar. Rəşidəddinin məlumat verdiyi *ebişlik* adlı uyğur tayfasını[2] *ebişlər* şəklində qaraqoyunlu türkmanlar arasında görmək bu baxımdan xüsusi əhəmiyyət daşıyır[3]. Fikrimizcə, *ibişli* tayfa adı və *İmişli* (rayon mərkəzi) toponimi *ebişli* etnonimi ilə bağlıdır. Sözügedən uyğur tayfalarının türkmanların tərkibinə qatılması, çox güman ki, 840-cı ildə Uyğur xaqanlığının dağılmasından sonra baş verib. Bu hadisədən sonra 15 uyğur tayfasının qərbə, Beşbalıq ətra-

---

(Тихонов Д.И. Хозяйство и общественный строй уйгурского государства X-XIV вв. Москва-Ленинград, 1966, s. 26). Türkmənistan türkmənləri arasında olan *ağar* tayfa adı və Güney Azərbaycanda *Əhər* mahal adı bu etnonimlə bağlıdır. Maraqlıdır ki, Əbülqazi *ağar* və *aymaklıların* əslən uyğur olan İrkıl Xocanın soyundan olduğunu bildirir (Кононов А.Н. Родословная туркмен. Сочинение Абу-л-Гази хана Хивинского. Москва-Ленинград, 1958, s. 74).

[1] *Kürdəmir.* Fikrimizcə, bu toponim C.Hamiltonun *kürləmur/türləmvur* şəklində transkripsiya etdiyi uyğur tayfasının (Тихонов Д.И. Хозяйство и общественный строй уйгурского государства X-XIV вв. Москва-Ленинград, 1966, s. 26) adı ilə bağlıdır.

[2] Фазлаллах Рашид-ад-Дин. Сборник летописей. Т. I, кн. 1. Москва-Ленинград, 1952, s. 147

[3] Eröz M. Yörükler. İstanbul, 1991, s. 47

fındakı karlukların yanına köçməsi haqqında Tanşunun verdiyi məlumat xüsusi əhəmiyyət daşıyır[1]. Ən nəhayət, uyğurların türkmanların tərkibinə qatılması oğuzlardan öncə baş verib. Əks təqdirdə, Oğuznamə ilk Oğuz tərəfdarlarına *uyğur* adı verməzdi. Belə görünür ki, uyğurlar nəinki türkmanların tərkibinə daxil olmuş, hətta oğuzlara qədər bu yeni etnosun içərisində dominant rol oynamışdır.

Göründüyü kimi, türkmanlar oğuzların İslamı qəbul etməsindən ən azı 200 il öncə bir etnos olaraq mövcud idi və bu etnos türksoylu etnik qruplardan olan oba və oymaqları öz içərisinə almışdı. Ancaq X əsrdən başlayaraq oğuzların İslamı qəbul edib türkmanlara qatılması bu etnosun taleyində mühüm rol oynadı. Türkmanların içərisinə oğuz axını o yerə gətirib çıxardı ki, türkman dünyasında oğuzların çəkisi yerdə qalan etnik qruplara məxsus oba və oymaqların çəkisindən qat-qat ağır oldu. Kəmiyyət dəyişməsi, həmişə olduğu kimi, keyfiyyət dəyişməsinə keçdi. Yəni oğuzların yeni etnos içərisində kəmiyyət etibarilə çoxluğu yeni etnik sistemin təbiətini müəyyən etdi. Bu baxımdan oğuz boylarından

---

[1] Грум-Грижимайло Т.Е. Западная Монголия и Урянхайский край. Т. II, Санкт-Петербург, 1926, s. 133

qopan oba və oymaqların türkman cəmiyyətində kanqlı, qıpçaq, karluk, xələc boylarından üstün tutulması xüsusi əhəmiyyət daşıyır. İrəlidə ətraflı şəkildə bəhs edəcəyimiz kimi, *iq/qul* prinsipi ilə təsnif olunan türkman cəmiyyətində oğuz boylarına mənsub olan oba və oymaqlar "kök", "əsas" anlamı daşıyan *iq*, kanqlı, qıpçaq, karluk, xələc boylarından qopan oba və oymaqlar isə *qul* kateqoriyasına daxil edilirdi[1]. Bu hadisə türkmanların oğuzları özlərinin əsas etnik əcdadı saymaları ilə bağlı idi. Dastanlarda karlukların, qıpçaqların deyil, məhz oğuzların vəsf olunması, irəlidə görəcəyimiz kimi, bu düşüncənin ifadəsi idi. Burada söyləmək yerinə düşərdi ki, oğuzlarla türkmanların bir etnos olaraq eyniləşdirilməsi düşüncəsi çoxsaylı oğuz kütlələrinin türkmanlar içərisində dominant rol oynamasından baş götürür və bu hadisəni əks etdirən Oğuznamənin hesabına pərvəriş tapır. Yeni etnik sistemin mahiyyətindən danışarkən bir məsələnin də üzərində dayanmaq istərdik. Oğuz birliyinin subyekti olan tayfalar, deyildiyi kimi, öz aralarında qan qohumları deyildilər. Ancaq

---

[1] Васильева Т.П. Этнические компоненты в составе туркмен, по данным этнографии. Проблемы этногенеза туркменского народа. Ашхабад, 1977, s. 96-97

onlar türkman dünyasının içərisinə daxil olarkən artıq özlərini qan qohumları sayırdılar və irəlidə görəcəyimiz kimi, bu qohumluq onların Oğuz soyundan gəlmələri inancına əsaslanırdı.

Ən nəhayət, sözügedən məsələ ilə bağlı Yazıçıoğlu Əlinin "Tarixi-Ali-Səlcuq" əsərində söylədiyi bir fikrə də münasibət bildirmək istərdik. Müəllif səlcuqlular zamanında Oğuz törəsinə əməl olunmasından söz açır və ordunun sağ qolunda *kayı* və *bayat,* sol qolunda *bayındur, biceneq* və *çavundur* tayfalarının dayandığını söyləyir[1]. Qeyd edək ki, oğuz törəsi oğuz etnik sistemindən doğurdu və onu müəyyən mənada etnik sistemin layihəsi kimi anlamaq lazımdır. Ancaq səlcuqlu etnik sistemi nəinki oğuz etnik sistemi, hətta mənsub olduqları türkman etnik sistemi belə deyildi. Məsələnin mahiyyətinə nəzər salaq:

## Türkmanlar və səlcuqlular

Səlcuqlu dövləti ilk vaxtlar elat dövlətçiliyi ənənələrinə uyğun şəkildə yaranmışdı. Yəni dövlət iki qardaşın – Çağrı və Toğrulun arasında bölünmüşdü. Xaqanlıq (səlcuqlularda sul-

---

[1] Yazıcızade Ali. Tevârih-i Âl-i Selçuk. İstanbul, 2009, s. 38

tanlıq) Toğrul bəyə, yabquluq (rəsmən bu ünvanı daşımasa da) Çağrı bəyə çatmışdı. Bu dövrdə elat dövlətçiliyi ənənələrinə uyğun olaraq türkman bəylərinin iştirakı ilə *kenqeş* (məsləhət şurası) keçirilir, orduya və bəylərə *şölən* verilirdi[1]. Məlikşahın taxt-tacın varisi elan edilməsi ilə bağlı keçirilən mərasim də elat dövlətçiliyi ənənələrindən xəbər verirdi: Məlikşah ata mindirilmiş, qabaqda əyanlar gedir, hamıya bəzəkli çullar bağışlanır, Alparslan at üstündə gedən oğlunun qabağına düşüb, onun atının yəhərini aparır[2]. Səlcuqlu dövlətinə xas olan atabəylik institutu da milli ənənədən gəlirdi[3]. Ancaq səlcuqlular elat dövlətçiliyi ənənələrindən imtina etməyə başladılar. Bu proses Çağrı bəyin ölümü ilə başladı. Qardaşının ölümü Toğrula hakimiyyəti mərkəzləşdirmək imkanı yaratdı. O, qədim ənənəyə əsasən qardaşının dul qalmış

---

[1] Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 101-102; Лэмбтон Э.К.С. Аспекты расселения сельджуков-огузов в Иране. Мусульманский мир 950-1150. Москва, 1981, s. 124-125

[2] Kafesoğlu İ. Büyük Selcuklu İmparatoru Sultan Melikşah. İstanbul, 1973, s. 5; Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 101

[3] Бунятов З.М. Государство Атабеков Азербайджана (1136-1225 годы). Баку, 1978, s. 3 və ardı; Гусейнов Р.А. Институт атабеков. // Палестинский сборник. Вып. 15 (78), 1965, s. 181-196

arvadını alıb onun mülkünə sahib oldu və bu şəkildə Şərqi Səlcuq sultanlığı da Toğrul bəyin əlinə keçdi. Toğrulun övladı yox idi. O, ölərkən (1063) hakimiyyəti Çağrı bəyin oğlu Süleymana verdi. Ancaq hakimiyyəti mərkəzləşdirməkdə maraqlı olan qüvvələr bu məqsədlə yenicə yaranmış nizami orduya söykənərək Süleymanın böyük qardaşı Alp Arslanı hakimiyyətə gətirdilər[1]. İslam qarışıq fars dövlət nəzəriyyəsinin səlcuqluların siyasi sisteminə çevrilməsi bu hadisədən sonra sürətləndi. Səlcuqlular elat dünyasının əsrlər boyu vərdiş etdiyi siyasi vərəsəlik prinsipini dəyişdirdi. Elat dövlətlərində siyasi vərəsəlik böyüklük prinsipi ilə gedirdi. Bu halda, adətən, siyasi hakimiyyət qardaşdan qardaşa keçirdi[2]. Qardaşdan qardaşa vərəsəlik prinsipi matrilokal ailədən patrilokal ailəyə keçid dövrünün ailə forması olan qardaş ailəsinə dayanırdı[3]. Siyasi vərəsəlik prinsipinin bu şəkli bütün ailə üzvlərini səltənətə bağlayırdı. Alp

---

[1] Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 80-81

[2] Гумилев Л.Н. Удельно-лествичная система у тюрок в VI-VIII веках. // Советская этнография, 1959, № 3, s. 11-25

[3] Бромлей Ю.В. Ф. Энгельс и проблемы архаической формы семейной общины. Проблемы этнографии и антропологии в свете научного наследия Ф.Энгельса. Москва, 1972, s. 170-175

Arslanın oğlu Məlikşahı vəliəhd elan etməsi ailənin başqa üzvlərinin siyasi hakimiyyətə gedən yolunu kəsdi. *Kenqeşin* aradan çıxması ilə elat bəylərinin dövlət üzərində şəriklik haqqı əlindən alındı. K.Bosvord bu hadisəni "köhnə tayfa ənənələri müsəlman şəriəti və fars dövlətçilik sistemi ilə əvəzlənirdi" şəklində dəyərləndirir. Oxşar fikir E.Lembton və A.Krımski tərəfindən dilə gətirilir[1]. Türk dövlət təşkilatının İslam qarışıq fars dövlət təşkilatı ilə əvəzlənməsi uyğun olaraq türkmanların hakimiyyətdən uzaqlaşdırılması və farsların hakimiyyətə gətirilməsi ilə müşayiət olunurdu. Ona görə də dövlət aparatı Nizamülmülk başda olmaqla farsların əlinə keçdi. Səlcuqluların nizami ordu yaratması[2] elat dünyasına olan hərbi ehtiyacı da, demək olar ki, aradan qaldırmışdı. Beləliklə, türkmanlar öz əlləri ilə qurduqları və şərik olmalı olduqları dövlətin adi təbəələrinə çevrildi. Sultanlar isə fars vəzirlərin əhatəsində qaldı. Onların fars

---

[1] Крымский А.Е. Низами и его современники. Баку, 1981, s. 224-225; Лэмбтон Э.К.С. Аспекты расселения сельджуков-огузов в Иране. Мусульманский мир 950-1150. Москва, 1981, s. 41

[2] Kafesoğlu İ. Büyük Selcuklu İmparatoru Sultan Melikşah. İstanbul, 1973, s. 147-155; Гусейнов Р.А. Сельджукская военная организация.//Палестинский сборник. Вып. 17 (80), 1967, s.131-147

mədəniyyətinə və dilinə heyranlığı buradan qaynaqlanırdı.

Dövlətin farslaşdırılması türkmanlar arasında böyük narazılığa səbəb oldu[1]. Siyasi hakimiyyətə yolu bağlanmış sülalə üzvləri dövlətə şəriklik haqqını itirmiş xalqla birləşərək mərkəzi hakimiyyətə qarşı üsyan qaldırdılar. Qutalmış və Qara Arslan Gavurdun başçılığı ilə baş verən üsyanlar belə səciyyə daşıyırdı. Ancaq onların heç biri uğur qazanmadı. Səlcuqlular götürdükləri siyasi kursu axıra qədər apardılar. "Şəcəreyi-tərakimə"də oxuduğumuz aşağıdakı sətirlər türkmanların bu hadisəni uzun müddət unutmadığını göstərir: "Səlcuqlular dedilər: "Biz türkmənik, biz qardaşıq". Nə elə, nə də xalqa faydaları dəymədi. Padşah olana qədər "biz türkmənik, kınık uruğundanıq" dedilər. Ancaq padşah olandan sonra "Əfrasiyabın bir oğlu Keyxosrovdan qaçıb, türkmənlərin kınık uruğunun içinə gəlib, orada böyüyüb və həmişəlik orada qalıb. Biz onun uruğundanıq. Əfrasiyab

---

[1] Kafesoğlu İ. Sultan Melikşah Devrinde Büyük Selçuklu İmparatorluğu. İstanbul, 1953, s. 161; Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 102; Босворд К.Э. Нашествие варваров: появления тюрок в мусульманском мире. Мусульманский мир. 950-1150. Москва, 1981, s. 29

nəsliyik". Atalarını sayıb otuz beşinci nəsildə Əfrasiyaba çatdırdılar[1]. Səlcuqluların özlərini "Əfrasiyab nəsli" kimi təqdim etmələri onların türkman ənənələrinə arxa çevirmələri ilə bağlı idi. İrəlidə görəcəyimiz kimi, türkmanlar istisnasız olaraq özlərini oğuz soyunun mənsubları kimi tanıyırdılar. Dədə Qorqud dastanlarında Alp Aruzun "Əfrasiyab oğlu" kimi təqdim olunması yazılı ədəbiyyatın təsiri ilə ortaya çıxıb. Məlum olduğu kimi, türklərin əcdadının Əfrasiyab adı ilə təqdimi fars düşüncəsinin məhsuludur. Deməli, səlcuqluların özlərini "Əfrasiyab nəsli" kimi təqdim etmələri əhatəsində olduqları fars auditoriyasına ünvanlanmışdı. Bununla yanaşı, onların Oğuz soyundan imtina etmələri türkmanlıqdan imtina etmələri anlamına gəlir.

Yuxarıda deyilənləri nəzərə alsaq, səlcuqlular burada haqlı görünür. Əslən oğuz olmaq etnik mənada oğuz olmaq demək olmadığı kimi, əslən türkman olmaq da hələ "türkman olmaq" anlamına gəlmirdi. Bunun üçün məlum etnik sistemin içərisində olub onun ritmi ilə yaşamaq lazım idi. Səlcuqlular isə yalnız onlara xas olan ximerik bir aləmin içərisinə düşmüş-

---

[1] Кононов А.Н. Родословная туркмен. Сочинение Абу-л-Гази хана Хивинского. Москва-Ленинград, 1958, s. 70

dülər. Bununla yanaşı, səlcuqlular, araşdırıcıların da qeyd etdiyi kimi, müəyyən hallarda oğuz–türkmən ənənələrindən yararlanırdılar[1]. Ancaq bu hadisə sistemin milli ənənə ilə rənglənməsi kimi dəyərləndirilə bilər.

## Oğuzların sonu

Yuxarıda deyildiyi kimi, Oğuz elinin etnik qəlpəsi olan Bəlx oğuzları subetnos kimi türkmanlar arasında yaşamaqda idilər. Bununla belə, onları da gec-tez "türkman olan" başqa oğuzların taleyi gözləyirdi. Ancaq bu oğuzların həyatında baş verən bir hadisə bu prosesi tezləşdirdi.

Bəlx oğuzları Bəlx əyalətinə məxsus olan Saqanian, Toxarıstan və Xuttalda məskunlaşmışdılar. Onlar sultanın xas rəiyyəti (rəiyyəti-xas) sayılırdı və sultan divanına (divani-xas) tabe idilər. Oğuzlar hərbi mükəlləfiyyət daşıyır və dövlət divanına (divani-a'la) sultan süfrəsi üçün (xansalar) ildə 24 min baş qoyundan ibarət xərac verirdilər. Ancaq vergi toplayanların özbaşınalığı onlarla oğuzlar arasında çəkişməyə

[1] Гордлевский В.А. Государство Сельджукидов Малой Азии. Избранные сочинения. Т. I, Москва, 1960, s. 82-84

səbəb oldu və nəticədə vergi toplayanlardan biri öldürüldü. Bu vəziyyətdən istifadə edən Bəlx müktadarı İmadəddin Kümaç Sultan Səncəri dilə tutub onu oğuzların xas rəiyyət kateqoriyasından çıxarılıb şixnə ilə idarə olunmasına, üstəlik özünün oğuzların şixnəsi təyin olunmasına razı sala bildi. O, vəzifəsinə başlayan kimi vergiləri artırdı. Oğuzlar güzəştə getdilər. Ancaq Kümaçın tələbləri bitmək-tükənmək bilmirdi. Oğuz bəylərinin onunla dil tapmaq cəhdləri heç bir nəticə vermədi. Məsələ silahlı toqquşma vəziyyətinə çatdı. Baş verən döyüşdə Əmir Kümaçın oğlu Əlaəddin öldürüldü. Özünü Mərvə yetirən Əmir Kümaç oğuzların üzərinə hərbi yürüş etmək üçün Sultan Səncəri dilə tutdu və bu dəfə də istədiyinə nail ola bildi. Beləliklə, 1153-cü ilin yazında Sultan Səncər Əmir Kümaçın və saray əyanlarının təhrikinə uyaraq oğuzları cəzalandırmaq üçün böyük ordu ilə Bəlxə doğru hərəkət etdi. Hadisədən xəbər tutan oğuzlar ağsaqqalları iltimas üçün Sultan Səncərin yanına göndərdilər. Ağsaqqallar bildirdilər ki, onlar həmişə sultanın əmirlərinə boyun əyiblər. Ancaq bu məsələdə onlar arvad-uşaqlarını qorumaq məcburiyyəti qarşısında qalıblar. Bağışlanmaları üçün onlar sultana yüz min di-

nar və min türk qulamı verməyə razı olduqlarını söylədilər. Sultan Səncər güzəştə getməyə hazır idi. Ancaq ordu əmirləri Sultan Səncərə təzyiq edib, onu fikrindən daşınmağa məcbur etdilər. Bu dəfə oğuzlar arvadlarını və kiçik yaşlı uşaqlarını qabaqlarına salıb ağlaya-ağlaya sultanın hüzuruna çıxdılar. Onlar hər evə 7 som gümüş verməyə razı olduqlarını bildirdilər. Sultan yenə də onları bağışlamağa hazır idi. Ancaq ordu əmirləri qənimət həvəsi ilə sultanı öz fikrindən dönməyə məcbur etdilər. Hər yandan əli üzülən oğuzların böyük sultan ordusu ilə döyüşə girməkdən başqa yolu qalmadı.

Süvarilərdən ibarət olan çevik oğuz hərbi birliyi öncə ağır sultan ordusunu yorub əldən saldı. Ardınca Altukan adlı yerdə onlarla həlledici döyüşə girdi. Döyüşün baş verdiyi yerin ətrafı dağlarla əhatə olunmuşdu və yüz atlının sığışa biləcəyi darısqal bir keçidi var idi. Oğuzlar yurdlardan səngər düzəldib ətrafına məişət əşyaları və heyvanlarını yerləşdirmişdilər. Sultan ordusu dar boğazdan keçərək oğuzları ox yağmuruna tutdu. Ancaq yaradılan səngər oğuzları oxlardan qoruyurdu. Bunun əksinə olaraq, oğuzların atdığı oxlar səlcuqlu sıralarını pozub onları darmadağın etdi. Sultan ordusu küyə dü-

şüb qaçmağa başladı və dar keçiddə basırığa düşüb ağır itkilər verdi. Vəziyyəti belə görən oğuzlar döyüşün ikinci mərhələsinə keçib sultan ordusunu təqib etməyə başladılar. Nəticədə Sultan Səncər Mərv yaxınlığında əsir götürüldü. Oğuzlar sultanı taxta oturdub onun adından ölkəni idarə etməyə başladılar. Onlar, demək olar ki, bütün ölkəni yağmalayıb saysız-hesabsız qətllər törətdilər[1]. Ancaq oğuzların Şərqi Səlcuqlu sultanlığında törətdikləri əməllər bizim qarşıya qoyduğumuz məqsədin çərçivəsindən kənara çıxır. Onu demək istəyirik ki, bu hadisə Oğuz elinin sonuncu qəlpəsinin də dağılmasına səbəb oldu.

Bəlx oğuzları kompakt yaşadıqları üçün oğuz etnik sistemini qoruyub saxlamışdılar. Sultan Səncər ordusu üzərində qələbədən sonra onlar ələ keçirdikləri Şərqi Səlcuqlu sultanlığının müxtəlif bölgələrinə dağıldılar. Bəlx oğuzlarının bu şəkildə pərən-pərən olması onların etnik ömrünü sona çatdırdı. Onların hakim olduğu bölgələr XII əsrin sonu – XIII əsrin əvvəllərində Xarəzmşahlar dövlətinin ərazisinə qatıldı. Beləliklə, XII əsrin sonlarına doğru oğuz etnoni-

[1] Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 131, s. 199-209

mi yaşayan, mövcud olan xalqın adı kimi tarixi qaynaqlardan silinir. Onun yerini həmişəlik olaraq türkman/türkmən etnonimi tutur. Beləliklə, oğuzların X əsrdən başlayan türkmanlaşması prosesi XII əsrin sonlarında başa çatır. Unutmamışıqsa, Şərqi Avropaya köç edən oğuzların da tarixi bu dövrdə başa çatmışdı.

## Türkman coğrafiyası

Etnosun coğrafiyasından da bəhs etmək istərdik. "Türkman ölkəsi"nin artıq VIII əsrdə mövcud olduğu qeyd edildi. X əsrdə Məqdisi (947-1000) Ordu şəhərindən bəhs edir və "türkmən padşahının" bu şəhərdə oturmasını bildirir[1]. Biruni "Türkman ölkəsi" adlandırdığı ərazini oğuzların şərqində yerləşdirir[2]. Beləliklə, X əsrdə "Sırdərya, Talas, Çu hövzələri" karluk və xələclərlə birgə "türkman olan" oğuzların yaşadıqları ərazi sayılır[3]. Biruninin məlumatlarına görə, XI əsrin əvvəllərində türkmanlar Jetisu-

---

[1] Togan Z.V. Umumi Türk Tarihine Giriş. İstanbul, 1981, s. 186; Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 81

[2] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 83-85

[3] Yenə orada, s. 83-85

nun qərbində, Sırdəryanın orta axarında və Məvarənnəhrdə yaşayırdılar[1]. Xalqların köçü ilə əlaqədar olaraq, Mərvazinin verdiyi bilgiyə görə, türkmanlar oğuzların şərq əyalətlərini tuturlar. Bu ərəfədə səlcuqluların Dandanakan adlı bölgədə Qəznəli ordusunu ağır məğlubiyyətə uğratması (28 may 1040-cı il) türkman tarixində böyük hadisələrə yol açdı. Dandanakan qələbəsindən sonra Böyük Səlcuqlu imperiyasının təməli qoyuldu. Türkmanlar Səlcuqlu dövlətinin bayrağı altında İranı, Azərbaycanı, Ərəbistanı fəth etdilər. Bizans dövləti ilə səlcuqlular arasında baş verən məşhur Malazgirt savaşından (1171) sonra Anadolu torpaqlarının əksəriyyəti səlcuqluların əlinə keçdi. Orta Asiyada otlaq darlığından əziyyət çəkən türkmanların səlcuqluların hakimiyyəti altında olan – İrana, Azərbaycana, Anadoluya, Şimal-şərqi Ərəbistana kütləvi axını başladı və bu axın XIII əsrə qədər davam etdi. Mərvazi bu vəziyyəti səciyyələndirərək yazırdı: "...müsəlman olanlar İslam ölkələrinə dağıldılar. Orada yaxşı bir siyasət yürü-

---

[1] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 84

dərək İslam torpaqlarının çoxunu ələ keçirdilər və oranın hökmdarı və sultanı oldular” [1].

Qarakitayların 1137-ci ildə qaraxanlılar, 1142-ci ildə səlcuqlular üzərində qələbəsi türkman tarixinin kədərli səhifələrindəndir. Bu hadisədən sonra türkmanların böyük əksəriyyəti doğma yurdları olan Türküstandan (Qaraçuğ dağının ətəklərindən və Sırdəryanın orta axarlarından) çıxıb Xorasana və Farsa axışdılar[2]. Xatırladaq ki, Bəlx oğuzları deyilən sonuncu oğuzlar da bu hadisə nəticəsində Bəlx və Xüttəlan ətrafına köç etdilər[3]. Monqol yürüşləri zamanı türkmanlar yenidən doğma yurdu tərk etmək məcburiyyətində qaldılar. Türküstan türkmanları haqqında sonuncu məlumat 1273-1277-ci illərə aiddir[4]. Beləliklə, türkmanlar, əsas etibarilə, Xəzər dənizinin şərqində, Xorasanda, İranda, Azərbaycanda, Anadoluda, Şimal-şərqi Ərəbistanda məskunlaşdılar. Tarixdə belə geniş

---

[1] Mervazinin Eserinin Türklerle İlgili Babının Tercümesi. Osmanlı Tarihleri. C. I. İstanbul, 1949, s. 97

[2] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 229

[3] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, s. 113; Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 194

[4] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 112

coğrafi məkana yayılmış xalqların sayı azdır. Onların vahid etnos kimi inkarında yayıldıqları geniş coğrafiyanın rolu az olmayıb. Bir çox araşdırmalarda etnosun bütövlüyü etiraf olunmadan yaşadıqları coğrafiyaya görə təqdim olunur. Xəzəryanı, Xorasan, İraq, Azərbaycan, Anadolu, Şam, Hələb, Misir və s. belə coğrafi təyinlərdəndir. Ən acınacaqlısı isə odur ki, bu coğrafi təyinlərə bəzən etnik məzmun verilir[1].

Türkmanlar yayıldıqları böyük coğrafiyada onlarla xalqı öz içərisinə alıb superetnosa çevrildilər. Bu ərazilərdə qurulan onlarla dövlət, o cümlədən Böyük Səlcuqlu imperiyası, Xarəzmşahlar imperiyası, Osmanlı imperiyası, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri böyük türkman xalqının siyasi zəkasının məhsuludur.

Orta əsrlərimizin hər guşəsində, hər bucağında, hər səhifəsində türkman zəkası, türkman əli, türkman izi var. Türk dünyasına mənsub zəka sahiblərinin bir çoxu ya birbaşa türkman, ya da irəlidə görəcəyimiz kimi, onların oturaq həyata keçərək türk adı ilə tanınan hissəsinə mənsub şəxsiyyətlər olmuşdur.

---

[1] Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 127

Klassik şairlərimiz öz əsərlərində mənsub olduqları xalqın adını dilə gətirir və onunla fəxr edirdilər. Nəsimi bir şeirində ərəb dilində danışana "türkman" deməyin doğru olmadığını söyləyir:

*Ərəb nitqi dutulmuşdur dilindən*
*Səni kimdir deyən ki türkmansan*[1].

Pir Sultan Abdal türkmanın yaylağa gedə bilməməsindən acı-acı şikayət edir:

*Bu il bu dağların qarı ərimaz,*
*Əsər badi-səba, yel bozuk-bozuk.*
*Türkmən kalkıb yaylasına yürümaz,*
*Yıkılmış aşiret, il bozuk-bozuk*[2].

Koroğlu isə dar vaxtında türkmanları köməyə çağırır:

*Dava günü, dəlilərim, bu gündür,*
*Sinəm üstə bu dağılan düyundur,*
*Koroğlu der: məşhər günü bu gündur,*
*Gönder türkmanlardan xanlarım gəlsin*[3].

Beləliklə, İslam dininin Türküstanda yayılması ilə bağlı olaraq türksoylu etnik qruplar da bu yeni dinə biganə qalmır. Onlardan bir qrupun bu dini qəbul etməsi ilə bağlı olaraq

---

[1] Nəsimi. Bakı, 1973, s. 348
[2] Pir Sultan Abdallar. İstanbul, 1984, s. 116-117
[3] Azərbaycan dastanları. IV c., Bakı, 2005, s. 509

(çox ehtimal ki, VII əsrin sonlarında) yeni bir etnogenez prosesinin əsası qoyulur. Bu prosesin nəticəsi olaraq VIII əsrdə türkman xalqı tarix səhnəsinə çıxır. İslam inancı əsasında yaranan bu xalq oğuzlar əsas olmaqla o dövrdə mövcud olan müxtəlif türk etnik birliklərindən qopan tirə, oba, oymaqlar əsasında yaranmışdı. Tarix səhnəsinə yeni çıxan bu xalq öz təbiəti etibarilə türk tarixində yeni hadisə idi.

Türk etnik birlikləri, adətən, tayfalar ittifaqı (konfederasiya) şəklində təşkil olunurdu və bu tayfalar arasında "böyük-kiçik" prinsipi ilə ierarxik asılılıq olurdu. Türkmanlar müxtəlif tayfaların tirələrindən ibarət olan ellər şəklində təşkil olunurdu. Ancaq bu ellər arasında "böyük-kiçik" prinsipi ilə ierarxik asılılıq yox idi. Böyük-kiçik münasibəti bu xalq içərisində, irəlidə görəcəyimiz kimi, başqa səviyyədə və yalnız mənəvi müstəvidə fəaliyyət göstərirdi.

Türkmanların o dövrdə mövcud olan və ya ondan sonra yaranan başqa türk xalqlarından fərqi onda idi ki, onlar (məsələn, bulqarlar kimi) İslam dinini sadəcə qəbul etməmişdilər, İslam inancı əsasında yaranmışdılar və bu yaranış VII əsrin sonlarından başlanan etnogenez prosesinin nəticəsində baş vermişdi.

## Türkmanlar və türklər

“Etnik varlıq status deyil, prosesdir”[1]. Türkmanlar da başqa etnoslar kimi daim proses halında idi. Bu xalqın daxilində baş verən proseslərin başında onların oturaq həyata keçməsi gəlir. Bu hadisə Türküstandan tutmuş Anadoluya, Balkan yarımadasına qədər türkman dünyasının var olduğu bütün coğrafiyada baş vermişdir. F.Sümer Anadolunu nəzərdə tutaraq yazır: “Türkmənlər bu ölkədə köçəriliyi buraxaraq oturaq həyat tərzinə keçməyə başladılar. Bunlar daha çox kəndlər salaraq və ya çoxlu köhnə kəndlərdə yerləşdilər. Səlcuqlu ordusuna dirlikli sipahi əsgərini verənlər də elə bu oturaqlaşanlar idi”[2]. Oxşar hadisənin Orta Asiyada, Xorasanda, İranda, Azərbaycanda, Ərəbistanda baş verməsi şübhəsizdir. Oturaqlaşma prosesi tədricən baş vermişdir. Səlcuqlu imperiyası dövründə türkmanların Orta Asiyada və Xorasanda oturaq həyata keçməsi bəllidir[3]. Sö-

---

[1] Гумилев Л.Н. Ритмы Евразии. Москва, 1993, s. 136

[2] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 135

[3] Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969, s. 229-231; Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 163

zügedən əsrlərdə (ehtimal ki, ondan da qabaq) başlayan oturaqlaşma prosesi, demək olar ki, günümüzdə də davam etməkdədir. F.Sümer XVI əsr Anadolusunu nəzərdə tutaraq yazır: "Bu yüz ildə köçəri və yarımköçəri ünsürün sayı oturaq ünsürə nəzərən çox azdır və nisbət fərqi oturaq ünsürün xeyrinə getdikcə artmaqdadır"[1]. Sözügedən əsrdə Anadoluda elat əhalinin azalması XIV əsrdən Anadoludan Azərbaycana başlanan türkman axınları ilə bağlı idi[2]. Bu köç XVI əsrdə də davam etmişdir. V.Minorskinin Azərbaycanın XV əsrini "türkman əsri" adlandırması bu gerçəkliyə söykənir[3].

Elat həyatını tərk edib oturaq həyata keçən türkmanlara, F.Sümerin qeyd etdiyi kimi, "...bir müddətdən sonra artıq türkman deyilməyərək türk adı verilirdi[4]. Eyni hadisə Orta Asiyada, Xorasanda, İranda müşahidə olunur[5]. Azərbaycanın şəhər və kəndlərində məskunlaşan türkmanlar haqqında da eyni sözü demək

---

[1] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 173
[2] Yenə orada, s. 156, s. 182
[3] Минорский В.Ф. Предисловие. Фазлуллах ибн Рузбихан Хунджи. Тарих-и алам-ара-йи Амини. Баку, 1987, s. 4
[4] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 135
[5] Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, 1991, s. 163

olar. Oturaq həyata keçən türksoylu əhalinin türk adı alması bu etnonimin tarixində yeni hadisə idi. Məsələnin mahiyyətinə keçməzdən öncə etnonimin tarixinə qısaca nəzər salaq.

A.Kononova görə, topluluq bildirən bu söz V əsrdə tayfa birliyinin etnik adına çevrildi[1]. VI əsrin sonlarına qədər Jujan imperiyasına tabe olan Türk eli 552-ci ildə qiyam qaldıraraq Jujan imperiyasının varlığına son qoydu. Türk və Göytürk adı ilə tarixin yaddaşında qalan bu dövlətin siyasi iqtidarı dövründə (552-745) türk adı bu dövlətin siyasi himayəsi altında olan türksoylu və hətta monqolsoylu etnik birliklərin ümumi adına çevrildi. Göytürk imperiyasının dağılmasından sonra da türk etnonimi eyni anlamda elat sistemini yaşayan türksoylu və monqolsoylu ellərin ümumi adı kimi işlənməkdə idi. L.Qumilyev etnonimin bu anlamı İslam aləmində qazandığını söyləyir[2]. Ənənəvi türk mətnlərində qarşılaşdığımız faktlar bu fikrin əleyhinədir.

"Manas" dastanında türk qohum xalqların (qazaxların, qırğızların, özbəklərin, qıpçaqların,

---

[1] Гумилев Л.Н. Ритмы Евразии. Москва, 1993, s. 347; Гумилев Л.Н. Древние тюрки. Москва, 1993, s. 22

[2] Yenə orada, s. 24

uyğurların və s.) ümumi adı kimi işlənir və sözün bu mənası eyni adlı əcdadın varlığına inamla paralel şəkildə gedir[1]. Bununla yanaşı, "Manas" dastanında qarşımıza çıxan bu hal qədim ənənəyə malikdir. İş ondadır ki, Göytürk dövlətinin yaşadığı dövrdə qeydə alınmış bir mətndə etnosun əsasını qoyan şəxs Türk adlanır. Söhbət 589-618-ci illərdə Çində hakimiyyətdə olmuş Suy sülaləsi illiyində (salnamə) verilən Göytürklərin mənşəyi haqqında etnoqonik mifdən gedir. Burada tayfa birliyinin əsasını qoyan Natuluşeyə Türk adı verilir[2]. Bu ənənəyə uyğun olaraq orta əsrə aid şəcərələrdə bu adla əcdadlar siyahısında tez-tez qarşılaşırıq. Bundan başqa, "Oğuz kağan" dastanında əks olunan Uluğ Türük eponiminin və sarı uyğurlara məxsus şaman ilahilərində səslənən Uluq Türk teoniminin Türk ata haqqında təsəvvürlərlə bağlı olduğunu düşünmək olar[3]. Buradan belə nəticəyə gəlmək olar ki, türk adının superetnik

---

[1] Əsgər Ə. "Manas" dastanında türklük şüuru. "Elm" qəzeti, 27.08.1999

[2] Ögel B. Doğu Göktürkleri Hakkında Vesikalar ve Notlar. Türk Tarih Kurumu. Belleten, 1957, № 81, s.86-88

[3] Малов С.Е. Остатки шаманства у желтых уйгуров. // Живая старина. Вып. 1, 1912, s. 67-72; Щербак А.М. Огуз-Наме, Мухаббат-Наме. Москва, 1959, s. 56

anlamı VI-VII əsrlərdən oturuşmağa başlayan eyniadlı əcdad haqda mətnə söykənirdi. Belə məlum olur ki, Göytürk dövlətinə tabe olan elat xalqların bu mətni qəbul etməsi hesabına türk adı öncə Mərkəzi Asiyanın elat həyat tərzi keçirən, ardınca öz mənasını daraldaraq qohum dildə danışıb elat həyat tərzi keçirən xalqların ümumi adı olmuşdur.

Artıq deyildiyi kimi, elat dünyasının oturaq həyata keçən hissəsinin türk adını qəbul etməsi yeni hadisə idi. Onun mahiyyətini anlamaq üçün iki suala cavab axtarılmalıdır: birinci, elat dünyasından ayrılaraq oturaq həyata keçən əhali hansı səbəbdən mənsub olduğu xalqın adını daşıya bilmirdi? İkinci, hansı səbəbdən onlar superetnik anlam daşıyan ada sığındılar. Bu sualların cavabı bizi qarşıya qoyulan məsələnin aydınlaşmasına doğru aparır.

Türkman etnik sisteminin əsasında tayfalar dayanırdı. Bu tayfaların hər birinin soyu Oğuznaməyə bağlanırdı. Mübarək mətndə (Oğuz haqqında dastanın Oğuznamə variantında) adı çəkilən ataların törəmələri kimi onlar mənsub olduğu soyun bayrağı altında sosial və hərbi-siyasi baxımdan təşkilatlanmışdılar. Təşkilatın bu tipini onlar el adlandırırdılar. Hey-

vandarlıqla məşğul olduqları üçün hər bir el sahib olduğu yurdun yaylağı ilə qışlağı arasında köç edirdi. Etnonimin etnosun həyat tərzinin adını ifadə etməsi etnik düşüncədə bu həyat tərzinin etnosun yeganə mövcudiyyət şəkli olması kimi yozulur. Yazıçıoğlu Əli türkmanlıq sözünü köçərilik sözünün sinonimi kimi işlədir: "Olmasın ki, oturak olasız ki beglik türkmanlık ve yürüklik idenlerde kalur"[1]. Türkmən/türkman etnoniminin ərəbcə cəminin ("tərakimə") türkləşmiş şəkli olan tərəkəmə sözü "elat" anlamı daşıyır. Hər iki halda etnik ad etnosun həyat tərzini ifadə edir. Deməli, oturaq həyata keçən türkman bütövlükdə etnik sistemdən çıxmış olurdu. Bu halda, təbii ki, bu etnik sistemi ifadə edən etnik adı da daşıya bilməzdi. Türkmanların oturaq əhaliyə verdiyi tat və təcik adını qəbul etmək mümkün deyildi. Onlar hər iki adın məna çalarını və semantik sahəsini yaxşı bilirdilər. Bundan başqa, sosial məzmunlu hər iki ad oturaq həyat tərzi keçirən bir çox xalqlara aid olunduğundan[2] onları başqa xalqlardan

---

[1] Yazıcızade Ali. Tevârih-i Âl-i Selçuk. İstanbul, 2009, s. 31

[2] Бартольд В.В. Еще о слове «сарт». Сочинения. Т.II, ч. 2, Москва, 1964, s. 313-314; Гордлевский В.А. Государство Сельджуки-

fərqləndirə bilmirdi. Bu zaman superetnik anlam daşıyan türk adı onların köməyinə çatdı. Oturaq həyata keçən türkmanlar bu adı özlərinin etnik adına çevirib məsələni həll etdilər. Bu ad onları həm üz döndərdikləri türkmanlardan, həm də çinli, əfqan, fars, ərəb, yunan və s. kimi xalqlardan kifayət qədər fərqləndirirdi. Türklərin türkmanlardan qoparaq müstəqil etnosa çevrilməsinin ümumi mənzərəsi belədir. Türk sözü superetnik addan etnik ada çevrilərkən türkman adı ilə bərabərləşir və yeni bir etnosun tarix meydanına çıxdığını müjdələyir. Qaynaqlarda türk və türkman etnoniminin yanaşı işlənməsi göstərir ki, onların etnik diferensiallığı öz zamanında da dərk olunurdu. Bu yeni etnos nə vaxtsa türkman xalqına mənsub olduğunu tezliklə unutdu və bütün müstəvilərdə (sosial, mədəni, siyasi) onlara qarşı dayandı.

Elat əhalinin oturaqlaşaraq türk adı alması Asiyanın müxtəlif bölgələrində oxşar şəkildə baş verib. Karluk, qıpçaq, kanqlı, toxsi, çigil, yağma və s. kimi orta əsrlərdə mövcud olan et-

---

дов Малой Азии. Избранные сочинения. Т. I, Москва, 1960, s. 122-123; Кононов А.Н. Родословная туркмен. Сочинение Абул-Гази хана Хивинского. Москва-Ленинград, 1958, s. 96-97

nik birliklərin adlarının dünyanın etnik xəritəsindən silinməsində oturaqlaşmanın rolu az olmayıb. Orta əsr qaynaqlarında işlənən türki-Səmərqənd, türki-Cığatay, türki-Xütən, türki-Rum, türki-Əcəm izafətləri oturaqlaşan türksoylu əhalini ifadə etməli idi. Türk adının coğrafi təyinlərlə müşayiət olunması türklər arasında etnik diferensiallığı da özündə ehtiva edirdi. Oturaq həyata keçərək mədəni aləmlə sıx təmasda olan bu türklər bəşəriyyətə ölməz əsərlər verdilər. Türk-İslam mədəniyyətini təmsil edən bu böyük şəxsiyyətlər türk adı ilə tanınan oturaq əhali arasından çıxmışdı.

Yeni etnik dünyada etnik sistemin əsasında, türkmanlarda olduğu kimi, tayfalar və ellər deyil, kəndlər və şəhərlər dayanırdı. Burada insanlar bir-birini şəhər və kənd mənsubiyyəti ilə tanıyırdılar. Tayfa və ya əşirət anlayışı da onlara yad deyildi. Ancaq yeni etnik sistem içərisində bu anlayış öz mənasını dəyişmişdi. Türkman dünyasının əksinə olaraq, onun Oğuz soyu ilə bağlılığı heç kimi maraqlandırmırdı. Sözügedən anlayış yaxın qan qohumlarını ifadə edirdi və məhəllə, kənd, şəhər mənsubiyyətindən arxada dayanırdı.

## Türkman dili

Əgər xalq varsa, onun dili də var. Bu baxımdan, Əbu Həyyan sözlüyündə *türkman/türkmən dili* ifadəsinin özünə yer tapması qəribə görünməməlidir[1]. Bununla yanaşı, dil araşdırmalarında sözügedən etnosa məlum tarixi münasibətin təsiri altında *türkman dilinin* üzərindən sükutla keçilir və bu dilə *oğuz dili* adı verilir. Dilçilik ədəbiyyatında türk dillərinin müəyyən qrupuna *oğuz qrupu dilləri* adı verilməsi bu düşüncənin ifadəsidir[2]. Qeyd etmək istərdik ki, oğuz etnoniminin türkman etnoniminin yerini tutması etnik baxımdan nə dərəcədə doğrudursa, dil baxımından da o dərəcədə doğrudur.

Etnosun formalaşmasında oğuz tayfaları əsas rol oynadığına görə *türkman dili* oğuz dilinin əsasında formalaşıb. Ancaq bu etnosun tərkibinə, deyildiyi kimi, oğuzlardan başqa, qıpçaq, karluk, uyğur, xələc və s. kimi türksoylu etnik birliklərdən olan oba və oymaqlar da qa-

---

[1] Əbu Həyyan Əl-Əndəlusi. Kitabi əl-idrak li-lisan əl-ətrak (türk dillərini dərketmə kitabı). Bakı, 1992, s. 61, s. 67 və s.

[2] Zeynalov F. Türkologiyanın əsasları. Bakı, 1981, s. 94; Баскаков Н.А. К вопросу о классификации тюркских языков. // Известия АН СССР. Отделение литературы и языка. Т. XI. Вып. 2. Москва, 1952

tılmışdı. Bu hadisə türkmanların dilinə təsirsiz ötüşmədi. Nəticədə yeni etnosun dili etnik tərkibinə uyğun şəkildə qıpçaq, karluk və s. Dillərin təsirinə məruz qalmış oğuz dili əsasında formalaşdı. Qarşıya çıxan bəzi faktlara nəzər salaq. "Divanü lüğat-it-türk"də təsvir olunan oğuz və qıpçaq dili arasında müştərək elementlər bir etnosun tərkibində olan iki etnik qrupa məxsus dialektlərin çarpazlaşması ilə bağlı deyilmi? Gəlin unutmayaq, "Divan" oğuz birliyinin dağılmasından 100 il, türkmanların bir etnos olaraq tarix səhnəsinə çıxmasından 200-250 il, oğuzların bu etnosun tərkibinə qatılmasından ən azı 150 il sonra yazılmışdı. Deməli, iki dialektin çarpazlaşması üçün kifayət qədər vaxt olmuşdur. M.Kaşğarlı da öz əsərində məhz bu vəziyyəti təsvir edir. Ancaq keyfiyyətcə yeni dilin ortaya çıxışını anlaya bilmir. Başqa bir fakta nəzər salaq. Anadolu və Azərbaycan ədəbi dilinin oğuz dili əsasında formalaşdığını söyləyən araşdırıcılar qıpçaq, karluk və s. dillərin qərb dialektlərinə nisbətən şərq dialektlərinə və Azərbaycan ədəbi dilinə güclü təsir etdiyini etiraf edirlər[1]. Eyni fikir müasir türkmən dilinin

---

[1] Гузеев В.Г. Краткий обзор исследований по языку тюрков Малой Азии.//Тюркологический сборник, 1972. Москва, 1973, s. 84

dialektlərinə də aiddir[1]. Bu halda görmək çətin deyil ki, deyilən xüsusiyyətlərə malik dil materialına *oğuz dili* adı vermək doğru deyil. Elə isə bu dilin *türkman dili* olduğunu çəkinmədən söyləmək olar.

Ən nəhayət, yuxarıda deyilənlərə əsaslanıb müasir türk dillərinin təsnifi zamanı aparılan "oğuz qrupu" bölgüsünün tərkibində başqa dil ünsürləri də olan bu dili *oğuz dili* adlandırmaq onun həqiqi simasına kölgə salır. Yəni bu dilin tərkibində olan qıpçaq, karluk və s. dil ünsürləri dil qrupuna verilən ada sığmır. Ancaq tərkibində qıpçaq, karluk və s. dil ünsürləri də olan dilə "oğuz qrupu" deyil, "türkman qrupu" adı versək, onda etnosun tərkibi ilə dilin xüsusiyyətləri biri-birini tamamlayar.

*Türkman ədəbiyyatı.* Türkmanlar İslam dinini qəbul edənə qədər ənənəvi düşüncə ilə yaşayırdılar və onların (ümumiyyətlə bütün türklərin) arasından fərdi yaradıcılıqla məşğul olan şəxslər (şairlər, mütəfəkkirlər və s.) çıxmamışdı. İslam dinini qəbul edəndən sonra da bu şəkildə davam etdi. Onlar bədii ehtiyaclarını yaratdıqları çoxsaylı oğuznamələrlə (əcdadları olan oğuz alplarının qəza yürüşləri və qəhrəmanlıq-

---

[1] Zeynalov F. Türkologiyanın əsasları. Bakı, 1981, s. 138

ları haqqında dastanlar), İslam mücahidlərinin qəzaları haqqında rəvayətlərlə və müxtəlif janrlı folklor örnəkləri ilə ödəyirdilər. İslam dinini qəbul etmələrinə baxmayaraq, bu dinin qəbulundan öncə mövcud olan inancları da yaşatmaqda davam edirdilər. Onlar yaşadıqları bölgələrdə yazı-pozu dünyasına biganə halda yaylaqla qışlaq arasında köç edir və alışdıqları ənənəvi həyata uyğun şəkildə yaşayırdılar. Ancaq, deyildiyi kimi, onlardan müəyyən qruplar elat dünyasından aralanaraq şəhər və kəndlərdə məskunlaşırdılar. Bu məskunlaşmış hissə artıq başqa həyat şərtləri altında yaşayırdılar. Oturaq həyata keçib *türk* adı ilə tanınan keçmiş türkmənlərin də əksəriyyəti yazı-pozudan uzaq idi. Ancaq onların qəbul etdikləri dini mənimsəmək və bir çox sosial tələbatlarını ödəmək üçün savadlı adamlara ehtiyacı var idi (qeyd edək ki, elat dünyası da eyni səbəbdən belə savadlı adamlara möhtac idilər). Bununla yanaşı, onlar hər tərəfdən yazı dünyasının mənsubları ilə əhatə olunmuşdular və təhsil bu mühitdə nüfuz, imtiyaz anlamına gəlirdi. Bu səbəbdən adamlar öz övladlarının o dövrki maarif ocaqlarında təhsil almasına şərait yaradırdılar.

Məlum olduğu kimi, sözügedən dövrlərdə təhsil ərəb və fars dillərində aparılırdı. Ərəb dili "Qurani-Kərim"in dili idi və IX əsrə qədər elm, sənət, maarif dili kimi fəaliyyət göstərmişdir. IX əsrdə bir-birinin ardınca ortaya çıxan fars dövlətləri (tahirilər, səfərilər, samanilər, büveyhilər) vəziyyəti dəyişdirdi. Onlar Sasani ənənələrini dirçəltməklə fars dili və ədəbiyyatının çiçəklənməsinə diqqət yetirdilər. Bir çox əsərlər ərəb dilindən fars dilinə tərcümə olundu, ərəb ədəbiyyatından mənimsənilmiş forma, vəzn və poetik ifadə üsullarının əsasında farsca ədəbiyyat yaranmağa başladı. Fars dövlətlərinin yerinə gələn Qəznəli türk dövlətinin zamanında da bu ənənə davam etdirildi, qəznəlilərdən isə səlcuqlular aldılar. Nəticədə türklər bir çox əsrlər boyu bu dillərdən aslı vəziyyətə düşdülər. Bu səbəbdən o dövrün təhsil ocaqlarında oxuyan türklər ərəb və fars dillərinin təsiri altında qalaraq bu dillərdə yazırdılar. İlk vaxtlar bütün türk-islam coğrafiyasının halı belə idi. Ancaq zaman keçdikcə təhsilli türklərin ehtiyaclarını nəzərə alaraq və türk təəssübkeşliyi səbəbi ilə türkcə əsərlər də peyda olmağa başladı. Belə əsərlər ünvanlandığı auditoriyaya görə fərqlənirdi. Onları iki qismə ayırmaq olar: xalqa ün-

vanlanan xalq təsəvvüf şeiri və oxumuş təbəqəyə ünvanlanan divan şeiri, eləcə də məsnəvi.

Xalq təsəvvüf şeirinin əsası XII əsrin II yarısında Xoca Əhməd Yasəvi tərəfindən qoyulmuşdur. Sadə türkcədə heca vəznində yazılmuş bu şeirlər bütün orta əsrlər boyu bir çox şairlər tərəfindən davam etdirilmişdir. Divan ədəbiyyatı nümunələri isə XIII əsrdən başlayaraq yaranmağa başlayır. Yunus İmrə, Abdal Musa, Qul Nəsimi, Pir Sultan Abdal ilahi və nəfəsləri, eləcə də Şah Xətai şeirlərinin bir hissəsi və s. xalq təsəvvüf şeiri nümunələridir.

Divan ədəbiyyatı nümunələri isə XIII əsrdən yaranmağa başlayır.

Həsənoğlu (XIII), Şəms Təbrizi (XIII), Şəyyat Həmzə (XIII), Xoca Dehqani (XIII-XIV), Xoca Əhməd Fəqih (XIII), Aşıq Paşa (XIII), Nəsimi (XIV), Qazi Bürhanəddin (XIV), Əhmədi (XIV-XV) və s. kimi şairlərdən Həsənoğlu Xorasanda, Şəyyat Həmzə, Xoca Əhməd Fəqih, Aşıq Paşa, Qazi Bürhanəddin, Əhmədi Anadoluda, Şəms Təbrizi, Xoca Əhməd Fəqih Azərbaycan və Anadoluda, Nəsimi Azərbaycanda, Şamda ədəbi fəaliyyətlə məşğul olmuşlar. Onlardan bəziləri Xorasandan (Xoca Dehqani, Aşık Paşa) gəlib Anadoluda yerləşmişdilər.

Diqqət yetirdikdə aydın olur ki, bu xalqların filoloji düşüncəsi həmin ədəbi irsi, əsasən, son yüzilliklərdə bəlli coğrafiyalarda formalaşmış öz etnosiyasi təşəkküllərin prizmasından dəyərləndirir.

Türkiyə filologiyasında bu düşüncə tərzi, əsasən, ədəbiyyatın "Səlcuqlu", "Osmanlı", "Türkiyə", "Anadolu", "türk" terminləri ilə adlandırılmasında öz əksini tapır. Bu terminlər, demək olar ki, oxşar anlamlarda işlənir. Ancaq onların məna fərqləri də vardır."Səlcuqlu ədəbiyyatı" termini Anadolu səlcuqlularının dövründə olan ədəbiyyatı ifadə edir. "Osmanlı ədəbiyyatı" termini, əsasən, Osmanlı dövləti dövründə saraya yaxın olan və "osmanlı dilində" yazılan ədəbiyyatı əhatə edir. Bununla yanaşı, termin qismən də Osmanlı dövlətinin siyasi sərhədləri daxilində mövcud olan ədəbiyyatı da öz içərisinə alır. Anadolu ədəbiyyatı termini isə əsasən, Anadoluda mövcud olan bütün üslublarda yazılmış ədəbi örnəklərə aid edilir. Buraya səlcuqlu, bəyliklər, osmanlı dövrünə aid ərəb, fars, türk dillərində və müxtəlif üslublarda (saray, təkkə, xalq şeiri) yazılmış ədəbiyyat daxildir. "Türk ədəbiyyatı" termini isə "ümumtürk ədəbiyyatı" anlamı ilə yanaşı, Anadoluda

mövcud olan müxtəlif üslublarda və dillərdə yazılmış ədəbiyyatı da ifadə edir.

Göründüyü kimi, terminlər siyasi, coğrafi, etnik məzmun daşısalar da, müasir etnocoğrafi və hətta etnosiyasi təsəvvürdən doğur. Məsələn, "səlcuqlu ədəbiyyatı" termini Böyük Səlcuqlu imperiyasının siyasi sərhədləri daxilində olan ədəbiyyatı yox, yalnız Anadolu səlcuqlularının siyasi sərhədləri daxilində olan ədəbiyyatı əhatə edir. "Bəyliklər dövrü ədəbiyyatı" yenə də Anadolu bəylikləri dövrünə aid olunur. "Osmanlı ədəbiyyatı" termini, əsas etibarı ilə, "osmanlı dilində" yazılmış ədəbiyyatı ifadə edir. Bəllidir ki, Osmanlı dövlətinin siyasi sərhədləri daxilində olan ədəbiyyatın hamısı heç də "osmanlı dilində" yazılmamışdır. Ona görə də qalan ədəbi məhsullar xalq şeiri, təkkə şeiri və hətta "azəri tərzi" ("üslubu", "ləhcəsi") terminləri ilə ifadə olunur. Bu, o deməkdir ki, Osmanlı dövlətinin siyasi sərhədləri daxilində yaranan ədəbiyyatın böyük bir hissəsi osmanlı qəliblərinə sığmır. İş bu yerə çatanda Türkiyə filologiyası "Anadolu ədəbiyyatı" terminınə sığınır. Türkiyə filologiyası "azəri sahəsi", "tərzi", "ləhcəsi"ndə olan ədəbiyyata da sırf müasir etnocoğrafiya baxımından yanaşır. Əgər "azəri tərz"ində

yazan şairlər Anadoluda yaşamışlarsa, deməli, onları da "türk ədəbiyyatı tarixi"nə salmaq lazımdır. Ancaq burada ehtiyatlı olmaq gərəkdir. Çünki Anadoluda mövcud olan başqa "tərz"lərdən fərqli olaraq "azəri tərzi"nin etnocoğrafı və hətta etnosiyasi sahibləri var. Bu vəziyyəti nəzərə alan Türkiyə filologiyası vəziyyətdən incə bir şəkildə çıxmaq istəyir. A.Kabaklı yazır: "... oğuz türkləri, ancaq Ərzurum, Sivas, Konya kimi şəhərlərdə qurulan saray, qonaq, mədrəsə və təkkələr ətrafında toplandıqdan sonra bu ləhcə ilə (oğuz ləhcəsi) bir çox əsərlər yazılmağa başlandı. Anadolu, Azərbaycan və Rumeli türklərinin XIII yüzildən sonra meydana gətirdikləri bütün əsərlər, kiçik ağız fərqləri olmaqla bərabər, hamısı bu ləhcədədir. Bu baxımdan biz ayrı bir "azəri ədəbiyyatından" söz açmağı da gərəkli bilmirik. Çünki Anadolu ədəbiyyatından qəti, hətta bəlli sərhədlərlə ayrıla biləcək bir azəri ədəbiyyatı yoxdur deyə bilərik... Qeysəriyyəli bir ailədən olub Sivasda sultanlıq etmiş olan Qazi Bürhanəddini azəri şairi saymağın mənası yoxdur. XVI yüzilin böyük şairləri: Bağdadlı Füzuli, Bağdadlı Ruhi və İstanbullu Baqi eyni dili işlətdikləri

halda bunlardan birini azəri, digərini Anadolu şairi saymaq gərəksiz bir ayırıcılıq olar"[1].

Bu fikirdə zahirən hər şey öz yerindədir. Ancaq müəllifin yazdığı ədəbiyyat tarixini oxuyanda görürsən ki, bu fikirlər Türkiyənin etnocoğrafı (buradan da siyasi) sərhədləri daxilində olan "azəri ədəbiyyatı" örnəklərini "ədəbiyyat tarixi"nə salmaq üçün ona lazım imiş. Əks təqdirdə Türkiyənin (eləcə də Osmanlı dövlətinin) siyasi sərhədlərindən kənarda olan "azəri ədəbiyyatı" da bu ədəbiyyat tarixinə salınmış olardı. Beləliklə, deyilən fikir donuq vəziyyətdə qalır və ədəbiyyat tarixinin sisteminə çevrilə bilmir. Türkiyə filologiyasında buna bənzər fikirlərlə tez-tez qarşılaşmaq olar.

Diqqətlə yanaşdıqda Türkiyə filologiyasında "azəri sahəsi", "azəri ləhcəsi"nin meydana çıxması, əslində məsələyə "osmanlı sahəsi", "osmanlı dili" bucağından baxışdan doğur. XV əsrin II yarısında meydana çıxmış "osmanlı dili"nin XIII-XV əsrlərdə yazılmış ədəbi əsərlərin dili üçün bir kriteriya olması, görəsən, nə dərəcədə elmidir?

[1] Kabaklı A. Türk edebiyatı. Türk Edebiyatı Vakfı Yayınları, II c., VI baskı, 1985, s. 119.

Türkiyə filologiyası Anadoluda Azərbaycan türkcəsi faktoru ilə qarşılaşarkən problemin həllini verə bilmədiyindən ondan bir təhər yaxa qurtarmağa çalışır. Bu üzdən "səlcuq-osmanlı ləhcəsinin əski və ibtidai şəkli ilə azəri türkcəsi arasında haman heç bir fərq yoxdur"[1], "azəri türkcəsinə yaxın bir dillə əsər verən" və ya "XIV əsrdə hələ osmanlı və azəri türkcələri arasındakı fərq tam və qəti üzə çıxmadığı"[2], "kiçik ağız fərqləri olmaqla bərabər hamısı bir ləhcədədir"[3] və s. kimi ifadələrdən yararlanırlar. Bəzən isə şairlərin Azərbaycan türkcəsində yazmasının üstündən sükutla keçirlər. Heç bir fakt olmadan şairlərin doğum yerini qərbə, yaxud da şərqə çəkmək meylləri də eyni yanaşmadan doğur. Əslində, bu vəziyyətin tək bir səbəbi ədəbiyyat tarixinə baxışda götürülən prinsipdir.

Bu prinsipə əsaslanan Azərbaycan filologiyasının günü Türkiyə filologiyasından daha pis vəziyyətdədir. Güneyli-qüzeyli Azərbaycan ərazisində müxtəlif dilli (ərəb, fars, türk) ədəbiyyata tam sahib çıxan Azərbaycan filoloji fikri

---

[1] Köprülüzadə M.F. Azəri ədəbiyyatına aid tədqiqlər, Bakı, 1996, s. 11

[2] Timurtaş F.K. Türkiye edebiyatı. - Türk dünyası el kitabı, III c., s.114

[3] Kabaklı A. Türk edebiyatı. İstanbul, II c., VI baskı, 1985, s. 110.

Anadoluya, İraqa və Xorasana “dil vasitəsi ilə” çıxır. Bir halda ki, Türkiyə filologiyası Türkiyənin sərhədlərindən kənarda ədəbiyyat tanımır və ya Türkmənistan filologiyasının Türkmənistanın sərhədlərindən qıraqda qalan etnik ədəbiyyatına sahib durmağa heç bir ixtiyarı yoxdur, onda yerdə qalan ədəbiyyatın tək bir sahibi Azərbaycan olur. Bu yerdə Azərbaycan filoloji fikrinin qol-qanadı açılır. Ona görə də Osmanlı sarayı ilə bağlı olmayan və ya osmanlı dilində yazmayan Anadolu şairlərinin bir çoxu Azərbaycan ədəbiyyatının malına çevrilir[1].

Anadoluda “osmanlıcadan fərqli bir dil”də yaranan ədəbiyyatın dili "Azəri dili" adlandırılır və “Anadolu dili”nin varlığı heçə endirilir. Bu kifayət deyilmiş kimi türkmənlərin ana dili azərbaycanlıların onlara “ixrac” etdiyi dil kimi təqdim olunur. “Bu dil uzun müddət türkmənlər arasında da ədəbi dil kimi işlənmişdir”[2]. Əslində bu fikir bir tərəfdən XIII-XV əsrlərdə “Azərbaycan ədəbi dilində yazılmış bəzi

---

[1] Onu da deyək ki, Azərbaycan filologiyası bu imkandan heç də yetərincə istifadə etməmişdir. Əks təqdirdə nəinki Yunis İmrəni, heç olmasa, başda Pir Sultan Abdal olmaqla səfəvi təriqətinin müridləri olan şairləri "Azərbaycan ədəbiyyatı tarixi"nə salmış olardı.

[2] Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi, I hissə, Bakı, 1979, s. 99

əsərləri türkmən ədəbi dilinin ilk nümunələri kimi qiymətləndirənlər"ə[1] cavab olaraq, başqa tərəfdən Xorasanlı Həsənoğlunu Azərbaycan ədəbi dilinin obyektinə çevirmək üçün deyilmişdir. Azərbaycan filologiyası üçün səciyyəvi olan aşağıdakı cümləyə diqqət yetirək: "XIII-XIV əsrlər Anadolu ədəbi dili ilə Azərbaycan ədəbi dilinin eyniyyət təşkil etdiyini, onlar arasında elə bir fərq olmadığını nəzərə alsaq və qəbul etsək, Sulu Fəqihin Azərbaycan şairi olmasına heç bir şübhə yeri qalmaz"[2]. Bu cümlədəki "Azərbaycan" toponimini "Anadolu" toponimi ilə asanlıqla əvəz etmək mümkündür. Anadolu ədəbi dili ilə Azərbaycan ədəbi dili arasında "elə bir fərq" yoxdursa, görəsən, Sulu Fəqih nəyə görə Anadolu deyil, Azərbaycan şairi olsun. Xorasanlı Həsənoğlunun "türkmən şairi" deyil, "Azərbaycan şairi" olması nə ilə izah olunur? XIII əsrdə "türkmən dili" ilə "Azərbaycan dili", eləcə də "Anadolu dili"nin diferensiallaşması barədə elm aləminə heç bir fakt bəlli olmadığı

---

[1] T.Beselkovun "Türkmən ədəbiyyatı haqqında oçerklər" (Aşxabad, 1945) əsərində ifadə etdiyi fikir nəzərdə tutulur.
[2] Qəhrəmanov C., Xəlilov Ş., Zərir M. Yusif və Züleyxa (poemanın mətni və tarixi-qrammatik oçerk). Bakı, 1997, s.161.

halda, Həsənoğlunun bu xalqlardan hansına məxsus olduğunu necə iddia etmək olar?

İnsafla desək, müasir etnocoğrafi prinsipdən ən çox zərər çəkən xalq türkmənlər olmuşlar. "Ata malından" bu xalqa demək olar ki, heç nə düşməmiş, hər şey Azərbaycanla Anadolu arasında bölüşdürülmüşdür. Nəticədə türkmənlər ədəbiyyat tarixlərini XVII əsrdən başlamağa məcbur olmuşlar. Səbəb orta əsr şairlərinin Türkmənistan Respublikasının etnocoğrafi sərhədlərindən kənarda yazıb yaratmasıdır.

Bu kontekstdə "əski Azərbaycan dili", "əski osmanlı ədəbi dili" terminlərinin işlənmə səbəbi aydınlaşır. Hər iki ifadə ədəbiyyatımıza olduğu kimi, ədəbi dilimizə də müasir etnocoğrafi baxımdan yanaşmadan irəli gəlir. Məsələ bundadır ki, hər iki termin bu günə qədər etnik sahibini tapa bilmədiyimiz eyni ədəbi örnəkləri ifadə edir. Eyni söz rus türkoloji düşüncəsinin məhsulu olan "qədim özbək dili" termininə də aiddir. Söhbət oğuz-qıpçaq, eləcə də qıpçaq-oğuz dilli abidələrdən gedir. Sözügedən abidələrə Xorezminin "Muhabbatname" (XIV), Seyf Sarayının "Gülistan" (XIVəsr), Qutbinin "Xosray və Şirin" (XIVəsr), Pəbquzinin "Qisas əl-Ənbiya"(XIII-XIV) və s. kimi əsərlər daxildir. " Mu-

habbatname" və "Gülistan"nın dilinin E.N.Nacip qıpcaq-oğuz şivəsində olduğunu iddia edir[1]. Bu fikir abidədə qıpçaq dil ünsürlərinin oğuz dil ünsürlərindən üstün olmasına əsaslanır. Buradaca qeyd edək ki, A.M.Şerbaka görə, "Muhabbatnamə"də oğuz dil unsürləri üstünlük təşkil edir[2]. Qütbinin "Xosray və Şirin"i isə əsərdə oğuz dil ünsürlərinin qıpçaq dil ünsürlərinə nisbətən üstünlük təşkil etdiyinə əsaslanaraq oğuz-qıpçaq dilli abidə adlandırır[3]. Müəllifə görə, qıpçaq-oğuz abidələri uyğur yazı dilinin təsirindən azaddır. Oğuz-qıpçaq dilli abidələr isə uyğur ədəbi dilinin güclü təsirinə uğramış vəziyyətdədir[4]. Müəllif abidələrin dil xüsusiyyətlərindən çıxış edib onların müasir türk xalqlarından hansına aid olduğunu müəyyən etmənin mümkünlüynünə toxunsa da, bu barədə susur[5]. Ancaq müasir türk xalqlarının hansına aid olduğunu müəyyən etməzdən öncə, bu abidə-

---

[1] Наджип Э.Н. Историко-сравнительный словарь тюркских языков XIV века. На материале «Хосров и Ширин» Кутба. Кн. I, Москва, 1975, s. 149-150

[2] Щербак А.М. Огуз-Наме, Мухаббат-Наме. Москва, 1959, s. 170

[3] Наджип Э.Н. Историко-сравнительный словарь тюркских языков XIV века. На материале «Хосров и Ширин» Кутба. Кн. I, Москва, 1975, s. 149-150

[4] Yenə orada, s. 74, s. 149-150

[5]Yenə orada, s. 150

lərin yazıldığı dövrdə hansı xalqa aid olduğunu müəyyən etmək lazımdır. Artıq deyildiyi kimi, türkmanların tərkibinə öğuz, qıpçaq, uyğur, karluk və s. kimi etnik birliklərdən çoxsaylı kütlələr qatılmışdı və bu etnik qurupların dil-şivə xüsusiyyətlərinin türkman dilində üzə çıxması qəribə deyil. Sözügedən abidələrdə özünü göstərən nisbətindən asılı olmayaraq oğuz, qıpçaq, uyğur və s. dil ünsürlərinin varlığı başqa bir şey yox, türkman dilinin təbiətindən doğur. Bu baxımdan, A.N.Samoyloviçin" türkmənləşmiş uyğur"(dili) ifadəsi[1] məsələnin mahiyyətini anlamağa imkan verir. Bu sözü türkmanlaşmış qıpçaq dili şəklində də işlətmək olar. Söhbət oğuz dilinin dominant olduğu türkman etnik mühitində qıpçaq və uyğur dilinin oğuz dilinin təbiətinə uyğunlaşmasından gedir. Belə bir uyğunlaşma bu mühitdə yaşayan oğuz dilinə də aiddir. Nəticədə, tarix meydanına çıxan yeni bir etnosla birgə yeni dil – türkman dili ortaya çıxır. Saraydan Xarəzmə, Mavərannəhrə, Xorasana, Azərbaycana, Anadoluya, İraqa, Şama, Misirə qədər yayılmış bu dildə vücuda gələn əsərlər türkman dilinin məhsuludur. Haqqında danışdığımız ədəbi məhsullara Xarəzm, Saray, Xorasan,

[1] Щербак А.М. Огуз-Наме, Мухаббат-Наме. Москва, 1959, s. 170

Azərbaycan, İraq, Şam, Anadolu, Misir kimi coğrafi və ya Səlcuqlu, Qızıl Orda, Özbək və s. kimi siyasi deyil, etnik müstəvidə yanaşsaq, bu ədəbiyyat Mavərənnəhrdən Xarəzmdən Misirə qədər yayılmış böyük türkmanlara aiddir.

Bu ədəbiyyatın müasir türk xalqlarından hansına aid olması məsələsinə gəldikdə isə, deməliyik ki, əslində türkologiyada bu məsələ, əsasən, doğru əks olunur. Söhbət "köhnə Azərbaycan", "köhnə osmanlı", "köhnə özbək dili" ifadələrindən gedir. Dilçilər bu məsələdə ədəbiyyatçılardan daha elmi mövqe tutur. Sadəcə olaraq bu ifadələri ədəbi müstəviyə keçirmək lazımdır. Haqqında danışdığımız ədəbiyyat müasir özbəklərin, türkmənlərin, Azərbaycan türklərinin və Anadolu turklərinin əcdadları olan böyük türkmanlara aiddir. Yəni onların etnik ədəbiyyatlarının türkman dövrünün məhsullarıdır. Bu ədəbiyyat bir tərəfdən qaraxanilər dövrü ədəbiyyatının təsiri altında formalaşmış və öz növbəsində, cığatay ədəbiyyatının təşəkkülündə mühüm rol oynamışdır[1]. Məlum olduğu kimi, sonrakı dövrlərdə cığatay ədəbiyyatı da bu ədəbiyyata təsir etmişdir.

[1] Щербак А.М. Огуз-Наме, Мухаббат-Наме. Москва, 1959, s. 170

Qeyd edək ki, diferesiallaşan təkcə cığatay ədəbiyyatı deyil, XVI əsrdən başlayan etnik və dini-siyasi proseslərin nəticəsində Azərbaycan türklərinin ədəbiyyatı da Anadolu türklərinin ədəbiyyatından fərqlənməyə başlayır. Bu dövrdən başlayaraq ədəbiyyatda baş verən prosesləri öyrənmək ədəbiyyatşünaslığın qarşısında dayanan vəzifələrdəndir. Biz burada orta əsrlər ədəbiyyatımızın etnik ünvanını göstərdik. Bu ünvan hamımızın əcdadı olan Böyük türkman xalqıdır.

Ən nəhayət, bu məsələlərə elmi baxış bizi türk xalqlarını ayırmaq və onları qarşı-qarşıya qoymaq məqsədi güdən rus imperiya düşüncəsinin iflasına və qardaş xalqlar arasında mənəvi birliyin yaranmasına doğru aparır. Müasir dövrdə bu məsələnin nə qədər aktual olması artıq hər kəsə bəllidir.

## III FƏSİL.

## ETNOSUN SONU VƏ YENİ ETNOSİYASİ BİRLİKLƏR

B.F.Minorski Qaraqoyunlu və Ağqoyunlu hakimiyyətini nəzərdə tutaraq Azərbaycanın XV əsrini "türkman əsri" adlandırır[1]. Ancaq XVI əsr başlayan kimi "türkman əsri" qızılbaş türkmanların tarix səhnəsinə çıxması ilə sona yetdi.

XV əsrin sonlarına doğru haqqında danışdığımız etnosun tarix meydanına çıxmasından 800 il keçirdi. Bu o deməkdir ki, türkman dediyimiz etnos öz ömrünün qocalıq çağına qədəm qoymuşdu. Onların sürətlə oturaq həyata keçməsində elə bu qocalmanın da müəyyən payı olmuşdur. Türkmanların oturaq həyata keçərək türkləşməsi onların sıralarını kifayət qədər seyrəltmişdi. Ancaq onlar əsas zərbəni kənardan deyil, içəridən aldılar. XVI əsrin lap başında baş

---

[1] Буниятов З.М. Эфендиев О.А. От редакторов // Фазлуллах ибн Рузбихан Хунжи. Тарих-и Алам-Ара-йи Амини, Баку, 1987, s. 4

verən bu hadisənin əsası ondan 300 il öncə qoyulmuşdu. Söhbət *yəsəviyyə* təriqətindən gedir.

## Yəsəviyyə və qızılbaşların tarix səhnəsinə çıxışı

Artıq deyildiyi kimi, türklər VIII əsrdən başlayaraq İslam dinini qəbul etməyə başlamışdılar. Qaraxanlı hökmdarı Satuk Buğra xanın 950-ci ildə İslamı qəbul etməsi bu prosesi daha da sürətləndirmişdi. Unutmamışıqsa, çoxsaylı oğuz kütlələrinin İslamı qəbul edərək "türkman olması" da, əsas etibarilə, bu əsrdə baş vermişdi. Qeyd edək ki, səlcuqluların hakimiyyətə gəlişi ilə islamlaşma daha da sürətlənmiş, özünün ən yüksək zirvəsinə çatmışdı. Bununla yanaşı, İslam dininin qəbulu özü ilə bərabər o dövrki türk cəmiyyətinə müəyyən problemlər də gətirmişdi. Onlardan biri və birincisi İslam maarifi idi. Qeyd edək ki, oturaq həyat tərzi keçirib mədəni aləmlə yaxından təmasda olan türklərdən fərqli olaraq, vətənin şərqindən qərbinə, cənubundan şimalına köç edib minilliklərin ənənəsi ilə yaşayan və yazı-pozudan uzaq olan elat kütlələri arasında İslam maarifinə böyük ehtiyac yaranmışdı. Yəsəviyyə adı ilə tanınan təsəvvüf

ocağı da elə elat dünyasının İslam maarifinə olan ehtiyacından yaranmışdı. Onun yaradıcısı Türküstanın Yəsi şəhərindən çıxmış Xacə Əhməd Yəsəvi idi. Bu başdan onu söyləyək ki, müsəlman türklərin boynunda Əhməd Yəsəvi qədər haqqı olan ikinci bir şəxs tapmaq çətindir.

Xacə Əhməd Yəsəvi öncə Aslan Baba adlı bir təsəvvüf pirinin, ardınca Şeyx Yusif Həmədaninin müridi olmuşdur. Burada "irşad postu"na qədər yüksələn Əhməd Yəsəvi mürşidinin işarəsi ilə postu tərk edərək Yəsi şəhərinə dönmüş və burada məlum təriqətin əsasını qoymuşdur[1]. Atalara tapınmadan (ata kultundan) və şamançılıqdan gəlmə ünsürlər Əhməd Yəsəvi təriqətini başqa İslam təriqətlərindən fərqləndirirdi[2]. Milli ənənədən gəlmə ünsürlərin İslama qatılması Yəsəvi yolunun türklər arasında

[1] Erarslan K. Giriş // Ahmad-i Yesevi. Divan-i Hikmetten Seçmeler. Ankara, 1983, s. 6-12

[2] Басилов В.Н. О происхождении туркмен-ата. Домусульманские верования и обряды в Средней Азии. Москва, 1975, s. 138-168; Гордлевский В.А. Ходжа Ахмед Ясеви. Избранные сочинения. Т. III, Москва, 1962, s. 361-368; Демидов С.М. Суфизм в Туркмении. Ашхабад, 1978, s. 39-42; Сухарева О.А. О некоторых элементах суфизма генетически связанных шаманизмам. Материалы второго совешания археологов и этнографов Средней Азии. Москва-Ленинград, 1969, s. 128-193

yayılmasına və ocağın sürətlə böyüməsinə şərait yaratmışdır. Mənaqibə görə, onun "99 min müridi 12 min kamil əhli-süffəsi" olmuşdur[1]. Onlar el-el, oba-oba gəzərək mürşiddən öyrəndikləri İslamı elat dünyasına yaymışdılar. Əhməd Yəsəvi sadə türkcə ilə heca vəznli "hikmət" adı alan şeirlərini də bu məqsədlə yazmışdı. Şəriətin əsasları və təriqətin ərkanından bəhs edən bu hikmətlərlə Əhməd Yəsəvi türk təsəvvüf şeirinin əsasını qoymuşdur[2]. Şəmsəddin adlı şair bir qəzəlində onu "şəriətin nizamı, təriqətin imanı, həqiqətin təmamı" şəklində vəsf edərək fəaliyyətinin mahiyyətini ifadə etmişdir[3]. Xalq arasında işlənən "Mədinədə Məhəmməd, Türküstanda Xoca Əhməd" deyimi[4] onun gördüyü işin bir hissəsini ifadə edirdi. Həqiqət isə ondan ibarətdir ki, onun yetirdiyi müridlər türk-İslam dünyasının hər tərəfinə yayılmışdır. Nəticədə Yəsəvi dərvişlərinin xalq arasında nüfuzu o həddə çatmışdı ki, siyasi ha-

---

[1] Erarslan K. Giriş // Ahmad-i Yesevi. Divan-i Hikmetten Seçmeler. Ankara, 1983, s. 18

[2] Yenə orada, s. 21-37

[3] Caferoğlı A. Karahanlılar Devri Türk Edebiyyatı. Türk Dünyası El Kitabı. C. III. Edebiyat. Ankara, 1992, s. 63

[4] Atabardıyev X. Medinede Muxammed Türküstanda Xoca Axmed. Xoca Ahmed Yasavi. Hikmetler. Moskva, 1992, s. 4

kimiyyət sevdasına düşmüş nəcabət sahibləri və ya dövrün hökmdarları onların köməyi olmadan keçinə bilmirdilər. Ancaq Yəsəvi ocağının əhəmiyyəti deyilənlərlə tamamlanmır.

Məlum olduğu kimi, Yəsəvi ocağına mənsub olan dərvişlər türk-İslam dünyasının hər tərəfinə yayılaraq getdikləri bölgələrdə Yəsəviyyə ənənələri əsasında yeni ocaqlar qururdular. Başlarına çoxlu tərəfdarlar yığan belə ocaqlar siyasi həyatda mühüm rol oynayırdılar. Yəsəviyyə ənənələri əsasında qurulan ocaqlardan biri də Ərdəbilli Şeyx Səfiəddinin yaratdığı Səfəviyyə ocağı idi[1]. Öncə Qadiriyyə təriqətinin müridi olmuş Şeyx Səfi sonralar ata yurdu Ərdəbilə çəkilərək özünün təkkəsini yaratmış, ətrafına müridlər toplamışdır. Qaynaqlarda "piri-türk" ünvanı ilə yad olunan Şeyx Səfi soy etibarilə tər-təmiz türk idi və onun Əli övladı ilə heç bir bağlılığı yox idi[2]. Buna baxmayaraq, onun oğlu

---

[1] Меликов И. О Среднеазиатском происхождении суфизма Анатолии. // Советская тюркология, 1988, № 5, s. 22-28

[2] Nur R. Türk Tarihi. C.V. İstanbul, 1925, s. 114; Pelliot P. Uygur Yazısıyla Yazılmış Uğuz Han Destanı Üzerine. Ankara, 1955, s. 747-748; Рипка Я. История персидской и таджикской литературы. Москва, 1970, s. 275; İbn Bəzzaz Ərdəbil. Səfvətüs-səfa dər tərcümeyi-əhval və əqval və kəramət Şeyx Səfiəddin Ərdəbil. Müqəddimə və təshih Qulamrza Təbatəbai

Şeyx Sədrəddin Məkkəyə gedərək, özlərinin imam övladı olduqlarını rəsmən təsdiq etdirir[1]. Bununla yanaşı, Şeyx Səfi ocağı bu hadisədən çox-çox sonralar şiəliyə keçmişdi. Əmir Teymurun Ərdəbil şeyxlərinə rəğbət göstərməsi onun və varislərinin dövründə ocağın güclənməsinə səbəb oldu. Məlum olduğu kimi, teymurluların zəifləməsi ilə Azərbaycanda siyasi hakimiyyət qaraqoyunluların əlinə keçdi. Bu zaman Şeyx Səfi ocağında onun varislərindən olan Cüneyd otur累rdu. Qaraqoyunluların hakimiyyətə gəlişindən sonra Cüneyd Ərdəbili tərk edib Anadoluya getdi. Şeyx Səfi ocağının, ehtimal ki, uzun illərdən bəri gizli saxladığı siyasi iddiaları da Anadoluda üzə çıxdı və bu hadisə Cüneydin on iki imamçılıq inancını qəbul etməsi ilə paralel şəkildə baş verdi. Cüneydin siyasi fəaliyyəti nəinki Anadolu bəyliklərinin, hətta Osmanlı dövlətinin belə diqqətini cəlb etmişdi. Sultan II Muraddan vətəndaşlıq istəyən Cüneydə sultanın "bir taxta iki padişah sığmaz" cavabı bu baxım-

---

Məcid, Tehran, 1376, s. 120; Şeyx Hüseyn Pirzadə Zahidi. Silcilətün-nəsəbi Səfəviyyə. Berlin, 1343, s. 19-20

[1] Gölpınarlı A. 100 Soruda Türkiyede Mezhebler ve Tarikatlar. İstanbul, 1969, s.233

dan az şey demir[1]. Ətrafına topladığı müridlərlə Trabzona və Dağıstana qəza yürüşünə çıxmaqla Cüneyd açıq şəkildə siyasi səhnəyə çıxdığını nümayiş etdirdi. Cüneydin Şirvanşah tərəfindən öldürülməsindən sonra sufilər, məlum olduğu kimi, onun oğlu Heydərin ətrafına toplandılar. Atasının yolu ilə gedərək Dağıstan kafirləri üzərinə qəza yürüşlərinə gedən Heydər də eyni aqibətlə üzləşməli oldu. Ən nəhayət, babasının başladığı hərbi-siyasi hərəkatı İsmayıl uğurla başa çatdıraraq hakimiyyətə gəldi.

Qızılbaş birliyinin özəyi Şeyx Səfi ocağı idi. Birliyin əsasında imam soyundan olan kəramət sahibi "mürşidi-kamilin" nüfuzu və on iki imamçılıqla yoğrulmuş təsəvvüf inancı dayanırdı. Ocağın ətrafına toplanan müridlər *qızılbaş* adını başlarına qoyduqları on iki imamın rəmzi olan on iki qırmızı zolaqlı tacdan almışdılar. Qızılbaş tacı deyilən bu papaq onların tapındıqları inancın rəmzi idi və ona görə də mübarək sayılırdı. Şeyx Səfi ocağının *qızılbaş* adı alan müridləri Azərbaycanda, Şamda (Suriyada) və xüsusilə, Rumda (Osmanlı torpaqlarında) məskunlaşan türkmanlar idi. Şeyx Səfi soyunun bü-

---

[1] Aşıkpaşaoğlu Ahmed Aşıkı. Tevarih-i-Al-i Osman. Osmanlı Tarihleri. C. I. İstanbul, 1949, s. 249

tün hərbi-siyasi uğurları onun ətrafına toplanan türkman mənşəli müridlərin hesabına mümkün olmuşdu. Bununla yanaşı, Qızılbaş birliyi Qaraqoyunlu və Ağqoyunlu eli kimi, türkman kimliyinə yox, on iki imamçılıqla yoğrulmuş təriqət kimliyinə əsaslanırdı. Başqa sözlə, etnosiyasi birlik türkmanların mənsub olduqları xalqın deyil, müridi olduqları təriqətin idealları əsasında yaranmışdı. Ona görə biz burada *bir xalqın məlum inancı qəbul etməsi hadisəsi ilə deyil, bu inanc əsasında yaranması hadisəsi ilə qarşılaşırıq.* Nəzərə almaq lazımdır ki, Qızılbaş birliyinə nəinki bütün türkmanlar, hətta qızılbaş inancına sahib türkmanların hamısı qatılmamışdı. Bununla yanaşı, bu etnosiyasi birliyə türkmanlardan başqa, elxanlı və cığatay mənşəli bəzi tayfalar, eləcə də talış, kürd, lor, ərəb və s. kimi xalqlardan da bəzi qruplar qatılmışdı. Onlar türkman deyildilər. Ancaq türkmanlarla birgə qızılbaş idilər.

Burada bir məsələni də vurğulamaq istəyirik. Qızılbaş etnosiyasi birliyinin qurduğu siyasi təsisat türk elat imperiyaları tarixində ən güclü dövlətlərdən biri idi. Bu dövlət Qaraqoyunlu, Ağqoyunlu dövlətləri kimi bir el deyil, ellər birliyi əsasında yaranmışdı. Məhz buna

görə də o dövrün ən böyük və oturuşmuş dövləti olan Osmanlı imperiyasının 250 ilə qədər davam edən hərbi, siyasi və ideoloji təzyiqlərinə tab gətirə bildi.

Yeni yaranmış bu etnosiyasi birliyin yurdu ağqoyunluların və şirvanşahların hakim olduğu torpaqlar idi. Ərdəbil ocağına tapınan müridlər başladıqları işin uğurunu əhalisi, əsas etibarilə, soydaşları türkmanlardan ibarət olan bu iki dövlətin hakim olduğu torpaqların birləşdirilməsində görürdülər. Şeyx Cüneyddən bu tərəfə qızılbaşların arzu etdiyi bu birliyə Şah İsmayıl İraqı da daxil edərək yazır:

*Şirvan xəlayiqi qamu Təbrizə daşına,*
*Mülki-əcəm sorar ki, qiyamət xaçan qopar...*
*Yetdikcə tükənür ərəbin kuyü məskəni*
*Bağdad içində hər necə kim türkman qopar*[1].

Ancaq qızılbaşlar sahib olduqları vətənin hüdudlarına sığmadılar. Bu yeni etnosun "passionar partlayışı"(L.Qumlyev) böyük bir əraziyə yayıldı və onlar vətənlə bərabər, sahib olduqları siyasi məkana *Qızılbaş məmləkəti* (Məmləkəti-Qızılbaş) adı verdilər[2].

---

[1] Şah İsmayıl Xətai. Əsərləri. I c. Bakı, 1976, s. 154

[2] Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.31

## Qızılbaşlar və türkmanlar

Qızılbaşların tarix səhnəsinə çıxması türkmanların bir etnos olaraq dağılması ilə müşayiət olunur. Onların bir hissəsi etnosiyasi birliyin içərisinə daxil oldu, bir hissəsi Osmanlı torpaqlarına sığındı, bir hissəsi isə Qızılbaş məmləkətində subetnos olaraq öz varlığını davam etdirməyə çalışdı. Yeni etnosiyasi mühitdə istər qızılbaş, istəsə də sünnü türkmanlar etnik ənənəni tədricən unutdular. İmam soyunun Oğuz soyundan üstün tutulması və birincinin ikincini sıxışdırıb sıradan çıxartması ilə müşayiət olunan proses yeni bir münasibətlər sistemi yaratdı. Elə bu mürəkkəb etnosiyasi proseslərin nəticəsində də *Türkman* etnonimi *tərəkəmə* şəklinə düşdü. Azərbaycan türklərinin el təşkilatından məhrum olan, ancaq heyvandarlıqla məşğul olub aranla dağ arasında köç edən hissəsi belə adlanır.

Şərqi Anadoluda yaşayan türkmanların taleyi daha acınacaqlı oldu. Qızılbaşla əlaqələrinin kəsilməsi üçün onların bir hissəsi osmanlılar tərəfindən Anadolunun qərbinə və Avropaya, bir hissəsi isə səfəvilər tərəfindən Qızılbaş məmləkətinin içərilərinə sürüldü.

Səfəvilərin kürdlərə münasibətdə yeritdiyi sərt siyasət kürdlərlə osmanlıların birləşməsi və son nəticədə səfəvilərin bölgədən çıxarılması ilə nəticələndi. Bu zaman qızılbaş ellərinin bir çoxu bölgəni tərk etməli oldular[1]. Nəticədə türkmanlar azlıqda qaldılar. Səfəvilər hakimiyyəti türkmanlardan aldlqları üçün onlara siyasi rəqib kimi baxırdılar. Türkmanlara qarşı eyni münasibət osmanlılar üçün də öz qüvvəsini saxlayır. İrəlidə bəhs edəcəyimiz kimi, türkmanlar və türkman bəylikləri ilə osmanlılar arasında düşmənçiliyin tarixi daha qədimdir. İki böyük hərbi-siyasi gücün arasında qalan, üstəlik kürdlərə münasibətdə azlıqda qalan türkmanlardan müəyyən kütlələr kürdləşdilər və ya *kürd* adı altında gizləndilər. Bu gün Şərqi Anadoluda məskunlaşan türkman tayfalarından bəzilərinin tamamilə kürdləşməsi, bəzilərinin isə türkcə danışdıqları halda, özlərini *kürd* sayması sözügedən hadisənin xatirəsidir[2]. Məlum olduğu kimi, oxşar hadisə Azərbaycanda da müşahidə olunur. Bununla yanaşı, Azərbaycanda bu etnonim etnik anlam daşımır və sifət kimi, *dağlı, qoçaq*

---

[1] Мустафаев Ш.М. Восточная Анатолия от Ак-Коюнлу к Османской империи. Москва, 1994, с. 22-48

[2] Eröz M. Yörükler. İstanbul, 1991, s. 24-25

*adam* anlamında işlənir. Yeri gəlmişkən, türkmanların qeyri-türk etnik mühitdə assimilyasiyası da türkman tarixinin acı gerçəklərindəndir. Onların İraqda ərəbləşməsi və kürdləşməsi, Suriyada ərəbləşməsi, İranda farslaşması tarixi gerçəklikdir.

Baburun qızılbaşları *türkman* adlandırmasını onların əslən türkman olması şəklində anlamaq lazımdır[1]. Halbuki bütün Mərkəzi Asiya xalqları onları özlərini təqdim etdikləri kimi *qızılbaş* adı ilə tanıdılar. Bu xalqların dastanlarında *qızılbaş*, kalmıklarla birgə geniş yayılmış epik düşməndir. Bu dastanların mənfi personajları belə *qızılbaş* adı ilə təqdim olunur[2]. Oxşar hadisə ilə Şimali Qafqaz folklorunda da qarşılaşırıq[3]. Ən maraqlısı odur ki, Xəzəryanı türkmanlar soydaşları olan qızılbaşları özlərindən saymadılar. Qızılbaş qızından doğulan uşaqların, qanıqarışıq türkmən kimi, *qul* kateqoriyası-

---

[1] Arat R.R. Ön söz. G.Z.M. Babur: Vekayi: Baburun Hatıratı. C. I. Ankara, 1987, s. 0-18

[2] Алпамыш. Узбекский народный эпос. Ленинград, 1982, s. 371; Гёр-оглы. Туркменский героический. Москва, 1983, s. 799; Кобланды-Батыр. Казахский героический эпос. Москва, 1975, s. 442; Липец Р.С. Образы батыра и его коня в тюрко-монгольском эпосе. Москва, 1984, s. 262

[3] Noqoydın kırk batiri. Ediqe. Maxaçkala, 1991, s. 110-117

na daxil edilməsi[1] artıq türkmanların bir etnos olaraq dağıldığını göstərir. Deməli, qızılbaşların tarix meydanına çıxması ilə türkman etnosistemi dağılır və Xəzəryanı türkmanlar onun etnik qəlpəsinə çevrilir. Bu tarixdən sonra yeni bir etnogenez prosesinin əsası qoyulur və bu prosesin nəticəsində müasir *türkmən* xalqı yaranır.

## Türkmanlar və türkmənlər

Böyük türkmanların dağılması ilə etnosun düşdüyü hala uyğun olaraq onu ifadə edən etnonimin anlamı dəyişir. Superetnosun Xəzəryanı bölgədə məskunlaşan hissəsi danışdıqları ləhcənin təbiətinə uyğun olaraq etnonimin *türkmən* variantını işlədir və bu adla özünü ətraf etnik aləmdən fərqləndirir.

Elat həyat tərzi keçirdikləri üçün özlərini köhnə etnik adla tanıtmaqda davam etmələrinə baxmayaraq, bu xalq tamamilə yeni xalq idi.

Elə ona görə də böyük türkmən şairi Məxdumqulu milli birlik və dövlətçilik duyğularını dilə gətirərkən məhz Xəzəryanı bölgədə yaşayan türkmən ellərinə səslənir:

---

[1] Йомудский Карашхан оглы Н.Н. Из народного предания туркмен. «В.В. Бартольду». Ташкент, 1927, s. 317

*Türkmənlər qoysalar bir yerə əli,*
*Qurudar Qulzumu, dəryayi-Nili,*
*Təkə, Yomut, Göklən, Yazır, Əmrəli,*
*Bir dövlətə qulluq etsək binimiz*[1].

Elat həyat tərzi keçirdikləri üçün özlərini köhnə etnik adla tanıtmaqda davam etmələrinə baxmayaraq, bu xalq tamamilə yeni xalq idi. Birincisi, bu adın daşıyıcıları Azərbaycanda, Anadoluda, İraqda, Şamda və s. olduğu kimi yalnız elat dünyasına mənsub olan kütlələr idi. Bu o deməkdir ki, türkmən xalqının yaranmasına qədər Böyük türkmanların Mərkəzi Asiyanın müxtəlif bölgələrində oturaq həyata keçmiş hissəsi bu yeni xalqın mənsubu deyildi. İkincisi, Böyük türkmanların başqa etnik birliklərin (qazaxların, qırğızların, özbəklərin, başqırdların və s.) içərisinə daxil olan hissəsi də Türkmənistan türkmənlərindən kənarda tutulmalıdır. Üçüncüsü, türkmənlərin tərkibinə qatılan qeyri-türkmən tayfaların bu xalqın formalaşmasındakı rolu nəzərə alınmalıdır. Beləliklə, Türkmənistan türkmənləri öncə Boyük türkmanların Xəzərə yaxın torpaqlarda qalan etnik parçası, ardınca baş verən etnogenez prosesinin nəticəsində bir xalq kimi tarix meydanına çıxmışdır. Qeyd

---

[1] Magtymguli. Qoşqular. Aşqabat, 1991, s.108

edək ki, Türkmənistan türkmənləri başqa ölkələrdə yaşayır. Belə ölkələrin başında İran gəlir. Sayı dəqiq məlum olmayan İran türkmənləri bu ölkənin Şimal-şərqində, son illər Güney Türkmənistan deyilən bölgəsində yaşayır[1]. Əfqanistanda yaşayan türkmənlər, əsas etibarilə, bu ölkənin şimal-şərq bölgələrində yaşayır. Saylarının 2 milyon ətrafında olması güman olunur[2]. Burada yaşayan türkmənlər Türkmənistan mənşəlidir. Söhbət *sarıq, təkə, ersarı, yomut, göklən, salır, alili* və s. kimi ellərə məxsus tayfalardan gedir[3]. Rusiya türkmənlərinin tarixi XVII əsrin əvvəllərindən başlayır. Onlar bu ölkənin Stavropol və Astraxan bölgələrində yaşayırlar. 1991-ci ilin siyahıyaalmasına görə, Stavropolda yaşayan türkmənlərin sayı 11337, Astraxanda isə 2288 nəfər olmuşdur[4]. Astraxan türkmənləri (turuxmenlər) Türkmənistan türkmənlərinin *abdal, iqdır, çovdur, soyünci* boylarına mənsubdur.

---

[1] Туркмены. Москва, 2016, s. 37

[2] Yenə orada, s. 36

[3] Бабаева А. Туркмены Афганистана: история расселения, племенной состав, очерк политической истории 20-30-х годов XX века. Автореферат на соискании канд. наук, 1985, s. 21-63

[4] Бабаева А. Туркмены Афганистана: история расселения, племенной состав, очерк политической истории 20-30-х годов XX века. автореферат на соискании канд.наук,1985, s. 43

Özbəkstan ərazisində yaşayan türkmənlərdən danışarkən müxtəlif tarixi hadisələrlə bağlı olaraq Özbəkistana köç edən Türkmənistan türkmənləri ilə özbək xalqının tərkibinə qatılan böyük türkmanları biri-birindən fərqləndirmək lazımdır. Əlbəttə, Özbəkistan, eləcə də Tacikistanda özünü Türkmənistan türkmənlərinin bir parçası sayan və kompakt halda yaşayan türkmənlər var. Bununla yanaşı, özbək xalqının formalaşmasında iştirak edən böyük türkmanları Türkmənistan türkmənlərindən aralı tutmaq lazımdır. Məlum olduğu kimi, böyük türkmanlar qıpçaq, karluk, uyğur və s. etnik birliklərlə birgə özbək xalqının formalaşmasında mühüm rol oynayıb. Bu baxımdan, böyük türkmanlar özbək xalqının əcdadlarından biridir. Oxşar şəkildə bu xalq qazaxların, başqırdların da və s. tərkibinə daxil olmuşdur. Qazax tayfalarının içərisində qarşımıza çıxan törökpen və ya türükpen, başqırd tayfalarının arasında gördüyümüz (törökmən-kıpsak) adı heç də təsadüfi deyil[1]. Eyniadlı tayfa noqay tayfaları arasında da var[2].

---

[1] Родлов В.В. Из Сибири. Москва, 1989, s. 742; Кузеев Р.Г. Происхождение башкирского народа. Москва, 1974, s. 183-184

[2] Баскаков Н. А. Ногайский язык и его диалекты. Москва-Ленинград, 1940, s. 135

Türkmənistan türkmənləri Suriyada, İrakda, Türkiyədə yaşayan türkman və türkmənləri də eyni etnonimin daşıyıcıları olduqlarına görə özlərinin bir parçası sayır və bununla da ciddi xətaya yol verirlər. Məsələyə belə yanaşma türkmən tarixçiliyinin böyük türkmanlarla Türkmənistan türkmənlərini eyniləşdirməsindən doğur.

Coğrafi baxımdan deyil, etnik baxımdan yanaşsaq, türkmanların XVI əsrə qədərki tarixinə Türkiyə türkləri və Azərbaycan türkləri ilə bərabər Türkmənistan türkmənləri də şərikdi. Bununla yanaşı, bu tarix sözügedən xalqların öz tarixi deyil, əcdadlarının tarixidir. Yəni deyilən dövrə qədərki tarix bu xalqların ortaq tarixidir. Beləliklə, Azərbaycan türklərinin Səlcuqlu, Qaraqoyunlu və Ağqoyunlu tarixinə nə dərəcədə haqqı çatırsa, Türkmənistan türkmənlərinin və Türkiyə türklərinin də o dərəcədə haqqı çatır. Bununla yanaşı, Anadolu türkmənlərinin etnik və siyasi tarixinə Türkiyə türklərinin nə dərəcədə haqqı çatırsa, Türkmənistan türkmənlərinin və Azərbaycan türklərinin də o dərəcədə haqqı çatır. Böyük türkmanların Mərkəzi Asiyada öz varlığını davam etdirən hissəsinə də münasibət eyni olmalıdır. Ancaq coğrafi yerləşməni də bir yana qoymaq bizi yanlışlığa

aparar. Gəlin unutmayaq, hər hansı bir xalq müəyyən coğrafiyada formalaşır. Yəni burada gedən etnik və siyası proseslərin nəticəsində yaranır. Mənsub olduğu etnik dünyanın, eləcə də bu coğrafiyada yaşayan öz soyundan olan və olmayan sakinləri ilə bütöv bir münasibətlər sisteminin içərisinə girir və bu sistemin diktə etdiyi şərtlərə tabe olur. Bunun əksinə olaraq, onun mənsub olduğu etnik dünyanın coğrafi baxımdan uzaqda olan hissəsi ilə əlaqələri ya tamamilə itir, ya da zəifləyir. Dini inanc faktoru (təriqət kimliyi), ayrı-ayrı siyasi sistemlərin içərisində olmaları və bu sistemin şərtlərinə uyma məcburiyyəti bu əlaqələrin qırılmasına səbəb olur. Eyni etnik dünyanın mənsublarının müxtəlif bölgələrdə keçirdiyi çoxtərəfli proseslər biri-birindən asılı olmadan gedir. Ətraf etnik aləmlə münasibətlər sistemi və yaşadığı coğrafiyanın diktə etdiyi şərtlər etnik diferiensiallığa aparır. Bütün bunlara baxmayaraq, etnik kimlik şüuru birbaşa etnik adda ifadə olunur. Bu baxımdan, XVI əsrə qədər türkman kimliyi harada olmasından aslı olmayaraq bu etnik dünyanın mənsublarını birləşdirirdi. Ancaq deyildiyi kimi, türkmanların bir qisminin *qızılbaş* adı altında tarix meydanına çıxması böyük türkman-

ların sonu Türkmənistan türkmənlərinin bir xalq olaraq formalaşmağa üz qoyduğu tarixdir. Böyük bir ərazidə siyasi iqtidar sahibi olan qızılbaşlar, hakimiyyəti türkmanlardan almışdı. Bu səbəbdən qızılbaş olmayan türkmanlara düşmən münasibət bəsləyirdilər. Səbəbsiz deyil ki, bir çox türkman kütlələri qızılbaşların hakimiyyətə gəlişi ilə bağlı olaraq Anadoluya köç etdilər. Onların bir hissəsi bir müddət qızılbaşlara qarşı mübarizə apardılar. Son nəticədə tabe olsalar da, qızılbaş inancını qəbul etmədilər və bu gün də hənəfilik yolunu davam etdirirlər. Qızılbaşlar Xəzəryanı bölgəyə çıxıb türkmənlərlə qarşılaşanda da oxşar hadisə baş verdi. Bu zaman nə qızılbaşlar türkmənləri, nə də türkmənlər qızılbaşları özlərindən saymadılar. Türkmənlərin qızılbaş qızından doğulan uşaqları qeyri-türkmən kimi *qul* sayması məsələnin nə yerdə olduğunu ortaya qoyur. Beləliklə, bu tarixdən sonra böyük türkmanların Xəzəryanı bölgədə məskunlaşan hissəsi özlərini ətraf etnik aləmdən (qızılbaşlardan, özbəklərdən, qazaxlardan və kalmıklardan) fərqləndirərək bir xalq kimi formalaşırlar. Böyük tarixə malik bu xalq öncə özbək xanlarının, ardınca rusların haki-

miyyəti altında öz varlığını davam etdirdi və 90-cı ildə müstəqillik qazandı.

## Osmanlılar və türkmanlar

Səlcuqlular zamanından başlayan oturaqlaşma prosesinin və oturaqlaşdırma siyasətinin nəticəsində Orta və Qərbi Anadoluda türk kütlələrinin sayı kifayət qədər çoxalmışdı. Bununla yanaşı, onlar Osmanlı dövlətinin simasında özlərinə siyasi himayədar da qazandılar.

Osmanlılar Oğuz elinin kayı boyundan idilər. Köhnə Osmanlı tarixlərində onların monqol yürüşləri ilə bağlı olaraq Mərv yaxınlığındakı Mahandan Anadoluya gəldikləri söylənir. Onlar öncə Ankara, 1277-ci ildən sonra Söyüt və Domanicdə yurd salmışdılar[1]. Bu dövrdə onların başında Ərtoğrul bəy dururdu. O, öləndən sonra yerində oğlu Osman bəy oturdu. Osman bəy öncə Qəstəmonu ucbəyliyinə tabe olan bir boy bəyi idi və ya olması güman olunur[2]. Bəyliyi dövründə o, əxiləri, qazi ərənləri, qəza yürüşlərinə qoşulmaq arzusu ilə Anadoluya gələn

---

[1] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 162

[2] İnalcık H. Osmanlı İmparatorluğu. Türk Dünyası El Kitabı. C. I. Coğrafiya-Tarih. Ankara, 1992, s. 458

qərib igidləri və s. ətrafına yığıb Bizans və İznik torpaqlarına yürüşlər etmiş və bu yolla da ərazilərini genişləndirmişdi. Osmanlıların qəza yürüşləri XIV əsr boyu davam etmiş və bunun nəticəsində Osmanlı böyük bir imperiya halına gəlmişdi[1].

Osmanlı imperiyası Yıldırım Bəyazidin hakimiyyətə gəlişinə qədər (1389) qərb torpaqlarında fütuhatla məşğul idi. Ancaq Yıldırım Bəyazid hakimiyyətə gələndən sonra üzünü şərqə çevirib bir-birinin ardınca Anadoludakı türkman bəyliklərini ələ keçirdi. Türkmanlarla osmanlıların düşmənçiliyi bu şəkildə başladı. Osmanlılar Anadolu türkman bəyliklərini, sadəcə, tabe etdirməmişdi. Bununla yanaşı, bu etnik dünya üçün əziz olan ənənəvi haqları da bir yana qoymuşdu. Məsələnin bu hala gəlməsi, əsas etibarilə, Osmanlı dövlət təşkilatından qaynaqlanırdı. Belə ki, bu dövlət mərkəziyyətçi prinsip əsasında təşkil olunmuşdu və bu sistem Ali Sultan İradəsi ilə idarəyə söykənirdi[2]. Qeyd edək ki, Osmanlı dövləti birdən-birə bu hala

---

[1] Yenə orada, s.458; Köprülü F. Osmanlı Devleti'nin Kuruluşu. Ankara, 1959, s. 67-105

[2] İnalcık H. Osmanlı İmparatorluğu. Türk Dünyası El Kitabı. C. I. Coğrafiya-Tarih. Ankara, s. 461-465

gəlməmişdi. Orxan qazi zamanından (1326-1362) başlayan mərkəzləşdirmə prosesi XVI əsrin əvvəllərinə qədər davam etmişdi. Bununla yanaşı, Anadolu türkman bəyliklərini ələ keçirən Yıldırım Bəyazid zamanında (1389-1402) mərkəziyyətçilik geniş şəkildə tətbiq olunurdu[1]. Osmanlı mərkəziyyətçiliyi türklər başda olmaqla oturaq əhaliyə söykənirdi. Bunun əksinə olaraq, torpaq üzərində mülkiyyət haqqına sahib olan, özünüidarə hüququnu saxlamaq şərti ilə ellər və ellər birliyi şəklində təşkilatlanan, şərait yarandıqda şərikli əsaslarda böyük dövlətlər quran elat dünyasının mənsublarına mərkəziyyətçi idarə üsulunu qəbul etdirmək mümkün deyildi. Qeyd edək ki, türkman elləri Oğuzun böyük oğlu Kayının soyundan olduqlarına görə Osmanlı hakimiyyətini qəbul edəcəkdilər, ancaq özlərinin də Oğuz soyundan olduqlarını əsas gətirib ənənəyə uyğun şəkildə bu dövlətə şərik olmaq istəyəcəkdilər. Deyildiyi kimi, Osmanlı dövlət sistemi mərkəziyyətçilik əsasında qurulmuşdu və bu sistemin mənsublarının içərisində elat dünyasının səsini eşitmək arzusun-

---

[1] İnalcık H. Osmanlı İmparatorluğu. Türk Dünyası El Kitabı. C. I. Coğrafiya-Tarih. Ankara, s. 461-465

da olan kimsə yox idi. Belə bir dövlətin tərkibinə qatılıb, bütün qatları ilə onun hökmünə boyun əymək türkman dünyasının süurunda qul tanasını qulağına keçirməklə, Oğuz soyunun şərəf və ləyaqətini ləkələmək və bununla da siyasi iqtidara gedən yolu həmişəlik bağlamaq anlamına gəlirdi.

Yürüklərin etnik kimliyi də bu müstəvidə izah olunur. Türkman elləri təbii və tədrici şəkildə tayfa və tirələrin birləşməsi hesabına yaranırdi. Onların hər birinin öz tarıxi var idi. Bunun əksinə olaraq, yürüklər osmanlıların əli ilə nizamlanmışdı və birbaşa sultana tebe idilər. Onlar nizamlandığı tarixdən türkman adını itirib *yürük* adlanmağa başladılar. Dövlətin əli ilə yenidən təşkilatlandırılıb, Osmanlı əsgərinə çevrildiklərinə görə onlar türkman, oturaq həyata keçmədiklərinə görə türk adlana bilmirdilər. Ona görə də keçirdikləri həyat tərzinə uyğun şəkildə *yürük* adlandılar. Araşdırıcıların yürükləri türkmanlarla eyniləşdirərkən və ya fərqləndirərkən nəzərə almadıqları cəhət bundan ibarətdir. Oxşar hadisə Göytürk imperiyası dövründə baş vermişdi. *On ok budun* adlanan tayfalar birliyi dövlətin fərmanı ilə yarandığı üçün, təbii şəkildə yaranmış ellər kimi, oğuz

yox, ok adlandılar. Burada on tayfaların sayını, budun isə birbaşa xaqana tabe olmalarını ifadə edirdi[1]. Şah Abbas zamanında baş vermiş şahsevənlik də sözügedən hadisənin başqa bir şəklidir. Belə ki, əsas etibarilə, elat dünyasının mənsubları olan şahsevənlər şahın çağırışı ilə mənsub olduqları ellərdən ayrılaraq onun buyruğu ilə yenidən təşkil olundular. Məsələnin mahiyyətini anlamaq üçün Ağqoyunlu tarıxçisinin əsərində oxuduğumuz aşağıdakı cümlələr yardımçı ola bilər. Ağqoyunlu elinin şərəf və ləyaqətindən bəhs edən tarixçi yazır: "Onlar heç vaxt orduya (ordu təşkilatına) tabe olmayıblar. İti qılınclarının hökmündən istifadə edərək öz ayaqlarını öz ordularının boynuna qoyublar. Bəzi xəlifələr və Çingiz sülaləsinin sonuncu mənsublarından fərqli olaraq, onlar həmişə il və uluslarının başında durublar"[2]. Ümid edirik ki, deyilənlər türkman bəyliklərinin Osmanlı dövlətinə qarşı düşmən münasibətini anlamaq üçün kifayət edər. Bununla yanaşı, E.Kaeni düşündürən aşağıdakı müəmma da bu kontekstdə açılmış olur: "Bəzi köçərilər imperiya yaradırdı-

---

[1] Гумилев Л.Н. Древние тюрки. Москва, 1967, s. 61

[2] Фазлаллах ибн Рузбихан Хунджи. Тарих-и алам-ара-йи Амини. Баку, 1987, s. 39

lar, başqaları isə siyasi dağıdıcılıq fəaliyyəti göstərirdilər. Bu, onların rəhbərlərinin təsadüfi xarakterləri ilə bağlı idi, yoxsa bu qarşıdurmanın daha dərin səbəbləri var idi? Ümid edirəm ki, ya mən özüm və ya başqaları zaman və imkan tapıb bu suala cavab verməyə cəhd edərlər" [1].

Yıldırım Bəyazidin istilaları sayəsində haqları əlindən alınmış türkman bəyləri Əmir Teymurun simasında böyük bir xilaskar tapdılar. Məşhur Ankara savaşında (1402) Yıldırım Bəyazidin Əmir Teymura məğlub olmasının əsas səbəblərindən biri də türkmanların Yıldırım Bəyazidə arxa çevirmələri oldu. Savaşdan sonra anlaşmaya uyğun olaraq türkman bəylərinin itirdikləri haqlar bərpa olundu və Osmanlı dövləti Şahruh zamanına qədər türkman bəylərinə toxunmağa cəsarət etmədi[2]. Əmir Teymurun müdaxiləsi nəticəsində yarımçıq qalan proses yalnız II Sultan Mehmet Fateh dövründə başa çatdırıldı. Ancaq bu proses Anadolunun şərqinə hakim olan Ağqoyunlu elinin bəylikdən böyük bir dövlətə çevrilməsi ilə paralel şəkildə getdi.

---

[1] Каэн К. Кочевники и оседлые в средневековом мусульманском мире. Мусульманский мир 950-1150. Москва, 1981, s. 121

[2] Aka İ. Timur ve Devleti. Ankara, 1991, s. 28-29; İnalcık H. Osmanlı İmparatorluğu. Türk Dünyası El Kitabı. C. I. Coğrafiya-Tarih. Ankara, 1992, s. 459

XIV-XV əsrlərdə baş verən siyasi proseslərin nəticəsində Osmanlı idarəsi altında yaşayan türkmanların sayı kifayət qədər azalmışdı. Səlcuqlular dövründə başlayan oturaqlaşma və oturaqlaşdırma prosesinin davamı olaraq Osmanlı dövlətinin ölkədə sosial nizam yaratmaq məqsədi ilə türkmanları zorla oturaqlaşdırması da Qərbi və Orta Anadolunun etnik mənzərəsini görə bilmək üçün əhəmiyyətlidir[1]. Bu zaman Qaraqoyunlu və Ağqoyunlu elinə qatılan türkman qrupları da unudulmamalıdır[2]. Elə ona görə də araşdırıcılar (F.Demirtaş, F.Sümer) XVI əsrin əvvəllərində Anadoluda köçəri həyatın "sona çatmaq üzrə" olduğunu söyləyirlər[3]. Beləliklə, Osmanlı idarəsi altında öz varlığını davam etdirən müəyyən türkman kütlələri olsa da, XIV-XV əsrlərdə Qərbi və Orta Anadolunun istər etnik, istərsə də siyasi baxımdan bir Türk ölkəsi olduğunu söyləyə bilərik. Qaraqoyunlu Qara Yusifin Ağqoyunlu Qara Yuluk Osman bəyə yazdığı məlum məktubda "bizim hər ikimiz türkmanıq" deyib, türkmanların düşmənləri sırasında cığataylar və Şamla bərabər, Ru-

---

[1] Eröz M. Yörükler. İstanbul, 1991, s. 240-266
[2] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 156, s. 182
[3] Eröz M. Yörükler. İstanbul, 1991, s. 249

mun da adını çəkməsindən görünür ki, türkmanlar ən azı XIV əsrin sonlarından osmanlıları yuxarıda sadalanan səbəblər üzündən türkman saymırdılar[1]. Bu baxımdan, Z.Toqanın Marko Poloda (XIII əsr) Türkomaniə adlanan Orta və Qərbi Anadolunun Klavixoda (XV əsrin əvvəli) Türk ölkəsi adlanması barədə qeydi xüsusi maraq doğurur[2]. Türkman etnotoponiminin türk etnotoponimi ilə əvəzlənməsi aralıq dövrdə Orta və Qərbi Anadolunun əksəriyyətinin oturaq həyata keçməsi, üstəlik Osmanlı dövlətinin bu bölgələrə hakim olması ilə bağlı olmuşdur. Maraqlıdır ki, bir Koroğlu qoşmasında Osmanlı dövlətinin hakim olduğu torpaqlar Türk eli adlanır. Koroğlu qaçan qulun geriyə qaytarılmasını əmr edərkən onun "türkün elinə", yəni Osmanlı torpaqlarına getdiyini söyləyir:

*Bir qulum qaçıbdı türkün elinə,*
*Arayıb axtarın tapın gətirin!*
*Bağlayın qolların təntü-dürüstə,*
*Ərəb at köksünə qatın gətirin!*[3]

---

[1] Фазлаллах Рашид-ад-Дин. Огуз-Наме. Баку, 1987, s. 19; Буниятов З.М., Эфендиев О.А. От редакторов. Фазлуллах ибн Рузбихан Хунджи. Тарих-и алам-ара-йи Амини. Баку, 1987, s. 5

[2] Togan Z.V. Umumi Türk Tarihine Giriş. İstanbul, 1981, s. 257

[3] Azərbaycan dastanları. V cilddə, IV c. Bakı, 2005, s. 160

Bunun əksinə olaraq, Şərqi Anadolu və müasir Ermənistanın böyük bir hissəsi hələ uzun müddət "Türkman ölkəsi" adlanacaqdı[1]. Belə ki, bu bölgə XIX əsrə qədər Avropa xəritələrində və dərsliklərində Türkomaniya adı ilə yad olunur[2]. Bu həmin Türkomaniyadır ki, erməni tarixlərində Türkman adlanır[3]. "Koroğlu", "Şah İsmayıl" kimi dastanların yaddaşında bu etnotoponim elə bu adla da qalmışdır[4].

Anadolunun etnik və siyasi tarixi ilə bağlı ciddi araşdırmalar aparmış Ş.Mustafayev 2010-cu ildə çap olunmuş "Səlcuqilərdən osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər" adlı əsərində qaynaqlara söykənərək Şərqi Anadolu ilə Orta və Qərbi Anadolunun etnosiyasi baxımdan diferensiallaşması ilə bağlı söylədiyi fikirlər bu baxımdan son dərəcə əhəmiyyətlidir[5].

---

1 Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 183

2 Türkiye Cumhuriyyetini Kuran Türk Milletinin Tarihi. Ankara, 1988, s. 87-88

3 Мамедов С.А. Азербайджан по источникам XV – первой половины XVIII вв. Баку, 1993, s. 134

4 Azərbaycan dastanları. III c., Bakı, 2005, s. 209, s. 215; Azərbaycan dastanları. IV c., Bakı, 2005, s. 490-494

5 Mustafayev Ş. Səlcuqilərdən osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər. Bakı: Elm, 2010, s. 190-286

## Osmanlılar və Türkiyə türkləri

Ümmətdən millətə keçid Türkiyədə Osmanlı dövlətindən Türkiyə cümhuriyyəti dövlətinə keçid şəklində gerçəkləşdi. Bu məsələdən Türkiyədə kifayət qədər bəhs olunduğu üçün bizim bu mövzunun üzərində dayanmağımıza ehtiyac yoxdur. Bircə onu söyləmək istəyirik ki, bu hadisə Anadolu türklərinə böyük qurbanlar bahasına başa gəldi və bununla da Anadolu türklüyü yaşama haqqını sübuta yetirdi. Türkiyə cümhuriyyəti türk tarixində yeni hadisə idi. Birincisi, demokratik dövlət xalqı uzun əsrlər boyu əlindən alınmş hüriyyətinə qovuşdurdu. Siyasi hakimiyyətin ixtiyarı Osmanlı zamanında heçə sayılan türklərə verildi. Bu baxımdan, böyük Mustafa Kamal Atatürkün "nə mutlu türküm deyənə" kəlamı nəinki osmanlılara, hətta minillik türk tarixinə, dəqiq desək, bu əsrlərdə qurulmuş türk dövlətlərinin əksəriyyətinə ünvanlanmışdı. İkincisi, Türkiyə Cümhuriyyətinin quruluşu böyük güclərin türklüyü siyasi səhnədən tamamilə silib yox etmək niyyətini puça çıxartdı. Bu ölkə 70 il ərzində türklüyün sonuncu qalası kimi yaşadı və türksoylu əsir xalqlar üçün azadlığa gedən yolda ümid qapısı oldu.

Bu baxımdan, Türkiyə türkləri bütün dünya türklüyünün boynuna böyük haqq qoymuşdur.

*İraq və Suriya türkmanları, qaqouzlar, krımtatarlar, salarlar.* İraq və Suriyada yaşayan türkmanların *türkman* etnonimini saxlaması etnik mahiyyətdən daha çox siyasi mahiyyət daşıyır və onların Türkiyə türklərindən fərqləndirilməsi məqsədi ilə onlara bu ad verilmişdir. Məlum olduğu kimi, bu türkmanların böyük bir hissəsi şəhərlərdə və kəndlərdə yaşayır. Bu səbəbdən də etnik və etnoqrafik olaraq türkdür. Bununla yanaşı, bu ad göydəndüşmə də deyil. Belə ki, XX əsrin əvvəllərində hələ də elat həyatını davam etdirən və deməli, türkmən adını yaşadan kütlələr var idi. Bu gerçəklik onları ayırıb fərqli bir xalq kimi göstərmək istəyən böyük güclərin işinə yaradı. Bu şəkildə İraq və Suriya türkmanları etnonimi ortaya çıxdı. Suriya türkmanları böyük türkmanların bir parçası kimi 500 il ərzində osmanlıların hakimiyyəti altında yaşayıb. İraq türkmanları isə XVI əsrə qədər səlcuqluların, Mosul atabəylərinin, elxanilərin, cəlairlərin, teymurluların, qaraqoyunluların, ağqoyunluların hakimiyyəti altında olmuşlar, XVI əsrdən sonra isə gah səfəvilər, gah da osmanlılar tərəfindən idarə olunmuşdur. Bununla yanaşı, dil-

ləhcə xüsusiyyətlərinə görə Azərbaycan türklərinin bir parçasıdırlar.

Qaqauzların bolqar və oğuz mənşəyi haqqında fikirlər mövcuddur. Mövcud fikirlərdən biri birbaşa bizim mövzumuzla bağlıdır. P.Vittekə görə, qaqauzlar öz adlarını İzzəddin Keykavusun (1180-1220) adından alır. Bu səlcuqlu sultanı ona tabe olan türklərlə birgə Bizansa qaçmış və onun oğlanlarından bəziləri xristianlığı qəbul etmişdir. Bu səbəbdən bu türklər Keykavus sözünün pozulmuş şəkli olan qaqouz adı almışlar[1].

Məlum olduğu kimi, Krım tatarlarının bir hissəsi Anadoludan getmiş türkmanlardan ibarətdir. Bu miqrasiya 1220-1222-ci illər arasında baş verməsi düşünülən Sudakın Anadolu səlcuqluları tərəfindən fəthi ilə başlayır və sonrakı əsrlər ərzində davam edir[2]. Bu hadisənin nəticəsində Krımın cənub tərəfində türkmanlar və ya oturaq həyata keçmiş türklər məskunlaşmışdır.

---

[1] Togan Z.V. Umumi Türk Tarihine Giriş. İstanbul, 1981, s.165, s.465

[2] Peacock A.C.S. Krıma Karşı Selçuklu Seferi ve Alaaddin Kaykubadın Hakimiyyetinin İlk yıllarındakı Genişleme Politikası. // Tarih Araştırmaları Dergisi. Yıl 2010, Cilt: 29 Sayı: 47, s. 70-92; Краморовский М. Г. Крым и Рум в XIII-XIV столетиях (Анатолийская диаспора и городская культура Солхата). // Золотоординское обозрение, №1, 2016, s. 55-88

Nəticədə, onlar Krım tatarlarının etnik təşəkkülündə müəyyən rol oynamışlar.

Çinin Çinxay vilayətində yaşayan calarlar da türkmanların bir parçasıdır. 1964-cü ildə onlar Sinxua adlanan salar muxtar bölgəsi yaratmışlar. 60-cı illərə aid qaynaqlarda Sinxuada yaşayanların sayı 20 min göstərilir. Salarlar, əsas etibarilə, Sinxuada məskunlaşsalar da, Qansu vilayətində, eləcə də Sintsizyən-Uyğur muxtar bölgəsində də məskunlaşmışlar. Tarixi rəvayətlərdə onların Min sülaləsi dövründə (1368-1644) 1370-ci ildə bu bölgəyə Səmərqənddən gəlməsi qeyd olunur. Onlar Türkmənistan türkmənlərinin etnik parçası sayılır[1]. Ancaq Türkmənistan türkmənlərinin hələ XIV əsrdə bir xalq olaraq Böyük türkman dünyasından ayrılıb diferensiallaşmadığını nəzərə alsaq, salarları böyük türkmanların etnik qəlpəsi olduğunu söyləmək olar.

## Qızılbaşlar və Azərbaycan türkləri

XIII əsrin əvvəllərinə qədər çoxsaylı türkman kütləsi tarixi Azərbaycanın hər tərəfinə yayılmışdı. Moğolların tarix səhnəsinə çıxması

[1] Тенишев Э.Р. Саларские тексты и материалы. Москва, 1964, с.3

Azərbaycan türkmanlarının taleyində mühüm rol oynadı. Moğolların qarşısında dayana bilməyən türkmanlar "kafir moğola" itaət də etmədilər[1]. Bu səbəbdən onların böyük bir qismi Anadoluya və şimal-şərqi Ərəbistana – Misir Məmlük dövlətinin hakim olduğu torpaqlara köç etdilər. Elxanilərin zəifləməsi və siyasi səhnədən çəkilməsi ilə bağlı olaraq onlar yenidən Azərbaycan torpaqlarına qayıtdılar. Bu axın qaraqoyunlu, ağqoyunlu və səfəvilərin zamanında daha da gücləndi. Beləliklə, XV əsr və XVI əsrin əvvəllərində Azərbaycanda böyük türkman kütlələri toplandı. Səfəvilərin hakimiyyətə gəlişi və şirvanşahların siyasi səhnədən çıxarılması ilə Azərbaycanın siyasi baxımdan bütövləşməsi başa çatdı. Qeyd edək ki, Azərbaycan ərazisində təkcə türkmanlar və təkcə türksoylu əhali deyil, həm də qeyri-türk etnik qruplar məskunlaşmışdı. Şimaldan gələn axınların hesabına Azərbaycan ərazisində məskunlaşan türksoylu etnik qruplar elmə bəllidir. Onlardan kanqlıların, hunların, sabirlərin və bulqarların bölgəyə gəlişi tarixi həqiqətdir. Onlardan müəyyən qrupların Azərbaycan ərazisində məs-

---

[1] Sümer F. Oğuzlar (Türkmenler). İstanbul, 1980, s. 139, s. 145, s. 156, s. 255

kunlaşması qarşıya çıxan toponimlərlə də təsdiq olunur. Məsələ ilə bağlı çoxsaylı araşdırmalar mövcuddur və bu məsələnin üzərində xüsusi şəkildə dayanmağa ehtiyac yoxdur. Ancaq bununla bağlı Azərbaycan ərazisində baş vermiş bəzi tarixi hadisələri xatırlatmaq istərdik. Azərbaycan ərazisinin böyük bir hissəsini VII əsrdə Göytürklər fəth etmişdilər. VIII əsr ərəblərlə xəzərlərin Azərbaycan uğrunda mübarizə dövrüdür. Ən nəhayət, istər Azərbaycanın türkləşməsində, istərsə də dünyanın siyasi mərkəzlərindən birinə çevrilməsində elxanilərin haqqı böyükdür. Öncə, elxanilərlə birgə Azərbaycan ərazisinə çoxlu türksoylu etnik qruplar gəldi. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının şimal-şərq bölgəsi bü gün də özünü *müğal* adlandırır. Bu onunla bağlıdır ki, bu bölgənin əhalisinin əksəriyyəti moğol siyasi birliyinin içərisində olub və onlar tərəfindən məskunlaşdırılıb. İkincisi, Azərbaycanın siyasi birliyi ilk dəfə elxanilər zamanında gerçəkləşib və bu baxımdan, onlar səfəvilərə örnək göstəriblər. Üçüncüsü, Azərbaycanın siyasi mərkəz olması elxanilərlə başlayır və bu ənənənin əsası onlar tərəfindən qoyulub. Bu baxımdan, nəinki orta əsr dövlətləri, hətta Azərbaycan Respublikası da elxanilərə borcludur. Buna baxmayaraq,

Azərbaycan türklərinin bir xalq olaraq formalaşmasında türkmanlar və bütün qatları ilə türkmanlıq aparıcıdır. Ancaq türkmanları və qeyri-türkmanları ətraf etnik aləmdən ayırıb yeni bir xalq kimi tarix səhnəsinə çıxaran qızılbaş türkmanlar oldu. Qızılbaşların gətirdiyi inanc sistemi və bu əsasda başlayan mürəkkəb etnosiyasi və sosial proseslər Azərbaycanda məskunlaşan türkləri ətraf etnik aləmdən ayırıb, müasir şəkildə ifadə etsək, Azərbaycan türklərini yaratdı. Bu xalq həyat tərzinə, davranış normalarına, mənəvi dəyərlərinə, dünyagörüşünə, dil-ləhcə xüsusiyyətlərinə görə həm özünün etnik əcdadlarından, həm də qohum xalqlardan fərqlənirdi. Bu xalqın bərkidiyi coğrafi məkan hansı dövlətin siyasi hakimiyyəti altında olmasından aslı olmayaraq coğrafi koordinatları, əsas etibarilə, bəlli olan, Xarəzm, Məvarannəhr, Xorasan, Misir kimi ənənəvi coğrafi məkan statusu almış Azərbaycandır. Türk xalqlarından biri tarix meydanına bu bölgədə çıxmışdır və bu xalqın bərkiyib şəkillənməsində qızılbaş türkmanların yaratdığı və idarə edərək qoruduğu Səfəvi dövləti həlledici oldu. Onların gətirdiyi dini-ideoloji və siyasi sistem qızılbaşı, cəfərisi, hənəfisi, şafiisi, türkmanı, türkü, hunu, sabiri, bulqarı, uyğuru, qıpçağı və s., eləcə də

bölgədə yaşayan qeyri-türk etnik qrupları bir yerə toplayıb bir xalq olaraq ortaya çıxartdı. Siyasi sistemin başında dayanan qızılbaş türkmanların hesabına onlar *qızılbaş* adı ilə tanındılar. Onların vətəni dörd bəylərbəyliyinin (Azərbaycan, Çuxur-Saad, Gəncə-Qarabağ, Şirvan) ərazisi sayılsa da, "Xemra ve Selvi" adlanan türkman dastanında Bağdad da buraya daxil edilir. Əslən Azərbaycandan olan Xemra sevgilisinin "Azərbaycan necə bir ölkədir?" sualına verdiyi cavabda Bağdadın da adı çəkilir:

*Şehri Bağdadında qovun ekile,*
*Xatar ner mayalar yüke çekile...*[1]

Çox güman ki, Bağdad xalqın bu bölgəyə qədər yayılması hesabına Azərbaycan coğrafiyasının içərisinə daxil olmuşdur.

Deyildiyi kimi, *azərbaycanlı* dediyimiz xalqın bərkiyib şəkilləndiyi coğrafiya Azərbaycandır. Tarıxin heç bir dövründə sözügedən coğrafiya içərisində vahid xalq olmayıb. Bu xalqın bir etnos olaraq birləşib özünü ətraf etnik aləmdən fərqləndirməsi XVI əsrdən başlayır. Bu vaxta qədər Azərbaycan ərazisində Azərbaycan türklərinin əcdadlarının tarixi var. Müəyyən coğra-

---

[1] Хурлукга и Хемра. Саят и Хемра: туркменский романический эпос. Москва, 1971, s. 160

fiyada qohum qəbilələrin varlığı xalqın yarandığı tarix deyil. Onların birləşib özərini ətraf etnik aləmdən ayırdığı zaman xalqın yaranışından danışmaq olar və bu hadisə birbaşa etnik adla ifadə olunur.

Beləliklə, təkanverici özək olan Səfəvilərin fəaliyyətini nəzərə alsaq, XIV-XV əsrlərdə gizli şəkildə gedib XVI əsrin başında açıq şəkildə ortaya çıxan etnogenez prosesi nəticəsində tarix meydanına *qızılbaş* adlanan etnosiyasi birlik çıxdı. Bu etnosiyasi birlik, başqa türk etnik birlikləri kimi, böyük dövlətçilik düşüncəsinin daşıyıcıları idi və gücləri yetdiyi qədər böyük ərazilərə sahib olub 400 ildən artıq hakimiyyət sürdülər. Etnoqrafik Azərbaycan türklüyü bu etnosiyasi prosesin içərisində bərkiyib şəkilləndi. Bu baxımdan, Azərbaycan türkləri bu prosesin içərisində olanlardır və bu prosesin xaricində olanlar Azərbaycan türkü sayıla bilməz. Bununla yanaşı, Azərbaycan türklərinin coğrafiyası müxtəlif siyasi hadisələrlə bağlı olaraq Azərbaycanın tarixi hüdudlarından kənara çıxır. Bir bölgədən başqa bölgəyə köçürmə, ölkənin sərhədlərini qorumaq üçün sərhəd bölgələrində yerləşdirmə və s. belə səbəblərdəndir. Pakistanın və Əfqanıstanın müxtəlif məntəqələrində

yaşayan qızılbaşlar bu qəbildəndir. Xorasan əfşarları, Astrabad qacarları da bu səbəbdən Azərbaycan ərazisini tərk etmişdilər. Yada salaq ki, Nadir şah əfşarların və Ağaməhəmməd xan isə qacarların içərisindən çıxmışdı.

Çöx keçmədi ki, qurduqları dövlət qızılbaşların əleyhinə çevrildi. Öncə, qızılbaş inancı və onunla birlikdə qızılbaş elləri sıxışdırıldı. Onların dövlət içərisində gücü və yeri tədricən azaldı. Ərəbdən (Bəhreyn, Livan, İraq) çağırılan cəfəri alimləri cəfəri təriqətini yaymağa başladı, məktəblər açılıb tələbələr yetişdirildi və onlar Qızılbaş məmləkətinin hər tərəfinə yayıldı. Keçmiş qızılbaş əmrləri cəfəri təriqətini qəbul etdilər. Qızılbaş seyidləri mollalarla əvəz olundu. Onlar tədricən qızılbaş dədələrini sosial və siyasi həyatdan uzaqlaşdırdı. Mərkəzində Əli dayanan təsəvvüfi qızılbaş inancı *Əliallahılik* adı ilə damğalandı. Bu hadisə Şah Abbas zamanında xüsusilə gücləndi. Elə bu dövrdə qızılbaş ellərinə divan tutuldu və nüfuzdan salındı. Şah şahsevənlik elan etdi. Qızılbaş və qeyri-qızılbaş elləri içərisində şah tərəfdarı tayfa və tirələr ellərdən ayrılıb şahın tərəfinə keçdiyinə görə *şahsevən* adlandılar. Şahsevənlik hərəkatı qızılbaş ellərinin gücünün zəifləməsinə səbəb olan amil-

lərdən biri oldu. Dövlət artıq qızılbaş əmrlərinin iradəsi ilə deyil, şahın iradəsi ilə idarə olundu və bunun üçün qızılbaş xanları vəzirlərlə əvəz olundu. Bu şəkildə qızılbaş elləri tədricən dövlət idarəçiliyindən uzaqlaşdırıldı və dövlətin dayaqları zəiflədi. Qeyd edək ki, qızılbaşların və qızılbaşlığın zəifləməsi ilə qoşa şəkildə irançılıq güclənirdi. Bu şəkildə Qızılbaş məmləkətinin yerini İran alırdı.

Qızılbaşların hakimiyyətdən uzaqlaşdırılması ilə dövlət müdafiəsiz hala gəldi. Nəticədə, əfqanlar dövlətin paytaxtını ələ keçirdib şahı qətlə yetirdilər.

Nadirin hakimiyyətə gəlişi ilə qızılbaşlıq və onunla birlikdə qızılbaşlar bir küncə sıxışdırıldı. İnanc (təriqət) şahlığı, dünyəvi şahlıqla əvəz olundu. Ordu əfqanlar, türkmənlər, kürdlər, qızılbaşlardan və s. təşkil olundu. Nadirin nüfuzu üzərində dayanan dövlət onun qətli ilə də dağıldı. Əfşarları qacarlar təqib etdilər. Ancaq onlar Nadir qədər güclü deyildi. Onların hakimiyyəti dövründə Qızılbaş ölkəsinin şimal-qərb torpaqları ruslara verildi. Qacar hakimiyyəti altında qalan torpaqlarda yeni dünyanın yaranmasına rəğmən patriarxal idarə üsulu ölkəni istər siyasi, istər iqtisadi, istərsə də mənəvi

baxımdan pərişan hala gətirdi. Konstitusiyalı monarxiya cəhdləri heç bir nəticə vermədi. Rusların və ingilislərin təsir dairəsinə bölünən ölkədə qacar şahları oyuncağa çevrildi. İngilislərin təsiri ilə oyandırılan fars milliyyətçiliyi öz işini gör-dü. Yenə də onların yardımı ilə baş tutan Rza Pəhləvi çevrilişi 1925-ci ildə öz nəticəsini verdi. Qacarların hakimiyyəti sona çatdı. Ardınca fars milliyyətçiliyi bu ölkədə tüğyan elədi. Qeyri-farslar, xüsusilə, bu ölkəni yaradıb şəkilləndirən, min il bu ölkədə yaşayan xalqların şərəf və ləyaqətini qoruyan Azərbaycan türklərinin varlığı danıldı, başlarına olmazın oyunlar gətirildi. Farslarla türklərin, eləcə də başqa xalqların münasibətinə sağalmaz yaralar vuruldu. İran xalqları arasında düşmənçilik toxumu səpildi. Bir sözlə, farslaşma və farslaşdırma pəhləvilərin dövlət siyasətinə çevrildi. Bu tarixə qədər hələ də *qızılbaş* adı ilə tanınan ölkə vətəndaşları *iranlı* adı ilə tanınmağa başladı.

Hər işdə bir xeyir var. Allahın işinə bax! Deyəsən, bu dəfə işğal bir xalqın həyatına xeyir gətirmişdi. Yeni qapı başqa bir yerdə yox, işğal bölgəsində açıldı.

Artıq bu dövrə qədər qızılbaş etnosiyasi birliyinin verdiyi təkanla başlanan proses öz işi-

ni görmüşdü. Yəni Azərbaycan türklüyü bir etnosistem olaraq kifayət qədər bərkiyib şəkillənmişdi. Bu bünövrə üzərində də milliləşmə prosesi başladı. Bu prosesdə təkanverici qüvvə fransız maarifçiliyi və rus əsarəti oldu.

Hökm eləməyə alışmış xalq qəfil zərbədən sarsıldı. Üstəlik rusların gətirdiyi yeni idarə üsulu onlar üçün yad idi və belə idarə üsuluna alışmamışdılar. Bu səbəbdən onun qarşısında aciz qaldılar. Yeni idarə üsulu ("divan-dərə") yad dildə danışan, üstəlik rüşvətxor məmurların qarşısında xalq məzlum hala düşmüşdü. Günü-gündən intişar tapan qaçaqçılıq da buradan baş götürürdü. Bir tərəfdən Məmmədhəsən əmilər, Novruzəlilər, o biri tərəfdən qaçaq Nəbilər yaranırdı. İmperiya kifayət qədər "ağıllı" idi. Yerli məmurların əli ilə etdiyi zülm onları pərdə arxasında saxlayırdı. Dövrün mənzərəsi Baba bəy Şakirin, eləcə də Qasım bəy Zakirin əsərlərində aydın şəkildə çəkilir. Başqa tərəfdən, xaçpərəst dövlət içərisində "qərib müsəlman" olmaları hər addımda hiss olunurdu. Məsələyə münasibət bildirən çox da tanınmayan Qarağaşlı Süleyman (XIX əsr, Qubadlı bölgəsi, Qarağaşlı kəndi) bir şeirində "xaçın dövranını" təsvir edərək yazırdı:

*Urusun zakunudu, hər gədəni bəy edəsən,*
*Ağlı dürüst dolanıb canını qurban edəsən,*
*Oğrunu böşduyasan, doğruya divan edəsən,*
*Xəş belə dövranıdı, heş belə dövran olmaz*[1].

Rus idarə üsulunun ağırlığı nəinki o dövrün Azərbaycan qaynaqlarında, hətta rus qaynaqlarında belə etiraf olunur. Hər şeydən öncə, belə idarə üsulu onların psixologiyasına uyğun deyildi. Bu səbəbdən onlar mümkün olduğu qədər rus inzibati sistemindən ("urusun silistinnən") uzaq olmağa və bir çox mübahisəli məsələləri ənənəvi institutların yardımı ilə həll etməyə çalışırdılar. Seçilmişlərdən təşkil olunan ənənəvi zadəganlıq (bəy, xan, üləma) rus boyunduruğunun zərbi-dəstini hiss edib yenidən seçilmək məcburiyyəti qarşısında qaldılar. Əvvəllər dövlətin özü olan bu təbəqə bu dəfə dövlətin əl buyruqçusuna çevrildi. Onun buyruqlarına boyun əyib cani-dildən yerinə yetirənlər etibar sahibi oldu və etibar sahibi olmaq üçün yarış başladı. Xalqın öncül şəxsiyyətləri ona xəyanət edənlərlə əvəz olundu. Yad ağanın "malades"inə təşnəlik duyğusu, öz soyundan olanları günahkar bilmək düşüncəsi ayaq açıb yeriməyə

---

[1] Azərbaycan folkloru antologiyası. XII kitab: Zəngəzur folkloru. Bakı, 2005, s. 442

başladı. Bir-birini xor görmək düşüncə tərzinə çevrildi. Qul düşüncəsi xalqın içərisində bu şəkildə intişar tapdı. Dünyanın ən kübar, ən nəcib xalqlarından biri zəlilləşdirildi, özü öz gözündən salındı, özü-özündən diksindirildi.

Ancaq bu zülmətin içərisində bir işıq qapısı da görünürdü: milli marifçilik düşüncəsi.

XVIII əsrdə Fransada başlayan maarifçilik düşüncəsi öncə Avropanı, ardınca bütün dünyanı ağzına aldı. Yeni dünyanın içərisinə qatılan müstəmləkə xalqların nümayəndələri, o cümlədən Azərbaycan türklərinin içərisindən çıxmış təhsilli adamlar da maarifçilik ideyalarına biganə qalmadılar. Məlum ideyadan hər bir xalq öz ehtiyaclarına uyğun şəkildə istifadə edir.

M.F.Axundzadə ilə başlayan maarifçilik ideyaları İslam dünyasını, xüsusilə İranı, maarifçik müstəvisində nizama gətirmək məqsədi gü-dürdü. Maarifçilik ideyaları və dolayısı ilə Avropa ilə tanış olan bu vətənpərvər şəxs İslam ölkələrinin məğlubiyyətinin səbəbini anladı. İslam dünyasının rəzil vəziyyətindən dəhşətə gələn bu insan bütün yaradıcılığı boyu despotizmə, patriarxal idarə üsuluna lənət oxudu. Azərbaycan maarifciliyi tarixi boyu bu xətti

saxladı. Ancaq İslam ölkələrinə ünvanlanan Axundzadə maarifçiliyi müəyyən müddətdən sonra milli maarifçilik rəngi aldı və bu şəkildə ümmətdən millətə keçid hərəkatı başladı. Yəni milli mənsubiyyət düşüncəsi dini mənsubuyyət düşüncəsindən önə keçirildi. Bu isə, hər şeydən öncə, vətən, millət, dil tezisini əsas götürüb onu düşüncə qəlibinə çevirmək demək idi. Bu düşüncə şəklinin əsas hədəfi milli iradəyə söykənən demokratik dövlət arzusu idi. Milli maarifçiliyin qarşıya qoyduğu vəzifə kifayət qədər böyük idi və özü qədər də böyük işlərin görülməsini tələb edirdi. Hər şeyin "tərbiyeyi-millət-dən başladığını maarifçilər aydın şəkildə anlayırdılar. Çünki bu şüur tipi tamamilə yeni idi və xalqın bunu mənimsəməsi lazım idi. Bununla yanaşı, dünyanın bütün xalqları milli düşünçə şüuruna yiyələnmək yolu ilə millət olmuşdular və bu məsələdə istisnaya yer yox idi. Hər şeyin anadilli məktəb və milli mətbuatdan başlanmalı olduğunu anlamaq o qədər də çətin deyildi. "Əkinçi" ilə başlayan milli mətbuat yeni-yeni qəzet və jurnallarla zənginləşdi. Yazılan yazılardan maariçilərin anadilli məktəb məsələsi və onunla bağlı əngəllər barədə düşüncələri açıq şəkildə ifadə olunur. Onlar qarşıya çıxan

əngəllər qarşısında aciz qalıb əllərini qoyunlarına qoymadılar. Müxtəlif təhsil ocaqlarında oxumuş və ya sadəcə savad sahibi olan insanlar bu hərakata qoşuldu. Dərsliklər yazıldı, məktəblər təsis olundu. Azərbaycan cəmiyyətində yeni şəxs – müəllim peyda oldu. İlk müəllimlər, ilk maarifçilər idi. Məktəb bu vaxta qədər mollanın əlində idi və mollaxanalarda ümmət yetişdirilirdi. Bu səbəbdən müəllimlə molla arasında qarşıdurma barışmaz şəkil aldı. Qələm sahibi marifçi-müəllimin əsas hədəflərindən biri təhsilə sahiblik edən molla oldu. Çünki məktəbin yolu mollanın nüfuzunun sındırılmasından keçirdi. Bu səbəbdən molla və o dövrün dini-fanatizmi əsas tənqid hədəfinə çevrildi. Maarifçilik işığında çəhalət görünən hər şey tənqid olundu. *Azərbaycan* adlanan böyük vətən, *türk* adlanan xalq anlayışı bu vaxt milli məzmun qazandı. Orta əsrlər boyu, əsas etibarilə, *türki* adlanan dil *türk dili* şəklinə salındı və ona milli anlam verildi. Bölünmüş vətən anlayışı ortaya çıxdı. Millətləşməyə əngəl olan dini-təriqət ayrımı rədd edildi və s.

Ədəbiyyat ilk dəfə olaraq milli maarifçilik düşüncəsi ilə öz işığını sadə xalqın üzərinə saldı və burada yenə də marifçilik işığında tənqid

edilməli olanlardan başqa bir şey görmədi. Bu tənqidlərin hamısı xalqı gələcəyə hazırlamaq üçün maariflənmə və millətləşmə naminə yazılırdı. Novruzəli, Qasım əmi, Məmmədhəsən əmi, Xudayar bəy, Şeyx Nəsrullah, Molla Abbas, Şeyx Şəban, Kefli İsgəndər, Fəxrəddin, Fərhad və s. qəhrəmanlar bu məqsədlə məşhurlaşdı. Ümmətləşmə üçün məscid var idi. Möminlər bura toplaşıb Cuma namazı qılırdılar. Millətləşmə üçün teatr zəruriyyəti yarandı. Milli düşüncə sahiblərinin bir yerə cəm olması üçün çoxlu teatr əsərləri yazıldı və teatr fəaliyyətə başladı.

Şərin gücü qarşısında bəzən ümidsizliyə qapılıb "biçarə vətən","yazıq vətən" desələr də, bu yolda yürüməkdən usanmadılar. Adı bəlli olan şəxsiyyətlər Azərbaycan türklüyünü yaratdılar və bu böyük insanlar doğulmaqda olan millətin əzizlərinə çevrildilər. Onların əməyi sayəsində Azərbaycan türkləri yaşamaq, var olmaq haqqı qazandı. Bəzən haqlı olaraq Qacar sülaləsindən alınan bu torpaqların İran torpağı olduğu iddia olunur. Görəsən, bu İran deyilən ölkə Şimal Azərbaycanın öz dəyərləri ilə bu ölkəyə qatılmasını istərmi? Söhbət M.F.Axundzadəli, A.Bakıxanovlu, N.Vəzirovlu, Ə.Haqverdiyevli, Y.V.Çəminzəminlili, C.Məmədquluzadəli,

M.Ə.Sabirli, Ü.Hacıbəylili, M.Hadili, A.Səhhətli, Ə.Hüseynzadəli, H,Cavidli, F.Köşərlili, M.Rəsulzadəli, Ə.Topçubaşovlu və adını çəkmədiyimiz yüzlərlə əziz insanlarımızdan və ya müstəmləkə olduğumuz vaxtdan bu tərəfə başımıza gələn saysız-hesabsız müsibətlərimizdən gedir. Azərbaycan türklüyünü yenidən ümmətə qaytarma cəhdləri gözümüzün qarşısında baş verir. Buna nail olmaq üçün öncə şüurlara hopmuş milli maarifçilik düşüncəsini silmək lazımdır.

Azərbaycan maarifçiləri öz xalqını səmimi qəlbdən sevirdi və ondan millət yaradıb mədəni dünyaya qoşmaq üçün böyük əmək sərf etdilər. Azərbaycan Demokratik Cümhuriyyəti onların əməyinin bəhrəsi idi. Buna baxmayaraq, Azərbaycan milli marifçilik hərəkatı öz hədəfinə çata bilmədi...

Bolşevik işğalı hər şeyi yarımçıq qoydu... Onlar özləri ilə bərabər bölşevik ideologiyası da gətirmişdilər. Milli maarifçilik əvəzinə milli simadan məhrum xalq maarifi, milli maarifçiliyi təmsil edən müəllim əvəzinə xalq və ya sövet müəllimi, milli ruhdan doğulan və millətin dərdindən yaranan milli ədəbiyyat əvəzinə sovet ədəbiyyatı, milli mətbuat əvəzinə sovet mətbuatı, milli teatr əvəzinə sovet teatrı... Məlum ol-

du ki, hər bir xalqın düşməni onun milli düşünən ziyalıları və varlı təbəqəsidir. Bu səbəbdən hər iki təbəqənin mənsublarına divan tutuldu. Milli maarifçilik bu şəkildə ömrünü başa vurdu. Azərbaycan bu dəfə bolşevik ümmətinə çevrildi. Çox keçmədi ki, bolşeviklər "onlara bəraət verdilər". Ancaq bu bəraət onlara ağır başa gəldi: əsərləri sovet ideologiyasına uyğun yozuldu, yozulması mümkün olmayan yerlər kəsilib atıldı, əsərləri yandırıldı və ya gizlədildi. Bu şəkildə hökumətin nəzərində sığortalandı... Müstəqillik illərində isə millətləşmə prosesinin necə getməsi gözlərimizin qarşısında baş verir...

Ən nəhayət, milli maarifçilik hərəkatı heç bir xalqa qarşı çevrilməmişdi. Bu axın İranda türklərin hakimiyyətdə olduğu zamanda Qızılbaş imperiyasının yaratdığı ölkənin yükünü daşımaqdan imtina edib Azərbaycan cöğrafiyasında formalaşmış Azərbaycan türklərini millətləşdirmək uğrunda mübarizə aparırdılar və bu coğrafiyada yaşayan xalqın milli müstəqillik düşüncəsinin ifadəçiləri idilər.

Müasir dövrdə etnik və etnoqrafik Azərbaycan türkü Azərbaycan Respublikasından başqa, Rusiya federasiyasının Dərbənd şəhərində, Türkiyə Cümhuriyyətinin şərqində

(Qars, İğdır və s. bölgələrində yaşayan tərəkəmələr və azəri adı ilə tanınan qrup), Şimal-qərbi İranda (Şərqi və Qərbi Azərbaycan, habelə Ərdəbil, Zəncan, Gilan, Həmədan, Qəzvin ostanlığında və s.) məskunlaşmışdır. Səlcuqlular dövründən İranın iç bölgələrində yaşayan türklər Azərbaycan türkü deyil. Bununla bərabər, Qaşqaylar tər-təmiz Azərbaycan türkləridir, yəni Azərbaycan ərazisindən hazırda yaşadıqları bölgəyə köçürülmüşdür[1]. Demoqrafik siyahılarda şahsevən, qacar, əfşar adı ilə təqdim olunan etnoqrafik qruplar da Azərbaycan türklərinin bir parçasıdır. Əfqanıstan və Pakistanda *qızılbaş* adı ilə tanınan etnoqrafik qruplar vaxtilə siyasi səbəblərlə bağlı olaraq bu bölgələrə yerləşdirilmişdir. Onların tarixi vətəni Azərbaycandır. Müasir dövrdə Azərbaycan türkləri dünyanın hər tərəfində yaşayırlar.

Ən nəhayət, biz Azərbaycan türkləri deyərkən etnik türkləri nəzərdə tutmuruq. Bu etnonim bizim nəzərimizdə Azərbaycan ərazisində yaşayan bütün qeyri-türk xalqları da öz içərisinə alır və doğru olan da budur. Bu coğrafiyada məskunlaşan xalqlar uzun əsrlər boyu müəyyən siyasi sistemin himayəsi altında öz

[1] İbrahimov T.Ə. Qaşqaylar. Bakı, 1988, s. 75-114

varlıqlarını davam etdirmişdilər. Bu dövrdə bu xalqlar bir-birindən nələrisə öyrənmiş və nələrisə öyrətmişdir. Bu şəkildə etnoqrafik birlik ərsəyə gətirmişlər. Səbəbsiz deyil ki, istər etnik türklər, istərsə bölgədə yerləşən azsaylı xalqlar bu coğrafiyadan kənarda yaşayan soydaşlarından davranış stereotiplərinə görə fərqlənirlər. Bu etnik-mədəni dünya Azərbaycan insanını ortaya çıxardır ki, biz hazırda onlara *azərbaycanlılar* deyirik. Ancaq *azərbaycanlı* etnonimi sözügedən xalqı mahiyyətinə uyğun şəkildə ifadə etmir. Deyidiyi kimi, bu adı biz etnosun yaşadığı coğrafiyanın adından almışıq. Əlbəttə, coğrafiya xalqın formalaşmasında rol oynayan mühüm amildir. Amma bu coğrafiyanı məskunlaşdıran xalq var. Bu xalqın coğrafiya üzərində haqqı tapdalanır. Bununla yanaşı, coğrafi kimlik olmur. Dünyada mövcud olan xalqların əksəriyyəti etnik kimliklə tanınır və bu kimlik xalqın yaşadığı coğrafiyanı da öz içərisinə alır.

Azərbaycanda tarıx boyu müxtəlif xalqlar məskunlaşıb. Gəlin unutmayaq, eramızın II minilliyindəki Azərbaycan bu dövrə qədərki Azərbaycandan bütün müstəvilərdə köklü şəkildə fərqlənir və bu fərqlənmə türklərin hesabına baş verir. Tarixin heç bir dövründə məlum

coğrafiya çərçivəsində etnik və siyasi birlik olmayıb. Bu hadisə türksoylu etnik dünyanın mənsublarının minillik mübarizəsi hesabına mümkün olmuşdur. Elə onların hesabına da Azərbaycan adı siyasi anlam qazandı. Əgər türklər olmasaydı məlum coğrafiyada siyasi hakimiyyət mövcud olmayacaqdı. Bu səbəbdən siyasi hakimiyyət qurub məlum coğrafiyanı etnik baxımdan şəkilləndirən və onun verdiyi ritmlə yaşayıb formalaşan bölgə sakinləri (Azərbaycan insanı) Azərbaycanı siyasi anlamı ilə ölkə edən xalqın adını ona çox görməməlidir. Bu xalqın adı türkdür. Əvvəllər superetnik, ardınca etnoqrafik anlam daşıyan bu ada Azərbaycan cümhuriyyəti dövründə milli anlam verildi. Türki-Rum izafətinin yerini tütan Türkiyə türklərindən fərqləndirmək üçün türklərin coğrafi məskunlaşmasını ifadə edən türki-Əcəm izafəti etnik məzmun daşıyan Azərbaycan türkləri etnonimi ilə əvəz edilir. Bu ad həm də müasir İranın Azərbaycandan kənarda qalan bölgələrində səlcuqlular dövründən varlığını davam etdirən və Azərbaycan ərazisində tarixi olmayan türkləri Azərbaycan türklərindən ayırır və Azərbaycan coğrafiyasının xalqın formalaşmasında mühüm amil olduğunu üzə çıxardır.

Azərbaycan xalqının etnik adının coğrafi adla əvəz olunmasının səbəbi aydındır. Coğrafi ad xalqı Türkiyə türklərindən ayırmaq ehtiyacından ortaya çıxmışdır və birbaşa imperiyaçı düşüncənin məhsuludur. Köhnə düşüncədən qurtulmanın imperiyadan qurtulmadan qat-qat çətin olduğunu anlayırıq. Ancaq nə qədər ki, coğrafi ad etnik adı əvəz edir, bu düşüncə tipinin davam etdiyini də söyləməyi özümüzə borc bilirik. Bizim kim olduğumuzu araşdırmağa ehtiyac yoxdur. Azərbaycanda tarixən və bu gün yaşayan azsaylı xalqlar (talışlar, lahıclar, tatlar, ermənilər), tarixən tanındığımız kimi, bizi *türk* adı ilə tanıyır. Kiminin azəri, kiminin azər, kiminin azərbaycanlı, kiminin alban, kiminin atropaten, kiminin tatar, kiminin tərəkəmə, kiminin qarapapaq, kiminin muğal, kiminin padar, kiminin qızılbaş adı ilə təqdimi milli heysiyyətimizin çeynənməsi şəkillərindən biridir və son dərəcə ağırdır. Nə qədər ki, tarixi adımız bərpa olunmayıb və etnik tariximiz etnik kimliyimizlə bərabərləşməyib, Azərbaycanda milli şüur formalaşdırmaq mümkün deyil.

# ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**

1. Azərbaycan dastanları./Tərtib edəni: M.Təhmasib. V clddə, IV c., Bakı: Çıraq, 2005.

2. Azərbaycan dastanları./Toplayanı və tərtib edəni: Ə.Axundov. V cilddə, III c., Bakı: Çıraq, 2005.

3. Azərbaycan dastanları./Tərtib edəni M.Təhmasib. V cilddə, IV c., Bakı: Çıraq, 2005.

4. Azərbaycan folkloru antologiyası. XII kitab: Zəngəzur folkloru./Tərtib edənlər: Ə.Əsgər, M.Kazımoğlu. Bakı: Səda, 2005.

5. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi, I hissə, Bakı: Elm, 1979.

6. Əbu Həyyan Əl-Əndəlusi. Kitabi əl-idrak li-lisan əl-ətrak (türk dillərini dərketmə kitabı). Bakı: Azərnəşr, 1992.

7. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993.

8. Əsgər Ə. "Manas" dastanında türklük şüuru. "Elm" qəzeti, 27.08.1999

9. İbn Bəzzaz Ərdəbil. Səfvətüs-səfa dər tərcümeyi-əhval və əqval və kəramət Şeyx Səfiəddin Ərdəbil. Müqəddimə və təshih Qulamrza Təbatəbai Məcid, Tehran: 1376.

10. İbrahimov T.Ə. Qaşqaylar. Bakı: Elm, 1988.

11.İrəvan əyalətinin icmal dəftəri./Tərcümə edəni: Z.Bünyadov, H.Məmmədov) Bakı: Elm, 1996.

12. Köprülüzadə M.F. Azəri ədəbiyyatına aid tədqiqlər, Bakı: Sabah, 1996.

13. Qəhrəmanov C., Xəlilov Ş., Mustafa Zərir. Yusif və Züleyxa (poemanın mətni və tarixi-qrammatik oçerk). Bakı: Elm, 1991.

14. Mustafayev Ş. Səlcuqilərdən osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər. Bakı: Elm, 2010.

15. Nəsimi. Seçilmiş əsərləri. / Tərtib edən: H.Araslı, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973.

16. Şah İsmayıl Xətai. Əsərləri. / Tərtib edən: Məmmədov Ə. 2 cilddə, I c. Bakı: Azərnəşr, 1976.

17. Şeyx Hüseyn Pirzadə Zahidi. Silcilətünnəsəbi Səfəviyyə. Berlin: İrannəşr, 1343.

18. Zeynalov F. Türkologiyanın əsasları. / Ali məktəblərin filoloji fakültələrinin tələbələri üçün dərslik. Bakı: Maarif, 1981.

**Türkiyə türkcəsində**

19. Aka İ. Timur ve Devleti. Ankara: Türk Tarih Kurumu Basımevi, 1991.

20. Arat R.R. Ön söz//G.Z.M. Babur: Vekayi: Baburun Hatıratı. C. I. Ankara: Türk Tarih Kurumu Basımevi, 1987, s. 05-0143

21. Aşıkpaşaoğlu Ahmed Aşıkı. Tevarih-i-Al-i Osman. // Osmanlı Tarihleri. C. I. İstanbul: Türkiye Yayınevi, 1949, s. 79-318

22. Atabardıyev X. Medinede Muxammed Türküstanda Xoca Axmed.//Xoca Ahmed Yasavi. Hikmetler. Moskva: İkar, 1992, s.2-5

23. Caferoğlı A. Karahanlılar Devri Türk Edebiyyatı.//Türk Dünyası El Kitabı. C. III. Edebiyat. Ankara: Türk Kültürünü Araştırma Enstitüsü, 1992, s. 57-68

24. Erarslan K. Giriş.//Ahmad-i Yesevi. Divan-i Hikmetten Seçmeler. Ankara: Dergah Yayınları, 1983, s.1-46

25. Eröz M. Yörükler. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1991.

26. Gökalp Z. Türk Medeniyyeti Tarihi. İstanbul: Güneş Matbaacılık T.A.S., 1976.

27. Gölpınarlı A. 100 Soruda Türkiyede Mezhebler ve Tarikatlar. İstanbul: Gerçek Yayınevi, 1969.

28. İnalcık H. Osmanlı İmparatorluğu.//Türk Dünyası El Kitabı. C. I. Coğrafiya-Tarih. Ankara: Türk Kültürünü Araşdırma Enstütüsü, 1992, s. 457-468

29. Kabaklı A. Türk Edebiyatı. İnsanbul: Türk Edebiyatı Vakfı Yayınları, II c., VI baskı, 1985.

30. Kafesoğlu İ. Büyük Selcuklu İmparatoru Sultan Melikşah. İstanbul: Milli Eğitim Basımevi, 1973.

31. Kafesoğlu İ. Sultan Melikşah Devrinde Büyük Selçuklu İmparatorluğu. İstanbul: İstanbul Universitesi Edebiyat Fakültesi Yayınları, 1953.

32. Kafesoğlu İ. Türk Milli Kültürü. İstanbul: Boğaziçi Yayınları, 1991.

33. Köprülü F. Kai Kabilesi Hakkında Yeni Notlar. Ankara: Türk Tarih Kurumu Basımevi, VIII c., №31, 1944, s. 421-435.

34. Köprülü F. Osmanlı Devleti'nin Kuruluşu. Ankara: Türk Tarih Kurumu Basımevi, 1959.

35. Köprülü F. Türk Edebiyatında İlk Mutasavvıflar. Ankara: Türk Tarih Kurumu Basımevi, 1976.

36. Köymen M. Büyük Selçuklu İmparatorluğu Tarihi. C. I. Ankara: Türk Tarih Kurumu Basımevi, 1989.

37. Mervazinin Eserinin Türklerle İlgili Babının Tercümesi.//Osmanlı Tarihleri. C. I. İstanbul: Türkiye Yayınevi, 1949, s.95-108

38. Nur R. Türk Tarihi. C.V. İstanbul: Toker Yayınları, 1925.

39. Ögel B. Doğu Göktürkleri Hakkında Vesikalar ve Notlar Ankara: Türk Tarih Kurumu. Belleten, Cilt XXI, Sayı 81, 1957, s. 81-137.

40. Ögel B. Uygur Devletinin Teşekkülü ve Yükseliş Devri. Ankara: Atatürk Kültür Dil ve Tarih Yüksek Kurumu Türk Tarih Kurumu, Belleten, XIX, Sayı 75, 1955, s. 331-376.

41. Peacock A.C.S. Krıma Karşı Selçuklu Seferi ve Alaaddin Kaykubadın Hakimiyyetinin İlk yıllarındakı Genişleme Politikası. / Türkceye çevirenler: M.Keçiş & A.Mıynat. // Tarih Araştırmaları Dergisi. Yıl 2010, Cilt: 29 Sayı: 47, s. 70-92.

42. Pelliot P. Uygur Yazısıyla Yazılmış Uğuz Han Destanı Üzerine. / Çeviren: V.Kökten. Ankara: Türk Dil Kurumu Yayınları, 1955.

43. Pir Sultan Abdallar. / Hazırlayan: İ.Arslanoğlu. İstanbul: Erman Yayınevi, 1984.

44. Sümer F. Oğuzlar (Türkmenler): Tarihleri – Boy Teşkiatı – Destanları. İstanbul: Ana Yayıncılık, 1980.

45. Timurtaş F.K. Türkiye edebiyatı. // Türk dünyası el kitabı, IIIc., Ankara: Türk Kültürünü Araştırma Enstitüsü, 1992, s.107-130

46. Togan Z.V. Oğuz Destanı. Reşideddin Oğuznamesi, tercüme ve tahlili. İstanbul: Enderun Kitabevi, 1982.

47. Togan Z.V. Umumi Türk Tarihine Giriş. İstanbul: Enderun Kitabevi, 1981.

48. Türkiye Cumhuriyyetini Kuran Türk Milletinin Tarihi. Ankara: T.C. Genelkurmay Başkanlığı Kara Kuvvetleri Komutanlığı, 1988

49.Yazıcızade A. Tevârih-i Âl-i Selçuk. [Oğuzname-Selçuklu Tarihi]. (Giriş-Metn-Dizin). /Hazırlayan: Dr. A.Baki. İstanbul: Camlıca Basım Yayın, 2009.

**Noqay dilində**

50. Noqoydın kırk batiri. Ediqe. Maxaçkala, 1991, s.110-117

**Türkmən dilində**

51. Magtymguli. Qoşqular / G.G.Gubansahedowyn red. bilən. Aşqabat, Turan neşriyaty, 1991.

**Rus dilində**

52. Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва: Наука, 1991.

53. Агаджанов С.Г. Новые материалы о происхождении туркмен.//Известия АН Туркменской ССР. Серия общественных наук, №2, 1963, с.12-24.

54. Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад: Ылым, 1969.

55. Агаджанов С.Г. Средневековые этимологии названия «туркман». // Проблемы этногенеза туркменского народа. Ашхабад: Ылым, 1977, с. 86-94

56. Алпамыш. Узбекский народный эпос. / Перевод Л.М.Пеньковского. Ленинград: «Советский писатель» Ленинградское отделение, 1982

57. Ахинжанов С.М. Из истории движения кочевых племен евразийских степей в первой половине XI в. // Археологические исследования древнего и средневекового Казахстана. Алма-Ата: Наука, 1980, с.46-53.

58. Ахинжанов С.М. Об этническом составе кипчаков средневекового Казахстана. // Прошлое Казахстана по археологическим источникам. Алма-Ата: Наука, 1976, с.81-93.

59. Бабаева А. Туркмены Афганистана: история расселения, племенной состав, очерк политической истории 20-30-х годов XX века. Автореферат на соискании канд. наук, 1985.

60. Бартольд В.В. Еще о слове «сарт». Сочинения. Т.II, ч. 2, Москва: Наука, 1964, с. 310-314

61. Бартольд В.В. Извлечение из сочинения Гардизи Зайн ал-ахбар. Приложение к

«Отчету о поездке в Среднюю Азию с научною целью 1893-1894 гг.». // Сочинения. Т. VIII, Москва: Наука, 1973, с. 23-62.

62. Басилов В.Н. О происхождении туркмен-ата. // Домусульманские верования и обряды в Средней Азии. Москва: Наука, 1975, s.138-168.

63. Баскаков Н. А. Ногайский язык и его диалекты, Москва-Ленинград: Наука: 1940.

64. Баскаков Н.А. К вопросу о классификации тюркских языков. // Известия АН СССР. Отделение литературы и языка. Т. XI. Вып. 2. Москва: 1952, с. 121-134. URL: https://altaica.ru/-LIBRARY/AN_SSSR/baskakov1.pdf

65. Беселков Т. Очерки туркменской литературы. Ашхабад, 1945.

66. Бичурин Н.Я. (Иакинф). Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. Т. II, Москва-Ленинград: Издательство АН СССР, 1950.

67. Босворд К.Э. Нашествие варваров: появления тюрок в мусульманском мире. // Мусульманский мир. 950-1150. Москва: Наука, 1981. С. 20-35

68. Бромлей Ю.В. Ф.Энгельс и проблемы архаической формы семейной общины. //

Проблемы этнографии и антропологии в свете научного наследия Ф.Энгельса. Москва: Наука, 1972. С.161-168

69.Бунятов З.М. Государство Атабеков Азербайджана (1136-1225 годы). Баку: Элм, 1978.

70. Васильева Т.П. Этнические компоненты в составе туркмен, по данным этнографии. // Проблемы этногенеза туркменского народа. Ашхабад: Ылым, 1977, s. 95-108

71. Гёр-оглы. Туркменский героический. / Составитель и перевод Б.А.Каррыев. Москва: Наука, 1983.

72. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку: Элм, 1991.

73. Гордлевский В.А. Государство Сельджукидов Малой Азии. Избранные сочинения. Т. I, Москва: Издательство Восточной Литературы, 1960.

74. Гордлевский В.А. Ходжа Ахмед Ясеви. // Избранные сочинения. Т. III, Москва: Издательство Восточной Литературы, 1962. С. 361-368

75. Грум-Грижимайло Т.Е. Западная Монголия и Урянхайский край. Т. II, Санкт-Петербург, 1926.

76. Гузеев В. Г. Краткий обзор исследований по языку тюрков Малой Азии. // Тюркологический сборник, 1972. Москва: Наука, 1973, с. 69-92

77. Гумилев Л.Н. География этноса в исторический период. Ленинград: Наука, 1990.

78. Гумилев Л.Н. Древние тюрки. Москва: Наука, 1967.

79. Гумилев Л.Н. Древние тюрки. Москва: Клышников, Комаров и Ко, 1993.

80. Гумилев Л.Н. Ритмы Евразии. Москва: Экопрос, 1993.

81. Гумилев Л.Н. Тысячелетие вокруг Каспия. Баку: Азернешр, 1991.

82. Гумилев Л.Н. Удельно-лествичная система у тюрок в VI-VIII веках. Советская этнография, 1959, № 3, s.11-25.

83. Гусейнов Р.А. Институт атабеков. // Палестинский сборник. Вып. 15 (78), 1965, s.181-196.

84. Гусейнов Р.А. Сельджукская военная организация. // Палестинский сборник. Вып. 17 (80), 1967, s.131-147

85. Демидов С.М. Суфизм в Туркмении. Ашхабад: Ылым, 1978.

86. Зуев Ю.А. Тамги лошадей из вассальных княжеств. Перевод из китайского сочинения VIII-X вв. Танхуйяо, Т. III, глава (цзюанъ) 72, стр. 1305-1308. // Труды Института истории, археологии и этнографии АН Казахской ССР. Т.8, 1960, с. 93-140

87. Зуев Ю.А. Из древнетюркской этнонимики по китайским источникам. // Труды Института истории, археологии и этнографии АН Казахской ССР. Т.15, 1962, 103-122.

88. Йомудский Карашхан оглы Н.Н. Из народного предания туркмен. «В.В. Бартольду». Ташкент, 1927.

89. Каэн К. Кочевники и оседлые в средневековом мусульманском мире. // Мусульманский мир 950-1150. Москва: Наука, 1981, с.111-122

90. Кляшторный С.Г. Терхинский надпись (предварительная публикация). // Советская тюркология. Баку, 1980, №3, с. 81-95.

91. Кобланды-Батыр. Казахский героический эпос. Москва: Наука, 1975.

92. Кононов А.Н. Родословная туркмен. Сочинение Абу-л-Гази хана Хивинского. Москва-Ленинград: Издательство АН СССР, 1958.

93. Краморовский М. Г. Крым и Рум в XIII-XIV столетиях (Анатолийская диаспора и городская культура Солхата). // Золотоординское обозрение, №1, 2016, с. 55-88.

94. Крымский А.Е. Низами и его современники. Баку: Элм, 1981.

95. Кузеев Р.Г. Происхождение башкирского народа. Москва: Наука, 1974.

96. Кумеков Б.Е. Государство Кимаков IX-XI вв. по арабским источникам. Алма-Ата: Наука, 1972.

97. Липец Р.С. Образы батыра и его коня в тюрко-монгольском эпосе. Москва: Наука, 1984.

98. Лэмбтон Э.К.С. Аспекты расселения сельджуков-огузов в Иране // Мусульманский мир 950-1150. Москва: Наука, 1981, с. 123-144

99. Малов С.Е. Остатки шаманства у желтых уйгуров. // Живая старина. Вып. 1, 1912, s.67-72.

100. Мамедов С.А. Азербайджан по источникам XV – первой половины XVIII вв. Баку: Елм, 1993.

101. Меликов И. О Среднеазиатском происхождении суфизма Анатолии. // Советская тюркология, Baky, 1988, № 5, s.22-28.

102. Минорский В.Ф. От редакторов. Фазлуллах ибн Рузбихан Хунджи. Тарих-и аламара-йи Амини. Баку: Елм, 1987. // с. 3-13

103. Мустафаев Ш. М. Восточная Анатолия от Ак-Коюнлу к Османской империи. Москва: Восточная литература, 1994.

104. Наджип Э.Н. Историко-сравнительный словарь тюркских языков XIV века. На материале «Хосров и Ширин» Кутба. Кн. I, Москва: Наука, 1975.

105. Плетнева С.А. Половцы. Москва: Наука, 1990.

106. Рипка Я. История персидской и таджикской литературы. Москва: Наука, 1970.

107. Родлов В.В. Из Сибири: страницы дневника. Москва: Наука, 1989.

108. Сухарева О.А. О некоторых элементах суфизма генетически связанных шаманизмам. // Материалы второго совешания археологов и этнографов Средней Азии. Москва – Ленинград: Наука, 1969, s.128-193.

109. Тенишев Э.Р. Саларские тексты и материалы. Москва: Наука, 1964.

110. Тихонов Д.И. Хозяйство и общественный строй уйгурского государства X-XIV вв. Москва-Ленинград: Наука, 1966.

111. Толстов С.П. Города гузов. // Советская этнография. №3, 1947, с. 55-102.

112. Толстова С.А. Исторические предания Южного Приаралья. Москва: Наука, 1984.

113. Туркмены / Редактор Дубова Н.А. Москва: Наука, 2016.

114. Фазлуллах ибн Рузбихан Хунжи. Тарих-и Алам-Ара-йи Амини. / Редакторы З.М.Буниятов, О.А.Эфендиев. Баку: Элм, 1987.

115. Фазлаллах Рашид-ад-Дин. Огуз-Наме. Баку: Наука, 1987.

116. Фазлаллах Рашид-ад-Дин. Сборник летописей. Т. I, кн. 1. Москва-Ленинград: Издательство АН ССР, 1952.

117. Ханыков Н.В. Записки по этнографии Персии [Текст]: [Пер. с фр.]. Москва: Наука, 1977.

118. Хурлукга и Хемра. Саят и Хемра: туркменский романический эпос. Москва: Наука, 1971.

119. Щербак А.М. Огуз-Наме, Мухаббат-Наме. Москва: Издательство Восточной Литературы, 1959.

120. Якубовский А.Ю. Вопросы этногенеза туркмен в VIII-X вв. // Советская этнография, №3, 1947, s. 48-54.

# ЗАКЛЮЧЕНИЕ

В VIII веке на исторической арене появился народ, называвший себя тюркмен / тюркман. Они были первыми тюрками, принявшими ислам. Приняв это имя, они, с одной стороны, заявили тенгрианскому тюркскому миру, что часть их соплеменников приняла ислам, а с другой стороны — сообщили исламскому миру о присоединении тюрков к его рядам. О происхождении первых тюркманов достоверных сведений нет. Из последующих источников известно, что среди них были группы карлуков, уйгуров, кипчаков, канглы и других тюркских объединений. Первоначально тюркманы существовали как община, но вскоре стали «вратами свободы» для других тюркских этносов. Люди, уставшие от прежних норм жизни, покидали свои племенные объединения семьями или родами, принимали ислам и присоединялись к тюркманам. В X веке произошло событие, сыгравшее важную роль в их истории: огузские роды в большом количестве приняли ислам и влились в состав тюркманов. В результате в составе этого нового на-

рода число огузов по происхождению групп оказалось больше, чем представителей других этнических объединений. Именно поэтому в историографии этот народ отождествляется с огузами, а этноним *тюркман / тюркмен* рассматривается как новое название огузов, принявших ислам. Однако они не просто приняли ислам — они сформировались как народ на основе этой религии. Это новое явление в тюркской истории по своему характеру. в тюркской истории. По этническому составу и характеру этнической системы тюркманы существенно отличались от огузов. Прежде всего, они осознавали себя как отдельный народ, считая огузов своими предками. В отличие от огузов, в этносистеме туркманов не существовало иерархического деления на правое и левое крыло (учук-бузук). Тюркманы состояли из независимых племенных объединений, а память об этом древнем делении сохранялась среди них лишь как духовное наследие предков. Кроме того, в состав тюркман входили не только огуз-ские, но и карлукские, уйгурские, кипчакские, канглинские и другие тюркские элементы. Карлукские, кипчакские и уйгурские

черты, проявляющиеся существующие в тюркманском языке, свидетельствуют об этом процессе.

После победы сельджукидов над газневидами в 1140 / 1141 гг. тюркманы под знаменем сельджукидов распространились по Ирану, Азербайджану, Анатолии и Аравии. Многие государства, возникшие в этих землях (Сельджуки, Хорезмшахи, Османы, Кара-Коюнлу, Ак-Коюнлу и др.), стали плодом политического гения этого народа.

В регионах, куда расселились тюркманы, с ними происходили определённые изменения, главным из которых стал переход к оседлому образу жизни. Осевшие тюркманы отделялись от своей кочевой среды и начина-ли жить в новых условиях. Со временем они стали называться турками и, забыв тюркманскую принадлежность, противопоставляли себя кочевому миру как представители оседлой культуры. Этот процесс быстрее проходил в Средней и Западной Анатолии, чем на Востоке. К XV веку кочевой образ жизни здесь почти исчез, тогда как в Восточной Анатолии, Азербайджане, Ираке, Сирии, Хорасане, Хорезме, Мавераннахре и

Туркестане он сохранялся. Османская империя представляла оседлый тюркский мир, а государства Кара-Коюнлу и затем Ак-Коюнлу — кочевой тюркманский. Кочевники-юрюки, входившие в состав Османского государства, изначально были тюркманами. После административной реорганизации они стали называться юрюками. Таким образом, к XV веку Средняя и Западная Анатолия были в основном тюркскими регионами, тогда как Восточная Анатолия, Сирия, Ирак и Азербайджан оставались центрами тюркманского мира. В самом начале XVI века одно событие привело к распаду тюркман как единого народа.

Большинство племён, вошедших в политическое объединение кызылбашей, имело тюркманское происхождение. Однако их появление на исторической арене опиралось не на тюркманскую этническую идентичность, а на орденскую принадлежность, основанную на учении двенадцати имамов. И вновь мы сталкиваемся здесь с явлением формирования народа на основе веры.

За короткое время кызылбаши подчинили огромные территории. Их возвышение

совпало с распадом тюркман как этноса. Большая их часть вошла в кызылбашское объединение, другая сохранилась под властью Османов или кызылбашей. В среде кызылбашей как суннитские, так и шиитские тюркманы постепенно утратили значительную часть этнической традиции. Превращение этнонима *тюркман* в форму *терекеме* связано именно с этим процессом. Тюркманы, поселившиеся в Ираке, Сирии и других арабских странах, являются осколками некогда великого тюркманского народа.

Когда кызылбаши направились в Хорасан, тюркмены современного Туркменстана, оставаясь верными своей традиции, не признали их своими и выступили против них. С этого времени начался новый процесс этногенеза. Современные тюркмены Туркменистана, а также тюрки Азербайджана и Турции являются результатом этого процесса. Вместе с тем великие тюркманы вошли в состав узбеков, казахов, ногайцев, башкир, крымских татар и других народов, став частью их этнической общности.

# SUMMARY

In the 8th century, a nation known as the Turkmen / Turkman appeared on the historical stage. They were the first Turks to adopt Islam. By accepting this name, they signaled, on the one hand, to the Tengrist Turkic world that a part of their kin had embraced Islam, and on the other hand, they informed the Islamic world that the Turks had joined its ranks. There is no reliable information about the origin of the first Turkmans. Later sources indicate that among them were groups of Karluks, Uighurs, Kipchaks, Kangly, and other Turkic communities. Initially, the Turkmans existed as a single community, but soon they became a "gateway to freedom" for other Turkic nations. People who had grown weary of their former ways of life left their tribal unions as families or clans, embraced Islam, and joined the Turkmans. In the 10th century, an event occurred that played an important role in their history: a large number of Oghuz clans adopted Islam and merged into the Turkmans. As a result, within this new people, groups of Oghuz origin came to outnumber representatives of other ethnic

formations. For this reason, historiography often identifies this people with the Oghuz, and the ethnonym Turkman / Turkmen is interpreted as a new name for the Oghuz who accepted Islam. However, they did not simply adopt Islam; they were formed as a people on the basis of this religion. This was a new process in Turkic history in its very nature. In terms of ethnic composition and the character of their ethnic system, the Turkmans differed significantly from the Oghuz. Above all, they were conscious of themselves as a distinct people, regarding the Oghuz as their ancestors. Unlike the Oghuz, there was no hierarchical division into right and left wings (Uchok–Bozok) within the Turkmans' ethnosystem. The Turkmans consisted of independent tribal unions, and the memory of this ancient division survived among them only as the spiritual heritage of their ancestors. Moreover, the composition of the Turkmans included not only Oghuz elements, but also Karluk, Uighur, Kipchak, Kangly, and other Turkic components. The presence of Karluk, Kipchak, and Uighur features in the Turkman language bears witness to this process.

After the Seljuks' victory over the Ghaznavids in 1140 / 1141, the Turkmans, under Seljuk banners, spread across Iran, Azerbaijan, Anatolia, and Arabia. Many states that emerged in these lands such as the Seljuks, the Khwarazmshahs, the Ottomans, the Kara Koyunlu, the Ak Koyunlu, and others became the product of this people's political genius.

In the regions where the Turkmans settled, certain transformations took place, the most important of which was the transition to a sedentary way of life. Sedentary Turkmans separated from their nomadic environment and began to live under new conditions. Over time, they came to be called Turks and, having forgotten their Turkman affiliation, contrasted themselves with the nomadic world as representatives of a settled culture. This process unfolded more rapidly in Central and Western Anatolia than in the East. By the 15th century, the nomadic way of life there had almost disappeared, whereas in Eastern Anatolia, Azerbaijan, Iraq, Syria, Khorasan, Khwarazm, Mawarannahr, and Turkestan it continued to persist. The Ottoman Empire represented the settled Turkic world, while the states of Kara

Koyunlu and later Ak Koyunlu represented the nomadic Turkman one. The Yoruk nomads who were part of the Ottoman state were originally Turkmans. After administrative reorganization, they came to be known as Yoruks. Thus, by the 15th century, Central and Western Anatolia were largely Turkic regions, whereas Eastern Anatolia, Syria, Iraq, and Azerbaijan remained centers of the Turkman world. At the very beginning of the 16th century, a single event led to the disintegration of the Turkmans as a unified nation.

Most of the tribes that entered the political union of the Qizilbash were of Turkman origin. However, their appearance on the historical stage was based not on Turkman ethnic identity but on affiliation with a religious order grounded in the doctrine of the Twelve Imams. Once again, we encounter here the process of a people forming on the basis of faith.

Within a short period, the Qizilbash brought vast territories under their control. Their rise coincided with the disintegration of the Turkmans as an ethnic group. A large part of them joined the Qizilbash union, while another part remained under the rule of the

Ottomans or the Qizilbash. Within the Qizilbash milieu, both Sunni and Shi`i Turkmans gradually lost a significant portion of their ethnic traditions. The transformation of the ethnonym Turkman into the form Terekeme is directly connected with this process. The Turkmans who settled in Iraq, Syria, and other Arab countries are fragments of what was once a great Turkman nation.

When the Qizilbash advanced into Khorasan, the Turkmens of present-day Turkmenistan, remaining faithful to their tradition, did not recognize them as their own and opposed them. From this time onward, a new process of ethnogenesis began. The modern Turkmens of Turkmenistan, as well as the Turks of Azerbaijan and Turkey, are the result of this process. At the same time, large groups of the former Turkmans became part of the Uzbeks, Kazakhs, Nogais, Bashkirs, Crimean Tatars, and other peoples, merging into their ethnic communities.

## MÜNDƏRİCAT

Kitabın yazılma səbəbi........................................3

### *I fəsil*

Oğuz elnin yaranması və etnosiyasi tarxi........29
Oğuz sözünün sosial və etnik anlamı...............29
Oğuz boylarının mənşəyi...................................31
Oğuz elinin qonşuları........................................39
Oğuz elinin yaranması.......................................41
Kayı hakimiyyəti...............................................42
Oğuz elinin süqutü............................................43

### *II fəsil*

Türkmanlar........................................................47
Etnonim və etnosla bağlı yozumlar.................47
"Müsəlman oğuz" məsələsi..............................51
Türkmanların tarix səhnəsinə çıxışı.................55
Türkman etnosistemi.........................................59
Türkmanlar və səlcuqlular................................72
Oğuzların sonu..................................................78
Türkman coğrafiyası.........................................82
Türkmanlar və türklər........................................88
Türkman dili.......................................................96

## *III fəsil*

Etnosun sonu və yeni etnosiyasi birliklər......114
Yəsəviyyə və qızılbaşların tarix
səhnəsinə çıxışı................................................115
Qızılbaşlar və türkmanlar..............................123
Türkmanlar və türkmənlər.............................126
Osmanlılar və türkmanlar.............................133
Osmanlılar və Türkiyə türkləri......................142
Qızılbaşlar və Azərbaycan türkləri..............145

Ədəbiyyat siyahısı..........................................166
Заключение.......................................................180
Summary..........................................................185

**Əfzələddin Əsgər**
***Böyük türkmanlar və müasir türk xalqları***
Bakı, Elm və təhsil, 2025, 192 səh.

*Nəşriyyat direktoru:*
**Ülya Məmmədli**

*Korrektor:*
**Altunay Əsgər**

*Kompüter tərtibçisi və dizayner:*
**Ləman Abdulxalıqova**

*Kağız formatı: 84x108 1/32*
*Mətbəə kağızı: №1*
*Tirajı: 150*

*Kitab Azərbaycan MEA Folklor İnstitutunun Kompüter Mərkəzində yığılmış, səhifələnmiş, "Elm və təhsil" NPM-də ofset üsulu ilə hazır diapozitivlərdən çap olunmuşdur*